Xalqın qəzeti!

# Xalq qəzeti

№ 43 (31012) 6 mart 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# İstənilən bəd qüvvə bizim “Dəmir yumruğ”umuzu görəcək

## Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası



Səhifə ⇨ 2

## Yaxın Şərqdə gərginlik, Avropada narahatlıq



Səhifə ⇨ 7

## Humanizm və məsuliyyət nümunəsi

### *Azərbaycan İranı tərk etməyə çalışan xarici vətəndaşlar üçün nicat yoludur*



**Son dövrlərdə regionda baş verən hadisələr dövlətlərin milli təhlükəsizlik məsələlərində atdığı addımların bəzən yalnız zaman keçdikcə tam aydın göründüyünü bir daha göstərir. Bu gün Cənubi Qafqaz ətrafında cərəyan edən proseslər fonunda aydın olur ki, Azərbaycanın quru sərhədlərinin bağlı saxlanılması təsadüfi xarakter daşımayan, əsaslandırılmış, müdrik qərar olub. Bu addım ölkəmizin təhlükəsizliyi baxımından düşünülmüş, uzaqgörən və zəruri bir addım idi.**

*(ardı 8-ci səhifədə)*

## Avropa İttifaqı Gürcüstan rəhbərliyini niyə tanımaq istəmir?

**Gürcüstanın Avropa İttifaqı (Aİ) ilə münasibətləri müasir dövlətçilik tarixinin ən mürəkkəb və ziddiyyətli mərhələsinə qədəm qoyub. 2023-cü ilin dekabrında Tbilisinin namizəd statusu alması cəmiyyət tərəfindən tarixi hadisə kimi qarşılanmışdı. Bu qərar ölkənin onilliklərdir davam edən avrointeqrasiya kursunun rəsmi təsdiqi, Gürcüstanın özünü Avropanın siyasi və mədəni məkanının ayrılmaz hissəsi kimi təqdim etməsinin kulminasiya nöqtəsi hesab olunurdu.**



Lakin 2024-cü ilin sonlarından etibarən Gürcüstan–Aİ münasibətləri gözlənilməz və kəskin bir böhran mərhələsinə qədəm qoyub. Brüssel ilə dialoqun soyuması, qarşılıqlı ittihamların intensivləşməsi və xüsusilə üzvlük danışıqlarının 2028-ci ilə qədər təxirə salınması barədə qərar əlaqələri, faktiki olaraq, dondurub. Hazırkı mənzərə artıq, sadəcə, diplomatik soyuqluq deyil, tərəflərin bir-birinin legitimliyini və dəyər sistemini açıq şəkildə sual altına qoyduğu bir qarşıdurma prosesidir. Bu vəziyyət mövcud münasibətləri “strateji qeyri-müəyyənlik” fazasından çıxararaq birbaşa suverenlik mübarizəsinə çevirib.

*(ardı 8-ci səhifədə)*

## Tibbi sığorta mexanizmi “müalicə”yə möhtacdır



Səhifə ⇨ 10

## Naxçıvana zərbə – qonşuluq prinsiplərinə xəyanət



Səhifə ⇨ 5

## Yanlış yolun sonuna çatanların aqibəti



Səhifə ⇨ 5

## Brüsseldə səlahiyyət “küləkləri” əsir



Səhifə ⇨ 6

## Strateji dalan



Səhifə ⇨ 6

## ABŞ Azərbaycanla tərəfdaşlığı möhkəmləndirməyə önəm verir



Səhifə ⇨ 7

## Azərbaycan “yaşıl” enerji nəql edən ölkəyə çevrilir



Səhifə ⇨ 9

## Azərbaycan sülh məramına sadiqdir



Səhifə ⇨ 10

# Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası

**Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.**



## Prezident İlham Əliyevin çıxışı

– Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat "Kalaşnikov"la, "Molotov" kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq. Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin əməllərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "Dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək. Ona görə bu məsələ ilə bağlı tədbirlər planı hazırlanmalıdır. Bütün göstərişlər verilmişdir. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırıldı, etiraz notası veriləcək, digər diplomatik addımlar atılacaq. Sərhədlə bağlı müvafiq göstərişlər verildi.

Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. Hələlik bu qədər.

Biz Azərbaycan xalqını proseslərin gedişatı ilə əlaqədar məlumatlandıracağıq. Müdafiə Nazirliyinin açıqlaması artıq mətbuata dərc edilib. Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "Dəmir yumruğ"umuzu görəcək.

*AZƏRTAC*

# Prezidentin Mətbuat Xidmətinin məlumatı



**Martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Türkiyə Prezidenti İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib.

Dövlətimizin başçısı telefon zənginə və mövqeyinə görə Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirib.

*

**Martın 5-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə hücumunu pisləyib, hadisə zamanı yaralananların tezliklə şəfa tapmasını diləyib.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyan İranın ölkəsinə raket hücumları zamanı dövlətimizin başçısı tərəfindən BƏƏ-yə göstərilən dəstəyə və bu hücumu qınayan mövqeyinə görə bir daha minnətdarlığını bildirib.

Dövlətimizin başçısı telefon zənginə görə Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təşəkkür edib.

Prezident İlham Əliyev İranın BƏƏ-yə raketlərlə və pilotsuz uçuş aparatları ilə hücumlarını bir daha pisləyib və fevralın 28-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə telefon danışığında qeyd etdiyi kimi, ölkəmizin BƏƏ-nin yanında olduğunu vurğulayıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*

**Martın 5-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı Latviya Prezidenti İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə törətdiyi hücumu qətiyyətlə pislədiyini bildirib. Edqars Rinkeviçs baş vermiş hadisə ilə bağlı Azərbaycan dövləti və xalqı ilə həmrəy olduğunu vurğulayıb, hücum nəticəsində yaralananların tezliklə şəfa tapmalarını diləyib.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən mövqeyə görə Latviyanın dövlət başçısına təşəkkürünü bildirib.

Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti, gələcək təmaslar və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

*

**Martın 5-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Şavkat Mirziyoyev İranın pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycana qarşı törətdiyi hücumları qətiyyətlə qınayıb, Özbəkistanın Azərbaycana tam dəstəyini ifadə edərək, ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən dəstəyə görə Özbəkistan Prezidentinə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı baş vermiş hadisə ilə bağlı məlumat verərək, hazırda vəziyyətin tam nəzarət altında olduğunu qeyd edib.

Telefon söhbəti əsnasında Azərbaycan ilə Özbəkistan arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin gələcək inkişaf perspektivləri müzakirə olunub.

Hər iki dövlət başçısı Azərbaycanın və Özbəkistanın bundan sonra da daim bir-birini dəstəkləyəcəyini bir daha təsdiq ediblər.

*

**Martın 5-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İrakli Kobaxidze İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumunu qətiyyətlə pisləyərək, Azərbaycan dövləti və xalqı ilə həmrəy olduqlarını vurğulayıb. Gürcüstanın Baş naziri hücum nəticəsində xəsarət alanların tezliklə sağalmalarını arzulayıb.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən mövqeyə görə İrakli Kobaxidzeyə minnətdarlığını ifadə edib.

Telefon söhbəti əsnasında Azərbaycan-Gürcüstan ikitərəfli əməkdaşlığının perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# İran XİN: Naxçıvana dron hücumu ilə bağlı araşdırma başlanıb




**Martın 5-də İranın xarici işlər naziri Seyid Abbas Əraqçi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.**

Telefon danışığı zamanı Ceyhun Bayramov İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə edilmiş dron hücumlarını qətiyyətlə pisləyib, bu hücumlarla bağlı qəti etirazını bildirib. Azərbaycan ərazisinə bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu, regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb.

İran naziri Naxçıvan Muxtar Respublikası ərazisinə dron hücumları ilə bağlı narahatlığını ifadə edib. İran tərəfinin və hərbçilərin bu hadisə ilə bağlı araşdırma başladığını bildirib. İran naziri yaralanan mülki şəxslərə şəfa diləyib.

İran tərəfindən hücumla bağlı üzr istənilməsini, araşdırmaların nəticələrinə dair qısa müddət ərzində izahat verilməsini, bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri tədbirlər görülməsini gözlədiyimizi diqqətə çatdırılıb.

*XQ*

# Azərbaycan XİN-ə İranın hərbi təxribatı ilə bağlı telefon zəngləri




***Martın 5-də Türkiyənin xarici işlər naziri Hakan Fidan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***

Telefon danışığı zamanı İran İslam Respublikası tərəfindən dünən Türkiyə istiqamətində raket hücumu, bu gün isə Azərbaycana edilən dron hücumu ilə bağlı qəti etiraz bildirilib. Bu kimi hücumların qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu və regionda gərginliyin artmasına xidmət etdiyi vurğulanıb. Naxçıvana olan təyyarə reyslərinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə, uçuşların müvəqqəti olaraq İğdır hava limanından təşkil olunacağı telefon danışığında qeyd olunub.

Nazirlər iki ölkə arasında strateji müttəfiqlikdən irəli gələn əlaqələndirmə işlərinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

***Dünən Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***




Telefon danışığı zamanı Pakistan tərəfi Azərbaycana edilən dron hücumu ilə bağlı dərin narahatlığını ifadə edib.

Bölgədə geniş eskalasiyaya səbəb ola biləcək bu kimi addımların qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Ceyhun Bayramov İran tərəfindən qısa müddət ərzində məsələyə aydınlıq gətirilməsini və müvafiq izahat verilməsini gözlədiyimizi vurğulayıb.

Həmçinin Azərbaycan və Pakistan arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Həmin gün Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili də Azərbaycanın xarici işlər nazirinə zəng vurub.***




Telefon danışığı zamanı nazirlər İranın ölkəmizə qarşı dron hücumları nəticəsində yaranmış vəziyyəti müzakirə ediblər.

Ceyhun Bayramov həmkarına martın 5-də İran tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı həyata keçirilmiş dron hücumları barədə məlumat verib. Nazir Azərbaycanın ərazisinə qarşı həyata keçirilmiş bu hücumun beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu və regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb.

Azərbaycan tərəfinin baş vermiş hücum ilə bağlı İran tərəfindən qısa müddət ərzində məsələyə aydınlıq gətirilməsini, müvafiq izahat verilməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlərin görülməsini tələb etdiyi diqqətə çatdırılıb.

Maka Botçorişvili baş vermiş hadisə ilə bağlı narahatlığını ifadə edib və regionda sabitliyin və təhlükəsizliyin qorunmasının vacibliyini qeyd edib.

***Martın 5-də Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***




Azərbaycan XİN-in rəhbəri mülki infrastruktur və şəxslərə zərərlə müşayiət olunan İran İslam Respublikası tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dronla həyata keçirilmiş hücumların suverenliyimizə və ərazi bütövlüyümüzə zidd olduğunu vurğulayıb.

İran İslam Respublikasından qeyd olunan məsələyə aydınlıq gətirilməsini, izahat verilməsini, üzrxahlıq edilməsini, bu kimi halların təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görülməsini tələb etdiyimizi Qazaxıstan tərəfinin diqqətinə çatdırıb.

Qazaxıstan naziri bu hücumlardan dərin narahatlıq ifadə edib, vəziyyətin daha da gərginləşməyəcəyinə ümidvar olduğunu bildirib.

***Martın 5-də İsrail Dövlətinin xarici işlər naziri Gideon Sa'ar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***




Telefon danışığı zamanı regionda artan təhlükəsizlik riskləri, xüsusilə hərbi gərginlik və bunun regional sabitliyə təsirləri ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov martın 5-də İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dron hücumları barədə həmkarına məlumat verib. Bu addımın ölkəmizin suverenliyinə və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu diqqətə çatdırılıb.

İsrail tərəfi bu hücumu pisləyib, onun qəbuledilməz olduğunu qeyd edib və ölkəmizlə həmrəy olduğunu bildirib.

***Dünən Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***




Telefon danışığı zamanı Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisinə İran İslam Respublikası ərazisindən dron hücumlarının narahatlıq doğurduğu bildirilib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə dron hücumları barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanın ərazisinə qarşı həyata keçirilmiş bu hücum beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasıdır və regionda gərginliyin artmasına xidmət edir.

Azərbaycan tərəfinin baş verən hücum ilə bağlı İran tərəfindən qısa müddət ərzində aydınlıq gətirilməsinin, izahat verilməsinin və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlərin görülməsinin tələb olunduğu diqqətə çatdırılıb.

***Qırğız Respublikasının xarici işlər naziri Ceenbek Kulubayev Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***

Qırğız naziri Azərbaycan Respublikasının ərazisinə qarşı dron hücumlarının narahatlıq doğurduğunu, ölkəmizlə həmrəy olduğunu bildirib. Bu kimi hücumların regionda gərginliyin daha da artmasına xidmət etdiyi vurğulanıb.



Yaxın Şərqdə mövcud vəziyyətin daha da gərginləşməsinin qarşısının alınması, diplomatik səylərin artırılması və bu çərçivədə beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin vacibliyi qeyd olunub.

Nazir Ceenbek Kulubayev İranda olan Qırğız vətəndaşlarının Azərbaycan Respublikasının ərazisindən tranzit keçidinə yaradılmış şəraitə görə ölkəmizə təşəkkür edib, operativ dəstəyin yüksək qiymətləndirildiyi bildirilib.

*XQ*

# Naxçıvana dron hücumu ilə bağlı cinayət işi başlanıb

**Martın 5-də İran İslam Respublikasının ərazisindən uzaqdan idarəolunan partlayan döyüş başlığı ilə təchiz edilmiş 2 ədəd pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə qarşı hücum həyata keçirilib.**



İlkin istintaq hərəkətləri ilə müəyyən edilib ki, pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə Babək rayonunun Şəkərabad kəndində yerləşən təhsil müəssisəsinin yaxınlığına düşüb. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, hadisə nəticəsində mülki infrastruktur obyektinə, yəni Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasına və işinə əhəmiyyətli ziyan vurulub, eləcə də hava limanı xidmətlərinin işi qəsdən qanunsuz olaraq pozulduğundan Naxçıvan-Bakı istiqaməti üzrə 264 nömrəli reysi həyata keçirməli olan mülki hava gəmisi havada olarkən təhlükəsizlik məqsədilə Bakı şəhəri istiqamətində geri qayıtmağa məcbur olub.

Bundan başqa, hadisə nəticəsində 4 nəfər mülki şəxs:

Naxçıvan Hava Limanında xidmət aparan əməkdaşlar:

- 1986-cı il təvəllüdlü Vəliyeva Reyhanə Sabir qızı,
- 1996-cı il təvəllüdlü Zülfüqarlı Zülfüqar Məmməd oğlu,
- 1996-cı il təvəllüdlü Əsgərov Mehdi Mətləb oğlu və
- təyyarəyə minik gözləyən sərnişin 1998-ci il təvəllüdlü Cəfərov Əsəd Vidadi oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Zərərçəkmiş şəxslərə müvafiq tibbi yardımlar göstərilib, hazırda xəstəxanada həkim nəzarəti altında müalicələri davam etdirilir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq) və 270-1.3-cü (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər) maddələri ilə cinayət işi başlanaraq ibtidai araşdırmanın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

Hazırda cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə hadisə yerinə baxış keçirilib, maddi sübutlar toplanıb, zərərçəkmiş şəxslərin və şahidlərin ilkin ifadələri alınıb, eləcə də müvafiq ekspertizalar təyin edilməklə çoxsaylı istintaq hərəkətləri icra olunur.

Bundan başqa, PUA-ların mənşəyi və idarəetmə marşrutu üzrə texniki araşdırmalar aparılır.

İbtidai istintaq çərçivəsində beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan Respublikasının ərazisinə qarşı həyata keçirilmiş bu hücumun bütün halları obyektiv, tam və hərtərəfli şəkildə araşdırılacaq, təqsirli şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri tədbirlərin icrası təmin olunacaq.

Baş Prokurorluq bildirir ki, mülki əhalinin və strateji infrastruktur obyektlərinin hədəf alınması beynəlxalq humanitar hüququn əsas prinsiplərinin kobud şəkildə pozulmasıdır.

Cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir və ictimaiyyətə əlavə məlumatların verilməsi təmin ediləcək.

***XQ***

# Naxçıvana dron hücumları barədə Azərbaycan XİN-in bəyanatı

**Martın 5-də günorta radələrində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumları həyata keçirilib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda bildirilib.**




Qeyd edilib ki, 1 ədəd dron Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digər 1 dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb.

Bəyanatda daha sonra bildirilib: "Hava limanının binasına zərər dəyməsi və iki nəfər mülki şəxsin xəsarət alması ilə nəticələnən İran İslam Respublikası ərazisindən həyata keçirilən bu dron hücumlarını qətiyyətlə pisləyirik. Azərbaycan ərazisinə bu hücum beynəlxalq hüququn norma və prinsiplərinə ziddir və regionda gərginliyin artmasına xidmət edir.

İran İslam Respublikası tərəfindən qısa müddət ərzində qeyd olunan məsələyə aydınlıq gətirilməsini, buna izahat verməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görməyi tələb edirik.

Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır".

XİN-in məlumatında bildirilib ki, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilu Xarici İşlər Nazirliyinə çağırılıb. İran tərəfinə kəskin etiraz bildirilib, müvafiq etiraz notası təqdim edilib.

***XQ***

# Müdafiə Nazirliyi: İranın hücumu cavabsız qalmayacaq

**Martın 5-də İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktları həyata keçirilib. Pilotsuz uçuş aparatlarının texniki parametrləri və bu hücumların təfərrüatları araşdırılır.**



Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi hər hansı hərbi zərurət olmadığı halda, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisində mülki infrastruktura qarşı törədilən hücumları qəti şəkildə pisləyir.

Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İran İslam Respublikasının üzərinə düşür.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, mülki şəxslərin və mülki infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün zəruri cavab tədbirləri hazırlayır və bu hücum aktları cavabsız qalmayacaq", - deyə Müdafiə Nazirliyindən bildirilib.

*

Azərbaycan Müdafiə Nazirliyi daha sonra bildirir ki, İran silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hücum aktlarını törətmək üçün yönləndirilib, onlardan biri Azərbaycan Ordusu tərəfindən sıradan çıxarılıb.

İran İslam Respublikası silahlı qüvvələrinin Baş qərargahının İranın bütün ölkələrin, xüsusən də müsəlman və qonşu ölkələrin suverenliyinə hörmətlə yanaşdığını bəyan etməsi və bu xüsusda İran tərəfindən Azərbaycana qarşı pilotsuz uçuş aparatları ilə bu gün törədilmiş hücumları təkzib etməsi heç bir halda məqbul sayıla bilməz.

Məlumata görə, texniki vasitələrlə təsbit edilib ki, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hücum aktlarını törətmək üçün yönləndirilib, onlardan biri Azərbaycan Ordusu tərəfindən sıradan çıxarılıb, digərləri isə mülki infrastrukturu, o cümlədən dərs saatlarında orta məktəb binasını hədəfə alıb. Orta məktəb binasını hədəfə alan pilotsuz uçuş aparatı xoşbəxtlikdən hədəfə yetişməyib, məktəbin yaxınlığında yerə çırpılaraq partlayıb.

"Qeyd olunanları nəzərə alaraq, İran İslam Respublikasının silahlı qüvvələrindən aşkar inkarçılığa son qoymağı, baş vermiş hadisəyə görə üzrxahlıq ifadə etməyi və İranın aidiyyəti qurumları tərəfindən günahkarların cəzalandırılmasını gözləyirik", - deyə açıqlamada qeyd olunub.

***XQ***

# Azərbaycan İranla sərhədi bağlayıb

**Azərbaycan–İran dövlət sərhədindən yük avtomobillərinin hərəkətinin dayandırılması ilə bağlı qəbul edilib.**

Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, martın 5-də Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən mülki infrastruktur hədəf alınmaqla pilotsuz uçuş aparatları ilə hücumlar həyata keçirilib.

Naxçıvan Muxtar Respublikasının Beynəlxalq Hava Limanı, məktəb və digər istiqamətlər İran tərəfindən atəşə məruz qalıb. Hücumlar nəticəsində bir neçə mülki şəxs xəsarət alıb, hava limanının terminal binasına ziyan dəyib.

Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu hücumlar nəticəsində yaranmış mövcud vəziyyət nəzərə alınaraq, Azərbaycan-İran dövlət sərhədində bütün sərhəd-keçid məntəqələrindən yük avtomobillərinin hərəkətinin (o cümlədən tranzit məqsədilə yük avtomobillərinin hərəkətinin) müvəqqəti olaraq tam dayandırılması barədə Nazirlər Kabineti tərəfindən müvafiq qərar qəbul edilib.

***XQ***

# Azərbaycan və Türkiyə müdafiə nazirləri arasında telefon danışığı

**Martın 5-də Türkiyə milli müdafiə naziri Yaşar Gülerin təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov arasında telefon danışığı olub.**



Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, tərəflər arasında İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktları müzakirə olunub.

Nazirlər, həmçinin ölkələrimiz arasında əlaqələr, regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.



# Gürcüstanın müdafiə naziri Azərbaycanın müdafiə nazirinə zəng edib

**Martın 5-də Gürcüstanın müdafiə naziri İrakli Çikovaninin təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovla telefon danışığı olub.**

Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyindən bildirilib.

Tərəflər ölkələrimiz arasında əlaqələr, regiondakı cari vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, həmçinin ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

***XQ***

# YAP-ın Naxçıvana dron hücumları ilə bağlı bəyanatı

**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı İran ərazisindən Naxçıvana dron hücumlarını kəskin ittiham edən bəyanat yayıb.**

Sənəddə bildirilib ki, martın 5-də İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktlarının həyata keçirilməsi bütün Azərbaycan ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyasının üzvlərinin də ciddi narahatlığına və böyük hiddətinə səbəb olub.

Bəyanat bu sözlərlə bitir: "Qonşu İran dövlətinin bu hücum aktını qətiyyətlə pisləyir, Azərbaycan xalqından üzr istəyərək ölkəmizə qarşı qərəzli təbliğata və bütün təxribat cəhdlərinə birmənalı şəkildə son qoyulmasını tələb edirik".

***XQ***

# Azərbaycan və Ermənistan XİN başçılarının telefon danışığı

**Martın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub.**




Telefon danışığı zamanı nazirlər regionda baş verən son hadisələr ətrafında fikir mübadiləsi aparıblar. Tərəflər narahatlıqlarını ifadə edərək gərginliyin daha da artmasına səbəb ola biləcək addımlardan çəkinməyin vacibliyini qeyd edib, sabitlik və təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazir Ceyhun Bayramov erməni həmkarını martın 5-də Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilən, mülki infrastruktura ziyan vurulması və mülki şəxslərin xəsarət alması ilə nəticələnən dron hücumları barədə məlumatlandırıb.

Nazirlər Ermənistan və Azərbaycan arasında dayanıqlı sülhün təmin edilməsinin vacibliyini qeyd edib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# Dünya ölkələri İranın Naxçıvana dron hücumunu kəskin pisləyir

**Səudiyyə Ərəbistanı Krallığı İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almağa cəhd etməsini qətiyyətlə pisləyib və bunu kəskin şəkildə qınayıb.**



Səudiyyə Ərəbistanı XİN bu cür cəhdləri beynəlxalq qanunlara və qəbul olunmuş beynəlxalq normalara zidd olan düşmənçilik davranışı adlandırıb.

Nazirlik bəyanatında vurğulayıb ki, hər iki ölkəyə qarşı edilən bu qorxaq cəhdlər heç bir halda əsaslandırıla bilməyən düşmənçilik mövqeyini göstərir. Həmçinin bildirilib ki, İranın region ölkələrinə qarşı bu cür davranışları təkrarlaması gərginliyin daha da artmasına səbəb olur və regional təhlükəsizliyi və sabitliyi təhdid edir.

Bəyanatda, qeyd olunur ki, Krallıq hökuməti və xalqı Türkiyə və Azərbaycanla tam həmrəy olduğunu bir daha bildirib, hər iki ölkənin öz təhlükəsizliyini, hava məkanını, ərazi bütövlüyünü və vətəndaşlarını qorumaq hüququnu dəstəklədiyini bir daha vurğulayıb. Regionda eskalasiyanın qarşısını almaq və təhlükəsizliyi və sabitliyi qorumaq üçün göstərilən səylər yüksək qiymətləndirilib.

**Gürcüstan Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında bir neçə vətəndaşın xəsarət alması ilə nəticələnən pilotsuz təyyarə hücumunu pisləyir. Bu barədə Gürcüstan XİN-in yaydığı bəyanatda deyilir.**




Gürcüstan XİN vurğulayıb ki, beynəlxalq hüququn prinsip və normalarını kobud şəkildə pozan və regionda vəziyyəti gərginləşdirməyə yönəlmiş istənilən hərəkət qəbuledilməzdir.

"Gürcüstan möhkəm dostluq və strateji tərəfdaşlığını nəzərə alaraq bu çətin vəziyyətdə qardaş Azərbaycanla həmrəyliyini ifadə edir", - deyə bəyanatda bildirilib

**Küveyt Dövləti İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almasını qətiyyətlə pisləyib və bunu sərt şəkildə qınayıb.**

Küveyt XİN bu cür cəhdləri beynəlxalq qanunların və BMT nizamnaməsinin açıq şəkildə pozulması hesab edir. Nazirlik Küveyt Dövlətinin Türkiyə Respublikası və Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu da vurğulayıb və onların suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

**Qətər Dövləti Azərbaycan Respublikasında hava limanının İran pilotsuz uçuş aparatları ilə vurulmasını qətiyyətlə pisləyib.**



Qətər XİN-in bəyanatında bildirilib ki, Türkiyənin ballistik raketlə və Azərbaycanda isə hava limanının İran PUA-ları ilə hədəf alınması düşmənçilik hərəkətləridir. Bəyanatda bu hərəkətlər təhlükəli eskalasiya və dövlətlərin suverenliyinin açıq şəkildə pozulması kimi qiymətləndirilib, həmçinin regionun təhlükəsizliyi və sabitliyi üçün birbaşa təhdid hesab edilib.

Nazirlik, həmçinin Qətər Dövlətinin Türkiyə Respublikası və Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu vurğulayıb və onların suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq üçün gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

**"İranın Yaxın Şərq və Avropa ölkələrinə hücumlarından sonra Azərbaycana qarşı hücumunu pisləyirik".**

Bunu Ukraynanın xarici işlər naziri Andrey Sibiqa "Teleqram" səhifəsində yazıb. Nazirin fikrincə, bu ölkənin Azərbaycana hücumu bir daha göstərir ki, İran regional deyil, qlobal təhlükədir.

**"Moldova Naxçıvan Muxtar Respublikasının mülki obyektlərini hədəf alan və iki mülki şəxsin yaralanması ilə nəticələnən hücumları qətiyyətlə pisləyir".**

Bunu isə Moldovanın xarici işlər və inteqrasiya naziri Mixail Popşoy teleqram səhifəsində yazıb: "Moldova Azərbaycanla həmrəydir və onun suverenliyinə, ərazi bütövlüyünə dəstəyini bir daha təsdiqləyir".

***XQ***

# Kənd təsərrüfatında güzəştli maliyyələşdirmə barədə bir sıra məsələlərin tənzimlənməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6-1-ci hissəsində nəzərdə tutulan kreditlərin təyinatı üzrə xərclənməsinin "Elektron kənd təsərrüfatı" informasiya sisteminin "aqrar ticarət (tapaqro)" altsistemi vasitəsilə təşkilini və bu barədə məlumatların ötürülməsi məqsədilə həmin informasiya sistemi ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müvafiq informasiya sistemlərinin inteqrasiyasını təmin etsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə 2026-cı ilin dövlət büdcəsindən kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların ödənilməsi məqsədilə ayrılmış vəsaitin 10 000 000 (on milyon) manatlıq hissəsinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan kreditlərin faizlərinin maliyyələşdirilməsi üçün istifadə edilməsi ilə bağlı tədbirlər görsün;

2.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan kreditlərin faizlərinin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaiti növbəti illərdə dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

3. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 839 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.0.3-cü yarımbənddə ikinci halda "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

3.2. 3-cü hissə üzrə:

3.2.1. 3.0.1-ci, 3.0.1-1-ci və 3.0.2-ci yarımbəndlərdə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

3.2.2. 3.0.10-cu yarımbənddə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I); 2024, № 8, maddə 942; 2025, № 11, maddə 1018) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissə üzrə:

4.1.1. 1.3-cü bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.1.2. 1.4-cü bəndin ikinci cümləsində və 1.6-cı bənddə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.1.3. 1.5-ci bənddə "kredit təşkilatlarının" sözləri "müvəkkil təşkilatların" sözləri ilə əvəz edilsin;

4.2. 3-cü hissə üzrə:

4.2.1. adında "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.2. 3.1-ci bənd üzrə:

4.2.2.1. birinci cümlədə "kredit təşkilatları ilə" sözləri "təşkilatlarla" sözü ilə əvəz edilsin;

4.2.2.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.2.2.3. üçüncü cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

4.2.2.4. dördüncü cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.2.3. 3.3-cü bənd üzrə:

4.2.3.1. birinci cümlədə hər üç halda "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə, "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.2.3.2. ikinci cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.4. 3.3-1-ci bənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.2.5. 3.4-cü bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.6. 3.5-ci bənd üzrə:

4.2.6.1. birinci cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.2.6.2. ikinci, üçüncü və dördüncü cümlələrdə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.7. 3.6-cı bənd üzrə:

4.2.7.1. birinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatı" sözləri "müvəkkil təşkilat" sözləri ilə, "kredit təşkilatından" sözləri "müvəkkil təşkilatdan" sözləri ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.2.7.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "müvəkkil təşkilatın" sözləri ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.2.8. 3.7-ci bənddə "kredit təşkilatına" sözləri "müvəkkil təşkilata" sözləri ilə, "müvəkkil kredit təşkilatının" sözləri "həmin müvəkkil təşkilatın" sözləri ilə əvəz edilsin;

4.3. 4-cü hissə üzrə:

4.3.1. 4.1-ci bənd üzrə:

4.3.1.1. birinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.3.1.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.1.3. üçüncü cümlədə "kredit təşkilatlarında" sözləri "təşkilatlarda" sözü ilə əvəz edilsin;

4.3.2. 4.2-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.3. 4.3-cü bənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.3.4. 4.4-cü bənd üzrə:

4.3.4.1. birinci, üçüncü və dördüncü cümlələrdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.4.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

4.3.5. 4.4-1-ci bənd üzrə:

4.3.5.1. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.5.2. dördüncü cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.3.5.3. beşinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.3.6. 4.4-2-ci bənd üzrə:

4.3.6.1. birinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.6.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.7. 4.5-ci bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.4. 5-ci hissə üzrə:

4.4.1. 5.7-ci bənd üzrə:

4.4.1.1. birinci cümlədə "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.4.1.2. ikinci cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.4.2. 5.8-ci bəndin birinci cümləsində "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.4.3. 5.9-cu bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə, "kredit təşkilatları ilə" sözləri "müvəkkil təşkilatlarla" sözləri ilə əvəz edilsin;

4.5. 5-1-ci hissə üzrə:

4.5.1. 5-1.1-ci bəndin birinci abzasında "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.5.2. 5-1.2-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.5.3. 5-1.3-cü bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.6. 6-cı hissə üzrə:

4.6.1. 6.1.2-ci yarımbənddə və 6.1.3-cü yarımbəndin birinci cümləsində "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.6.2. 6.1-1-ci bəndin birinci abzasında "kredit təşkilatlarının" sözləri "müvəkkil təşkilatların" sözləri ilə əvəz edilsin;

4.6.3. 6.1-4-cü bəndin birinci cümləsində "kredit təşkilatına" sözləri "müvəkkil təşkilata" sözləri ilə əvəz edilsin;

4.6.4. 6.2.2-ci və 6.2.3-cü yarımbəndlərdə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.6.5. 6.2-1-ci bəndə "sistemində" sözündən sonra "(bundan sonra – EKTİS)" sözləri əlavə edilsin;

4.7. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

**"6-1. Müvəkkil təşkilatların (lizinq təşkilatları istisna olmaqla) vəsaiti hesabına verilən kreditlərin faizlərinin maliyyələşdirilməsi**

6-1.1. Kənd təsərrüfatı məhsullarının istehsalı xərclərinin (kənd təsərrüfatı istehsal vasitələrinin, o cümlədən mineral gübrə, biohumus, sertifikatlı toxum və pestisidlərin alınması, həmçinin aqrotexniki xidmətlərdən istifadə) maliyyələşdirilməsi məqsədilə müvəkkil təşkilatların (lizinq təşkilatları istisna olmaqla) vəsaiti hesabına sahibkarlıq subyektlərinə 1 (bir) il müddətinədək verilən kreditlərin əsas borcu üzrə hesablanmış faizlərin Agentliyin vəsaiti hesabına maliyyələşdiriləcək hissəsinin ödənilməsi Agentliyə dövlət büdcəsindən bu məqsədlə ayrılmış vəsait hesabına təmin edilir.

6-1.2. Bu Qaydanın 6-1.1-ci bəndində nəzərdə tutulmuş kreditlərin illik faiz dərəcəsinin Agentliyin vəsaiti hesabına maliyyələşdirilən hissəsi və həmin kreditlərlə istehsalı maliyyələşdirilən kənd təsərrüfatı məhsullarının siyahısı Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4.5-ci yarımbəndinə uyğun olaraq müəyyən edilir.

6-1.3. Sahibkarlıq subyektləri bu Qaydanın 6-1.1-ci bəndi ilə müəyyən edilmiş güzəştli kreditlərin verilməsi üçün müvəkkil təşkilata (lizinq təşkilatları istisna olmaqla) rəsmi qaydada müraciət edirlər. Müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən müraciətlərin qeydiyyata alındığı tarixdən 15 (on beş) iş günündən gec olmayaraq, kredit riskləri təhlil olunmaqla kreditin verilməsi barədə qərar qəbul edilir, yaxud sahibkarlıq subyektlərinə əsaslandırılmış imtina məktubu göndərilir (təqdim edilir). Müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) müsbət qiymətləndirdiyi müraciətə dair tələb olunan məlumatları (kreditin məbləği, təyinatı, istifadə dövrü və sahibkarlıq subyektinin EKTİS-də qeydiyyatı barədə) və sənədləri Agentliyə təqdim edir. Təqdim edilən məlumatların bu Qaydanın 6-1.2-ci bəndinə əsasən müəyyən edilmiş göstəricilərə uyğunluğu Agentlik tərəfindən 10 (on) iş günü müddətində yoxlanılaraq, veriləcək kredit məbləğinə mütənasib hesablanan faiz məbləği təsdiqlənir və ya müvəkkil təşkilata (lizinq təşkilatları istisna olmaqla) əsaslandırılmış imtina məktubu göndərilir (təqdim edilir).

6-1.4. Bu Qaydanın 6-1.1-ci bəndində nəzərdə tutulmuş qaydada ayrılan kredit məbləği müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən sahibkarlıq subyektinin kart hesabına (hüquqi şəxsin cari hesabına) köçürülür və nağdlaşdırılmadan istifadə olunur. Sahibkarlıq subyekti kredit vəsaitini, bu Qaydanın 6-1.1-ci bəndinə uyğun olaraq, onun müraciəti zamanı bəyan edilmiş təyinat üzrə EKTİS-in "aqrar ticarət (tapaqro)" altsistemi vasitəsilə təchizatçıların hesablarına köçürür. Kredit müqabilində müvafiq məhsul, iş və xidmətlərin təhvil verilməsini təsdiq edən sənədlər təhvilverənin razılığı ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə EKTİS-ə inteqrasiya edilir.

6-1.5. Sahibkarlıq subyektləri aldıqları güzəştli kreditlər üzrə əsas borclarını və faiz borclarının Agentliyin vəsaiti hesabına maliyyələşdirilməyən hissəsini müqavilə şərtlərinə uyğun olaraq ödəməlidirlər. Agentlik verilmiş kreditlər üzrə faizlərin maliyyələşdirdiyi hissəsinin hesablanmasını və həmin hissə üzrə rübdə 1 (bir) dəfədən gec olmayaraq ödənişlərin həyata keçirilməsini təmin edir. Agentlik, hesablanan faiz borcunun maliyyələşdirilən hissəsi istisna olmaqla, müqavilə üzrə hər hansı başqa öhdəlik və məsuliyyət daşımır.

6-1.6. Bu Qaydanın 7-ci hissəsinə uyğun olaraq həyata keçirilən monitorinq zamanı kredit vəsaitindən 3 (üç) ay müddətində istifadə edilməməsi və ya təyinatı üzrə istifadə edilməməsi halları aşkarlandıqda, Agentlik tərəfindən faizlərin maliyyələşdirilən hissəsinin hesablanması və ödənilməsi dayandırılır.

6-1.7. Bu Qaydanın 6-1.6-cı bəndində nəzərdə tutulmuş halda ödənilmiş güzəşt vəsaiti müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən Agentliyə qaytarılır. Agentliyin yazılı tələbindən sonra müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) 30 (otuz) iş günü müddətində vəsaitin köçürülməsini təmin etməzsə, Agentlik gecikdirilən məbləğin qaytarılması üçün normativ hüquqi aktlarda nəzərdə tutulmuş tədbirləri görür. Qaytarılan vəsaitdən bu Qaydanın məqsədlərinə uyğun istifadə edilir.

6-1.8. Bu Qaydanın 6-1.7-ci bəndinə uyğun olaraq Agentliyə qaytarılmış vəsait müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən sahibkarlıq subyektindən tələb edilir. Belə sahibkarlıq subyektlərinə növbəti 3 (üç) il müddətində faizlərinin bir hissəsi Agentlik tərəfindən maliyyələşdirilən kreditlər verilmir.";

4.8. 7-ci hissə üzrə:

4.8.1. 7.1-ci bənd üzrə:

4.8.1.1. birinci cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.8.1.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.8.1.3. dördüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.8.2. 7.2-ci bəndin ikinci və üçüncü cümlələrində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.8.3. 7.5-ci bənd üzrə:

4.8.3.1. birinci cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə, "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.8.3.2. ikinci cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.8.4. 7.6-cı bənd üzrə:

4.8.4.1. birinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

4.8.4.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1356; 2025, № 2, maddə 137, № 7, maddə 642) ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissə üzrə:

5.1.1. aşağıdakı məzmunda 1.2.5-1-ci yarımbənd əlavə edilsin:

"1.2.5-1. **aqrotexniki xidmətlər** – bitkiçilik məhsullarının istehsalı prosesində satın alınan aqrotexniki tədbirlər;";

5.1.2. 1.2.8-ci yarımbəndə "keçirən" sözündən sonra ", həmçinin aqrotexniki xidmətlər göstərən" sözləri əlavə edilsin.

5.2. 2.4.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4.5-ci yarımbənd əlavə edilsin:

"2.4.5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6-1-ci hissəsinə uyğun olaraq verilən kreditlərin illik faiz dərəcəsinin maliyyələşdirilən hissəsinin və həmin kreditlərlə istehsalı maliyyələşdirilən kənd təsərrüfatı məhsullarının siyahısının təsdiqi.";

5.3. 3.12-ci bəndin üçüncü cümləsində "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); 2024, № 6 (I kitab), maddələr 654, 679, № 8, maddə 937, № 12 (II kitab), maddə 1359) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissə üzrə:

6.1.1. 3.1.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.1.7-ci yarımbənd əlavə edilsin:

"3.1.7. "aqrar ticarət (tapaqro)" altsistemi.";

6.1.2. 3.2.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.7-ci yarımbənd əlavə edilsin:

"3.2.7. "aqrar ticarət (tapaqro)" altsistemi vasitəsilə istehsalçıların istehsal etdikləri kənd təsərrüfatı məhsullarına və aqrar sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammal tələbatına dair məlumatların əks etdirilməsi, kənd təsərrüfatı istehsal vasitələrinin (kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, suvarma sistemləri dəsti və avadanlığı, dirəklər, damazlıq heyvanlar, mineral gübrə, biohumus, sertifikatlı toxum, ting və pestisid) və aqrotexniki xidmətlərin satın alınması, həmçinin həmin xidmətlər üzrə verilən subsidiya və güzəştlərdən istifadəyə nəzarət edilməsi.";

6.2. 5.1-ci bənd üzrə:

6.2.1. 5.1.10-cu yarımbənddən "(kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, damazlıq heyvanlar, suvarma sistemləri dəsti və avadanlığı)" sözləri çıxarılsın;

6.2.2. 5.1.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.1.15. kənd təsərrüfatı istehsal vasitələrinin alınması və (və ya) qurulması, həmçinin aqrotexniki xidmətlərdən istifadə üzrə həyata keçirilən ödənişlər barədə məlumatlar və həmin məhsul, iş və xidmətlərin təhvil verilməsini təsdiq edən sənədlər (təhvilverənin razılığı ilə);";

6.2.3. 5.1.32-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.33-cü yarımbənd əlavə edilsin:

"5.1.33. aqrar sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammal tələbatı və istehsalçıların istehsal etdikləri kənd təsərrüfatı məhsulları barədə məlumatlar.";

6.3. 7.1-ci bənd üzrə:

6.3.1. 7.1.1-ci yarımbəndə aşağıdakı məzmunda 21-ci abzas əlavə edilsin:

"21. subsidiyalar və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6-1-ci hissəsinə uyğun olaraq verilən vəsaitlər üzrə ödənişləri bu Əsasnamənin 7.6-cı bəndində nəzərdə tutulan qaydada həyata keçirmək;";

6.3.2. 7.1.11-ci yarımbəndin 3-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.1.12-ci yarımbənd əlavə edilsin:

"7.1.12. banklar və bank olmayan kredit təşkilatları:

1. qeydiyyatdan keçmək;

2. elektron kabinetdən istifadə etmək;

3. subsidiyalar və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"na uyğun olaraq verilmiş kredit və digər ödənişlər barədə məlumatları daxil etmək.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 mart 2026-cı il**



# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Məhkəmənin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin 79.1-ci maddəsinin Konstitusiyanın 25, 71 və 149-cu maddələrinə uyğunluğunun yoxlanılmasına dair insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun aprelin 1-nə təyin olunmuş iclasında baxılacaq.

*XQ*

# Yanlış yolun sonuna çatanların aqibəti

## *Azərbaycan rəhbərinin kəskin mövqeyi İran rejimini geri çəkilməyə məcbur etdi*

**Dünən İranın Naxçıvan hava limanına dronla zərbə endirməsi xəbərini eşidəndə, video-reportajları izləyəndə yadımıza dahi yazıçı Qabriel Qarsia Markesin "Gözlənilən bir qətlin tarixçəsi" povesti və onun motivləri əsasında çəkilən film düşdü. Əgər cinayət törədilibsə, onu törədən gec, ya tez öz cəzasını almalıdır. Həmin an cinayəti törədən qaçıb uzaqda gizlənə, arxalı və qorunan ola bilər, amma zaman daşları ələyir, o məqamı yetişdirir və sonda mütləq ədalət mühakiməsi qurulur. Bu dəyişməz postulatı fərdlərə, xalqlara, rejimlərə, hətta böyük imperiyalara da şamil etmək olar. Dünyanın son 200 illik tarixində baş verənlərə ötəri analitik nəzər yetirmək kifayət edər ki, dediyimizi sübut edən xeyli nümunə ilə rastlaşasan.**

Yaxın qonşuların haqsızlığı, nankorluğu, təcavüzü ilə üzləşmək sanki xalqımızın taleyinə yazılıb. Azərbaycan hər zaman qonşuları ilə münasibətlərində səmimiyyət və sədaqət prinsiplərinə riayət edib. Rəsmi Bakı xüsusilə ortaq tarixə, eyni dini inanca sahib olduğumuz cənub qonşumuzla ölçülü-biçili, aramızdakı siyasi sistem və ideoloji üstqurum fərqliliklərini gözləməklə davranmağa çalışıb. Nüvə silahının əldə olunması, qitələrarası ballistik raketlərin istehsalı kimi məsələlərdə Qərblə ortaq dil tapa bilməyən İran İslam Respublikası iqtisadi sanksiyalar və hərbi təhdidlərlə üzləşdiyi məqamlarda Azərbaycan heç vaxt ona qarşı duranların sıralarında yer almayıb. Üstəlik, öz ərazisindən İrana, ümumiyyətlə, üçüncü ölkəyə qarşı istifadə olunmayacağını ən yüksək tribunalardan, həm də dəfələrlə bəyan edib.



Bunu Azərbaycan Prezidenti İlham Əliyev dünən Təhlükəsizlik Şurasının iclasında bir daha xatırlatdı: "Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt, bu günə qədər imkan verməmişik".

Dövlət başçısı Təhlükəsizlik Şurasının iclasında Azərbaycanın düşmən qüvvələrə, bəd hücumlara cavab verməyə hazır olduğunu da bildirərək qeyd etdi ki, Azərbaycanın "Dəmir yumruğu" belə təcavüzləri Qarabağda olduğu kimi, əzməyə hazırdır. Ali Baş Komandan İran tərəfinin hərbi təxribatına cavab olaraq Silahlı Qüvvələrimizin tam hazırlıq vəziyyətinə gətirildiyini bəyan etdi. Azərbaycan lideri onu da qeyd etdi ki, gözlənilən təhlükələrə cavab olaraq İranla sərhədlər də bağlanır.

Prezident İlham Əliyevin bu sərt ittihamları və təxribatla bağlı qarşı tərəfdən doğru-düzgün izahat, rəsmi üzr istənilməsi və təqsirkarların cəzalandırılması ilə bağlı ciddi tələbi, İran səfirinə XİN-də nota təqdim edilməsi elə həmin gün Tehran rəhbərliyinin geri çəkilməsi və məsələnin araşdırılacağı ilə bağlı açıqlamalar verilməsi ilə nəticələndi.

İranın xarici işlər naziri Abbas Əraqçi Azərbaycan xarici işlər naziri Ceyhun Bayramova zəng vuraraq Naxçıvan Muxtar Respublikası ərazisinə dron hücumları ilə bağlı narahatlığını ifadə etdi. O, İran tərəfinin və hərbçilərin bu hadisə ilə bağlı araşdırma başladığını bildirdi. Üstəlik, İran naziri yaralanan mülki şəxslərə şəfa dilədi.

İİR-in türk kökənli Prezidenti Məsud Pezeşkianın 2025-ci ildə Azərbaycana iki dəfə səfər etməsi, bu ali təmaslarda ikitərəfli münasibətlərin gələcəyi ilə bağlı nikbin notlara köklənən bəyanatların verilməsi, iki ölkə liderinin qardaşcasına ünsiyyəti hər birimizə böyük ümidlər bəxş etmiş, ürəyimizdə aradakı buzların tam əriyəcəyinə ümidlər yaratmışdı. Fəqət bu yeni şəraitlə heç cüt barışmaq istəməyən hakimiyyətin radikal qanadı ötən ilin yay aylarında və ondan sonrakı dövrdə bizə əsassız ittihamlar irəli sürməyə, dövlətin nəzarətində olan media resurslarının Azərbaycanın rəhbərliyini və xalqını ləkələmək, İranda yaşayan soydaşlarımızın beynini zəhərləmək üçün ölkəmizə qarşı çirkin şər-böhtan kampaniyası aparıldığını da unutmamışıq. Bu faktı xatırladan dövlətimizin başçısı anti-Azərbaycan kampaniyasının səbəbini dəqiq açıqladı: "Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir".

* * *

Açıq yaza bilərik ki, həmin çirkin ideoloji kampaniyaların təşəbbüskarı və idarəedicisi adına İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) deyilən hərbi-siyasi qruplaşmadır. SEPAH indiki müharibə şəraitində faktiki olaraq İran dövlətini idarə edən əsas qüvvəyə çevrilib.

Belə bir şəraitdə İran tərəfinin Naxçıvan ərazisində mülki obyekti, mülki vətəndaşların istifadə etdiyi hava limanını hədəfə alması molla rejiminin nankorluğu ilə yanaşı, həm də dinc sakinlərə və mülki infrastruktura qarşı terror kimi qiymətləndirilməlidir. Əslində, mülki infrastruktura dron hücumu təşkil etmək acizlik və qorxaqlıq əlamətidir. Amma bu qara əməliyyatın xeyir-duasını verən SEPAH onu da unutmamalıdır ki, Azərbaycan ona hücum edənləri həmişə peşman qoyub. Onların da bu qorxaq və riyakar əməlinə görə mütləq peşman olacaqlarına qəti şübhələri olmasın. Nə yazıq ki, bizim şübhələrimiz özünü doğrultdu. Düşünürdük ki, cənub qonşumuzun siyasi isteblişmentindəki islahatçılar qanadının təmsilçiləri ilə yanaşı, Azərbaycanın 44 günlük müharibədə qazandığı möhtəşəm Zəfərə qısqanclıqla yanaşan, siyasi hakimiyyəti əlində cəmləmiş ayətullahlar da müəyyən müddət keçəndən sonra bu tarixi faktla, reallıqla barışacaqlar. Nəhayət, Bakının uzatdığı sülh, qarşılıqlı əməkdaşlıq, təmənnasız səmimi qonşuluq münasibətlərini isbatlayan xoşməramlı əlini sıxacaq, yaxın keçmişdə ölkəmizə, o cümlədən xalqımıza qarşı yol verdiyi qələtlərə son qoyacaq, ən azı Allah qarşısında tövbə edəcəklər.

Axı Azərbaycan istər Birinci, istərsə də İkinci Qarabağ savaşında Tehranın yeritdiyi qərəzli, fars şovinizminə söykənən, haylara aşkar rəğbətdən doğan "himayədarlıq" siyasətini unutmağa, molla rejimi üçün üz qarası sayılan həmin səhifələri çevirməyə hazır olduğunu bəyan etdi. 2023-cü ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyində törədilən, mühafizəçimizin öldürüldüyü terror aktını əvvəlcə "ailə-məişət zəminində münaqişə" kimi qələmə verməyə çalışan molla rejiminin riyakarlığını da unutmamışıq. Məhz rəsmi Bakının siyasi qətiyyəti sayəsində qanlı olay araşdırıldı və cinayətkar layiq olduğu cəzasını aldı. Bütün bunlardan sonra da rəsmi Bakı qarşı tərəfin bölgədə və dünyada yeni reallığın formalaşdığını görüb, müasir çağırışları eşidib Haqqın və Ədalətin tərəfində dayanacağını gözlədi, ondan dünəni unudub gələcəyi düşünəcəyini umdu. Onu da etiraf edək ki, Bakı rəsmi, eləcə də xalqımız Tehrandan gözlədiyi reaksiyanın səmimiliyinə axıra qədər inanmaqda çətinlik çəkir, içimizi müəyyən şübhələr gəmirir, bəzən arzuladığımızı gerçəklik kimi qəbul edirdik. İndi məlum olur ki, şübhələrə qəti "yox" deməyən intuisiyamız bizi aldatmırmış. Artıq cənub qonşumuzun sözdə dost, əməldə xainlik etdiyini, əməkdaşlıqdan danışıb təxribata əl atdığını gördük və əmin olduq. Bu ortodoksal-teokratik, qeyri-səmimi rejimə inanmaq əbəs imiş.

* * *

Maraqlıdır ki, başqa vaxt Azərbaycan mövzusunu gündəmdən düşməyə qoymayan İİR-in rəsmi və qeyri-rəsmi KİV-i – xəbər agentlikləri, teleqram kanalları, radioları nədənsə Naxçıvan təxribatı ilə bağlı məlumat və ya açıqlamalar verməyə simiclik edir. Biz, sadəcə, onu güman edə bilərik ki, eyni vaxtda iki dölətlə savaşan İranın yeni rəhbərliyində daxili hakimiyyət bölgüsü tam müəyyənləşmədiyindən qonşularına qarşı açıq hərbi təcavüzün əsaslandırılmasında çətinlik çəkirlər.

Bəli, ABŞ/İsrail–İran hərbi qarşıdurmasının gözlədiyimizdən də təhlükəli şəkil almağa başlaması Azərbaycanı zəruri ehtiyat tədbirləri görməyə vadar edir. Dövlətimizin başçısı vurğuladığı kimi, onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Azərbaycana qarşı törədilən bu əsassız terror aktı ilə, təcavüzlə heç vaxt barışmayacağımızı qətiyyətlə bəyan edən ölkəmizin başçısı bizimlə gücün dili ilə danışmağa çalışanlara layiqli cavabın verilməsi, buna müvafiq tədbirlərin həyata keçirilməsi üçün Silahlı Qüvvələrə zəruri təlimatın verildiyini də vurğulayıb: "Bizim gücümüzü sınamaq istəyənlərin başı "Dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək".

Beləliklə, təcavüzkarın diplomatik cavabı ən sərt çəkildə verildi. Azərbaycan Prezidentinin hadisə ilə bağlı açıqlamalarından hasil olan nəticə budur ki, Bakı vəziyyətdən asılı olaraq hər cür hərəkət etməyə hazırdır. Yəni bizim üçün kimin kim oduğu gün kimi aydındır və qaradan artıq rəng qalmayıb.

Nobel mükafatlı Markesin məlum əsərinin sonunda qəhrəmanın özü də xeyli əvvəl törətdiyi əməllərin cəzasını aldığına inanmırdı. Onun son ictimai aqibəti gülüşlə müşayiət olunan heyrət və qorxu içindəki miskin görkəmi idi...

***İmran BƏDİRXANLI***
***XQ***

# Naxçıvana zərbə – qonşuluq prinsiplərinə xəyanət

## *İranın İslam həmrəyliyinə dönüklüyü onun regionda təklənməsinə xidmət edir*

**Qəzetimizin dünənki sayının manşetində Prezident İlham Əliyevin İranın Azərbaycandakı səfirliyinə baş çəkməsi, ölkənin Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verməsinə dair xəbər yer almışdı. Bu o demək idi ki, Azərbaycan İranın dərdini, üzüntüsünü bölüşür. Görəsən, başqa nə etməli idik ki, cənub qonşumuz Naxçıvanı həfədə almasın? Yaxşı, nə etdik ki, hədəfə gəldik? Axı, İsrail və ABŞ-ın İrana qarşı hücumlarının trayektoriyasından coğrafi baxımdan uzağıq. Məsələyə qayıdacağıq.**



İran həmişə özünü regionun böyük dövləti kimi təqdim etmiş, yenicə müstəqilliyinə qovuşmuş Azərbaycanın zəif və müharibə şəraitində olması fonunda bəlağətli siyasi ritorikaya üstünlük vermişdi. Nəzərə alaq ki, o dövrdə Qarabağda savaş gedirdi, Ermənistan torpaqlarımıza diş qıcamışdı. Həmçinin Azərbaycanda siyasi hakimiyyətin möhkəm olmaması, Tehrana bundan yararlanaraq, öz təsir dairəsini möhkəmləndirmək üçün şans qazandırmışdı. Lakin...

Əlbəttə, Rusiya ilə yanaşı, İranın da təsir dairəsinə düşmək istəməməyimizin, bir növ, cəzasını çəkdik. Ərazilərimiz işğala məruz qaldı, bir milyona yaxın soydaşımız məcburi köçkün durumuna düşdü və bu məşəqqət 30 ilə yaxın davam etdi. Onu da deyək ki, din qardaşımız olan İran təcavüzün gerçəkləşməsində az rol oynamadı. Axı molla rejimi təmsilçilərinin baxışları üçün müstəqil, suveren Azərbaycan amili yad idi.

Üstəlik, müstəqillik illərində dəfələrlə cənub qonşumuzun psixoloji basqıları və demarşları ilə üzləşdik. Ötən müddətdə nələr görmədik, nələr?! Sərsəm bəyanatlardan tutmuş, Azərbaycan səmasında qırıcı təyyarə oyununa, Tehrandakı səfirliyimizə hücumadək hər şeyi. Fəqət dözdük və İran dünyaya münasibətdəki balanslı siyasət xəttimiz prizmasından kənar düşmədi. Hesab etdik ki, eyni coğrafiyada yaşamağa məhkumuqsa, deməli, loru dildə desək, dil tapmalıyıq. Tam şəkildə dil tapdığımız məqamlar da oldu ki, İrandakı hansısa əyalət mollasının üstümüzə söz raketi tuşladığının şahidinə çevrildik.

Heç şübhəsiz, dünən Naxçıvana PUA hücumunun başında da hansısa molla dayanır. Axı illərdir mollalar, onlar kimi eyni şovinist libasa bürünmüş SEPAH komandanları ağızlarını açanda Azərbaycanı özlərinə təhlükə kimi gördüklərini dilə gətirirlər. Görünür, İrandan ölkəmizə ilk atəş açanlar kimi tarixə düşmək istədilər. Tarixin həm də nankorların və riyakarların zibillikləri ilə dolu olmasını unutdular.

Prezident İlham Əliyevin dünən Təhlükəsizlik Şurasının iclasında səsləndirdiyi bu fikirlər həm sərtliyi ilə seçilir, həm də hadisəyə mahiyyəti üzrə adekvat qiymət verilməsi baxımından fərqlənir: "Bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək".

Bəli, saqqallı nankorlar, çirkin və eybəcər simalılar Azərbaycanın daim qonşuluq prinsiplərinə sadiq qaldığının fərqinə varmırlar. Yaxın keçmişi yaddan çıxarırlar. Ərazilərimizdən İrana, ümumən hansısa digər ölkəyə heç vaxt təhlükə yaranmadığını da həmçinin. Axı rəsmi Bakı bu mövqeyini həmişə açıq bildirir. Yayda 12 günlük müharibə zamanı da bildirdi, indi İsrail və ABŞ qüvvələrinin birgə kampaniyası zamanı da. Daha nə etməli idik?!

Militarist və terrorçu siyasəti ilə ölkəsini dünya imperializminin hədəfinə çevirmiş, ABŞ–İsrail cütlüyünün irimiqyaslı hücumuna məruz qalmış İranın dini rəhbərliyi məqbul çıxış yolu tapmaq əvəzinə, aldığı ağır zərbələrin heyfini qonşu İslam ölkələrindən almaq qəsdindədir. Ardıcıl olaraq özünü İslam həmrəyliyinə qarşı qoymuş bu rejimin Azərbaycanın İranla dostluq və qonşuluq siyasətinə sadiq qalmasını dəyərləndirməməsi, hələ də blokada şəraitində olan Naxçıvana hava zərbəsi endirməsi beynəlxalq aləmdə təəccüblə qarşılandı və kəskin rəylər doğurdu. Bunu dost ölkələrin liderlərinin Azərbaycan Prezidenti İlham Əliyevə telefon zənglərində səsləndirdikləri ittihamlar və ifadə edilən siyasi dəstək də təsdiq edir.

Region ölkərinin XİN rəhbərləri də ötən gün ərzində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla telefon danışıqlarında İranın Azərbaycanın xoşməramlı münasibətinə zidd olaraq, ölkəmizi dron hücumu ilə hədəfə almasının başadüşülən olmadığını bildirdilər, hərbi təxribatı kəskin pislədilər. İranın İslam dünyasına belə düşmən münasibəti həmin ölkələrin hamısında qəzəblə qarşılanıb və Tehranın bu ağır günlərdə tamamilə təklənməsinə xidmət edir.

...Azərbaycan indi müharibə ilə əlaqədar İrana humanitar yardım göndərməyi planlaşdırırdı. Bu, ölkəmizin dar gündə qonşularına kömək dəst-xəttinin göstəricisidir. Bir halda ki, Naxçıvan ərazisində mülki obyekt, mülki vətəndaşların istifadə etdiyi hava limanı hədəfə götürülür, nankorluqla yanaşı, həm də terror aktı törədilir, biz necə öz dəst-xəttimizə sadiq qalaq? Nəhayət, sadiqlik, etimad mühitini qorumaq, münasibətlərin həssaslıq fazasını qiymətləndirmək yalnız bizəmi qalıb?

Hələ İranda bəziləri Naxçıvanda yaşananları düşmənin atəş nöqtələrinin susdurulması kimi qiymətləndirirlər. Qəribə vəziyyət yaranıb: başqa ölkənin ərazisinə PUA hücumu edilir, İranın Xarici İşlər Nazirliyi, sanki muxtar respublikamızın hədəfə alınmasından xəbərsizdir. SEPAH-dan gələn açıqlamalar isə hücumların davamlı olacağını düşünməyə əsas verir.

Görəsən, söhbət hansı atəş nöqtələrindən gedir. Əgər belə bir sübut varsa, nəyə görə İranın rəsmi qurumları məsələ barədə Azərbaycanı xəbərdar etməyiblər? Aydındır ki, sübut filan heç nə yoxdur. Sadəcə, molla rejiminin bir düşüncəsi var: Biz zərər görürüksə, dünyada hər kəs eyni aqibətlə üzləşməlidir. Yəni, söhbət bu qədər amansız və qəddar yanaşmadan gedir. Acizlik və qorxaqlıq dolu yanaşmadan. Hər halda, Azərbaycanın İsrail və ABŞ-ın İrana hücum trayektoriyasından uzaqlığı şəraitində başqa cür düşünməyə əsas qalmır. Heç şübhəsiz, Naxçıvana hücum çəkənlər rəsmi Bakının Təl-Əviv və Vaşinqtonla münasibətlərinin rəvanlığını nəzərə alırlar. İran onlarla düşməndirsə, bizdəmi eyni münasibətdə olmalı idik? Bu, nə yanaşmadır?

Yaxşı olar ki, İranda kimlərsə murdar ağızlarında bəslədikləri və ara-sıra dilə gətirdikləri sərsəmlikləri raketlərə dəyişmək eşqinə düşməsinlər. Onlar nəzərə alsınlar ki, Azərbaycana hücum edənlər həmişə peşman olurlar. Bu barədə düşünmək istəmirlərsə, onlara yerlərini göstərmək üçün hər cür gücümüzün və qüvvəmizin mövcudluğunu xatırlada bilərik. Əslində, ölkəmizin Müdafiə Nazirliyi də xatırlatdı və əlavə şərhə ehtiyac duymuruq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Brüsseldə səlahiyyət “küləkləri” əsir

## *Kallas–Fon der Lyayen gərginliyinin pərdəarxası nüansları*



**Dünya siyasətində baş verən sürətli dəyişikliklər Avropa İttifaqının (Aİ) daxili idarəetmə mexanizmləri ilə bağlı ciddi narahatlıqlar doğurur. Qlobal böhranlar, regional gərginliklər və təhlükəsizlik riskləri Brüsselin vahid siyasi aktor imicini sınağa çəkir. Birlik daxilində müşahidə olunan fikir ayrılıqları artıq rəhbər şəxslərə sirayət edib. Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və Aİ-nin xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Kaya Kallas arasında əsən “soyuq küləklər” “qoca qitə”nin gündəmindədir. “Politico” nəşri qeyd edir ki, onlar Yaxın Şərqdə cərəyan edən hadisələrə münasibət bildirərkən fikir ayrılıqları yaşayıblar. Prosesin əslində Avropa rəhbərliyində uzun müddətdir mövcud olan institusional gərginliyin növbəti nümayişi olduğunu yazan nəşr, həmçinin iki Avropa rəsmisi arasında səlahiyyət savaşının getdiyini vurğulayıb.**

Doğrudan da, Yaxın Şərqdə gərginliyin artdığı bir vaxtda Avropa İttifaqının reaksiyası gözlənildiyi kimi vahid və koordinasiyalı olmadı. Brüsselin müxtəlif institutları tərəfindən paralel bəyanatların yayımlanması Aİ daxilində bu cür böhranlara kimin siyasi cavab verməli olduğu ilə bağlı suallar yaratdı. Hadisələrin ilk saatlarında Avropa Komissiyasının rəhbərliyi və Avropa Şurası vəziyyətlə bağlı mövqeni müəyyənləşdirmək üçün sürətli diplomatik reaksiya göstərməyə çalışdı. Bununla yanaşı, Aİ-nin diplomatik aparatına rəhbərlik edən ali nümayəndə də öz təşəbbüsü ilə ayrıca açıqlama yayaraq diplomatik həll yollarının araşdırıldığını bildirdi. Paralel reaksiyalar Brüsseldə institusional koordinasiyanın nə qədər mürəkkəb olduğunu açıq şəkildə nümayiş etdirdi. Xarici analitiklərin fikrincə, əsas məsələ mövqelərin hansı institut tərəfindən ifadə edilməsi ilə bağlıdır. Çünki Aİ-nin siyasi arxitekturasına görə, xarici siyasət sahəsində əsas söz sahibi kimi məhz ali nümayəndə çıxış etməlidir. Lakin son zamanlar Avropa Komissiyasının rəhbərliyinin bu sahədə daha fəal rol oynamağa başlaması yeni balans problemi yaradıb.

Aİ-nin idarəetmə mexanizmi dünyanın ən mürəkkəb siyasi sistemlərindən biri hesab olunur. Sistem müxtəlif institutların qarşılıqlı fəaliyyətinə əsaslanır və qərarların qəbulunda balans prinsipinə böyük əhəmiyyət verilir. Tarixi baxımdan beynəlxalq münasibətlər və diplomatik fəaliyyət sahəsi Aİ-nin xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsinin səlahiyyətinə daxil olub. Həmin vəzifəni tutan şəxs Avropa Xarici Fəaliyyət Xidmətinə rəhbərlik edir və Aİ-nin diplomatik fəaliyyətini koordinasiya edir. Lakin geosiyasi proseslərin intensivləşməsi və beynəlxalq böhranların Aİ-nin daxili funksiyalarına təsirinin artması Avropa Komissiyasının rolunu dəyişdirib. Enerji təhlükəsizliyi, iqtisadi sanksiyalar, humanitar yardım, miqrasiya axınları, təchizat zəncirlərinin qorunması və kibertəhlükəsizlik kimi məsələlər getdikcə daha çox Komissiyanın məsuliyyət sahəsinə daxil olur. Bu səbəbdən Brüsseldə səlahiyyət bölgüsü ilə bağlı müzakirələr daha da kəskinləşir.

**ARAYIŞ:** *Kaya Kallas Avropa İttifaqının xarici siyasət rəhbəri vəzifəsinə gəldikdən sonra Brüsseldə yeni siyasi dinamika yarandı. Estoniyanın keçmiş baş naziri kimi o, daha sərt və prinsipial xarici siyasət xətti ilə tanınırdı. Lakin Brüsseldəki institusional reallıq onun bu ambisiyalarını tam şəkildə həyata keçirməsinə imkan vermədi. Komissiya rəhbərliyinin xarici siyasətdə öz səlahiyyətini genişləndirməsi Kallasın fəaliyyət sahəsini faktiki olaraq daraldıb. Avropa Komissiyasının yeni strukturlar yaratması və bəzi diplomatik funksiyaları öz əlində cəmləməsi ciddi narazılıq yaradıb. Bəzi rəsmilər bu münasibətlərin əvvəlki dövrdən də gərgin olduğunu qeyd edir. Hətta Kallasın qapalı müzakirələrdə Fon der Lyayenin idarəetmə üsulunu “həddindən artıq sərt” adlandırdığı barədə məlumatlar da yayılıb. Bu faktlar göstərir ki, iki qadın siyasətçi arasında fikir ayrılığı şəxsi və siyasi ziddiyyətlərin nəticəsidir.*

Yeri gəlmişkən, Avropa İttifaqının siyasi sistemi dövlətlərarası kompromis üzərində qurulub. Bu səbəbdən də institusional balans məsələsi Brüsselin siyasətində həmişə həssas mövzu olub. Xarici siyasət isə bu balansın ən mürəkkəb sahələrindən biridir. Lyayenin rəhbərlik etdiyi Avropa Komissiyası son illər bu sahədə daha aktiv rol oynamağa çalışır. Müxtəlif böhranlar zamanı komissiya rəhbərliyi təşəbbüsü ələ almağa və Avropa İttifaqının siyasi mövqeyini formalaşdırmağa cəhd edib. Analitiklərin fikrincə, bu strategiya komissiyanın siyasi təsirini artırsa da, digər institutlarla rəqabəti gücləndirib. Yəni Brüsseldə iki fərqli yanaşma formalaşıb. Bir tərəf hesab edir ki, qlobal böhranlar fonunda Aİ daha mərkəzləşmiş və operativ qərar mexanizminə malik olmalıdır. Digər tərəf isə mövcud institusional balansın qorunmasının vacibliyini vurğulayır.

Sonda vurğulayaq ki, bu mübahisələr sadəcə Brüsselin bürokratik dairələrini əhatə etmir. Hadisələr göstərir ki, institusional rəqabət artıq siyasi liderlər səviyyəsinə yüksəlib və Aİ-nin beynəlxalq imicinə təsir etməyə başlayıb. Başqa sözlə desək, “qoca qitə”də çoxdandır müzakirə olunan məşhur sual yenidən gündəmə gəlir: “Avropaya zəng etmək istəsək, kimə zəng etməliyik?” Bu baxımdan, Kallas ilə Lyayen arasındakı fikir ayrılıqları artıq Aİ-nin institusional gələcəyi ilə bağlı debat kimi qiymətləndirilir. Mövcud reallıq göstərir ki, Aİ daxili idarəetmə modelinin transformasiyası ilə üz-üzədir. Qlobal geosiyasi gərginliklər fonunda Brüssel daha sürətli və koordinasiyalı qərarlar qəbul etməyə çalışır. Lakin proses paralel olaraq institutlar arasında səlahiyyət mübahisələrini də gücləndirir.

### *Ekspert rəyi*

**İlyas HÜSEYNOV,**
**siyasi şərhçi**

Avropa İttifaqı daxilində mövcud ziddiyyətlər bəzən ayrı-ayrı şəxslər səviyyəsində açıq şəkildə özünü göstərir. Müşahidə edirik ki, Ursula Fon der Lyayen ilə Kaya Kallas arasında da müxtəlif məqamlarda fikirlərin üst-üstə düşmədiyi hallar baş verir. Bu onu deməyə əsas verir ki, İttifaq daxilindəki ziddiyyətlər kifayət qədər dərindir. Müxtəlif məsələlərin həlli prosesində tərəflər arasında müəyyən səlahiyyət mübarizəsi də hiss olunur. Hər bir tərəf ayrı-ayrı problemlərin həllində daha çox rol oynamağa və təşəbbüsü öz əlində cəmləşdirməyə çalışır. Bu kontekstdə rəqabət elementlərinin də aydın şəkildə üzə çıxdığını görmək mümkündür.

Belə fikir ayrılıqları ümumilikdə Avropa İttifaqının nüfuzuna mənfi təsir göstərir. Bu baxımdan onların mövqeləri arasında ciddi kəskin fərqlərin olması arzuolunan hal deyil və daha çox Avropa İttifaqının ümumi maraqları çərçivəsində uzlaşdırılmış yanaşma nümayiş etdirilməlidir. Lakin reallıqda tam əks mənzərə müşahidə olunur. Artıq uzun müddətdir ki, Avropa İttifaqının müxtəlif institutları arasında bu cür kəskin fikir toqquşmaları açıq şəkildə özünü göstərməkdədir.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Strateji dalan

## *Söhbət Hindistan silahlarının logistik blokadası və Ermənistanın büdcə itkilərindən gedir*

**Onilliklər boyu Rusiyadan birtərəfli hərbi asılılıqda olan İrəvanın son illər Moskva ilə yaşadığı etimad böhranı və dəyişən geosiyasi reallıqlar onu alternativlər axtarmağa sövq edib. Bu çərçivədə Hindistan həm hərbi texnologiyalar, həm də strateji maraqlar baxımından Ermənistan üçün əlverişli tərəfdaşa çevrilib. Tərəflər arasında ümumi dəyəri, təxminən, 1,5 milyard dollar olan silah müqavilələri imzalanıb. İlk baxışda hər şey sadədir: Hindistan silah satır, Ermənistan isə alır.**

Bu strategiyanın həyata keçirilməsi üçün ən kritik məsələ silahların Ermənistana hansı marşrutla çatdırılmasıdır. Ermənistanın coğrafi mövqeyi və regiondakı mürəkkəb siyasi reallıqlar onun logistika imkanlarını ciddi şəkildə məhdudlaşdırıb. Türkiyə və




Azərbaycanla sərhədlərin bağlı olması İrəvanın alternativ tranzit yollarından istifadə imkanlarını xeyli azaldır.

**(davamı 8-ci səhifədə)**

# Prezident İlham Əliyevin İranın Azərbaycana dron hücumuna dair fikirləri dünya mediasının diqqət mərkəzindədir










**Dünyanın bir sıra media qurumları İranın pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumları ilə bağlı Prezident İlham Əliyevin sərt reaksiyasını geniş işıqlandırıb.**

Bir sıra nüfuzlu beynəlxalq informasiya agentlikləri və qəzetlər, xəbər saytları və portallar Azərbaycan rəhbərinin hadisəni “terror aktı” kimi qiymətləndirdiyini və rəsmi Bakının cavab tədbirləri hazırladığını diqqətə çatdırıblar.

**“Reuters”** agentliyi yazır ki, İran istiqamətindən buraxıldığı bildirilən pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə kənd məktəbinin yaxınlığına düşüb. Agentliyin məlumatına görə, Azərbaycan rəsmiləri hadisə ilə bağlı araşdırma aparır və təhlükəsizlik tədbirləri gücləndirilib. Həmçinin qeyd edilib ki, hücum nəticəsində mülki infrastruktura ziyan dəyib və yaralılar var. Yazıda Prezident İlham Əliyevdən sitatlar yer alıb. “Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin”, - deyə Azərbaycan Prezidenti bildirib.

Almaniyanın **“Spiegel”, “Zeit”, “Handelsblatt”, “Tagesspiegel”, “Bild”, “Berliner Zeitung”** qəzet və jurnalları, **“Tagesschau”** və **“Welt”** telekanalları, eləcə də digər media qurumları bu barədə silsilə xəbərlər yayımlayıb. Xəbərlərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında aeroportun, məktəb binasının və digər mülki obyektlərin dron hücuma məruz qaldığı vurğulanaraq, bu hücumun Azərbaycan tərəfindən sərt şəkildə pisləndiyi, İran səfirinin Azərbaycan Xarici İşlər Nazirliyinə çağırıldığı bildirilib. Məsələ ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasının keçirildiyi, dövlətimizin başçısının göstərişi ilə Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş hazırlığına gətirildiyi bildirilib.

**“Tagesspiegel”** qəzeti İran müharibəsinin getdikcə daha çox ölkəyə yayıldığını qeyd edərək, PUA-ların Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində hava limanı yaxınlığında və bir məktəbin yaxınlığında düşdüyünü yazıb. Azərbaycanın bu iyrənc terror aktına görə cavab tədbirləri görəcəyini açıqladığı, Prezident İlham Əliyevin göstərişi ilə Silahlı Qüvvələrin döyüş hazırlığı vəziyyətinə gətirildiyi qeyd olunub.

**“Zeit”** nəşrinin yaydığı xəbərdə Azərbaycan Prezidenti İlham Əliyevin pilotsuz uçuş aparatlarının Naxçıvan Muxtar Respublikasına hücumundan sonra ölkənin Silahlı Qüvvələrini döyüş hazırlığı vəziyyətinə gətirdiyini qeyd edərək, Azərbaycan Prezidentinin ordumuzun istənilən əməliyyata hazır olması barədə fikrini diqqətə çatdırıb.

Türkiyənin aparıcı televiziya kanalları, informasiya agentlikləri, çap mediası və xəbər saytları, o cümlədən **“TRTHaber”, “CNNTürk”, “Habertürk”, “HaberGlobal”, “Sabah”, “Hürriyet”, “Milliyet”, “Star”** və digər media qurumları Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və İran tərəfindən Azərbaycana qarşı törədilmiş terror aktını geniş işıqlandırıb. Qardaş ölkənin mediası Prezident İlham Əliyevin fikirlərindən sitat gətirib. Qeyd olunur ki, Azərbaycan Prezidenti atəşin hədəflərinin mülki obyektlər olduğunu bildirib.

Çin mediası İran İslam Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında söylədiyi fikirlər barədə xəbərlər yayıb. Çinin milli xəbər agentliyi **“Sinxua”**nın, **Çin Mərkəzi Televiziyasının, Çin Xəbər Xidmətinin** internet səhifələrində, digər xəbər portallarında mövzu ilə bağlı informasiyalar yerləşdirilib.

Çin mediası yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında İranın dronlar vasitəsilə Azərbaycana qarşı terror aktı törətdiyini deyib. “Əliyev vurğulayıb ki, İran rəsmiləri Azərbaycana izahat verməli və üzr istəməlidir. Prezident Əliyev bildirib ki, Azərbaycan İrana qarşı əməliyyatlarda heç vaxt iştirak etməyib və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Azərbaycanın qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağı var, nə də siyasəti buna imkan verir”, - deyə Çin mediası yazır.

ABŞ-ın aparıcı media orqanları da İrana məxsus dronların Naxçıvana hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında səsləndirdiyi fikirlərə geniş yer verib. **CNN** yazıb ki, Azərbaycan Prezidenti İlham Əliyev dron hücumlarını terror aktı və çirkin əməl adlandırıb.

“Bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir”, - deyə CNN Prezident İlham Əliyevin fikirlərinə istinad edərək yazıb.

Qeyd olunub ki, Azərbaycan Prezidentinin göstərişi ilə Silahlı Qüvvələrə təlimat verilib ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

**“Associated Press”** Prezident İlham Əliyevin İranı terrorda və təcavüz aktında günahlandırdığını yazıb. Qeyd olunub ki, Azərbaycan Ordusuna cavab tədbirləri görməyə hazırlaşmaq əmri verilib.

**“ABC News”, “CBS News”, “Fox News”** və digər aparıcı media orqanları mövzunu günün əsas xəbəri kimi işıqlandırıb.

Fransanın **“France24”, “Le Monde”** və digər media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin hadisə ilə bağlı bəyanatını geniş işıqlandırıblar. Həmin nəşrlərin məlumatına görə, Prezident İlham Əliyev İranın bu addımını “Azərbaycan dövlətinə qarşı terror aktı” adlandırıb və Tehranın bu hadisəyə görə məsuliyyət daşıdığını bildirib. “Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir”, - deyə Azərbaycan Prezidentinin fikirlərindən sitat gətirilib.

Bəzi beynəlxalq media qurumları dövlətimizin başçısının digər mühüm sitatlarına yer veriblər. Prezident İlham Əliyev qeyd edib ki, İran bu hücuma görə rəsmi şəkildə üzr istəməli və məsul şəxslər məsuliyyətə cəlb olunmalıdır.

**“Channel News Asia”, “UPI”, “The Canberra Times”, “Eurasianet”, “Devdiscourse”** və digər beynəlxalq media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasında səsləndirdiyi bəyanatını geniş işıqlandırıblar.

**“Intellinews”, “OC Media”, “Times of Israel”, “Middle East Eye”, “News24”, “Daily Mail”, “The New Region”** və digər media platformaları da Prezident İlham Əliyevin çıxışına istinad edərək Azərbaycanın təhlükəsizlik qüvvələrinin yüksək hazırlıq vəziyyətinə gətirildiyini yazıblar.

Bəzi nəşrlər, o cümlədən **“TimesCA”, “Orlando Sentinel”, “20 Minutos”** və **“Independent”** hadisənin regionda gərginliyi artırdığını qeyd edərək Azərbaycanın mümkün cavab addımları üzərində işlədiyini bildiriblər.

Rusiyanın **“RBC”, “Vedomosti”, “RIA Novosti”, “Interfax”, “Komsomolskaya Pravda”, “Lenta.ru”, “Meduza”, “Rossijskaya qazeta”** və digər informasiya resursları da Prezident İlham Əliyevin bəyanatına geniş yer ayıraraq onun İranın hücumunu terror aktı kimi qiymətləndirdiyini və Azərbaycan Ordusunun yüksək hazırlıq vəziyyətinə gətirildiyini qeyd ediblər.

Rumıniyanın bir sıra aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin İranın dron hücumları ilə bağlı Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və regionda yaranmış təhlükəsizlik vəziyyətini geniş şəkildə işıqlandırıb. Nəşrlərdə Prezident İlham Əliyevin Azərbaycanın suverenliyinə qarşı yönəlmiş hər hansı təhdidə qəti cavab veriləcəyi barədə mövqeyi xüsusi vurğulanıb. **“News.ro”** Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə qarşı pilotsuz uçuş aparatları ilə həyata keçirilən hücumu terror aktı kimi qiymətləndirdiyini və bu hadisəyə görə Tehranın məsuliyyət daşıdığını bildirdiyini yazıb. Rumıniyanın analitik nəşrlərindən olan **“Newsweek Romania”** isə yazır ki, Azərbaycan rəhbərliyi ölkənin təhlükəsizliyini təmin etmək üçün zəruri addımlar atmağa hazır olduğunu bildirib. Rumıniyanın dövlət radiosuna bağlı analitik platforma olan **“Rador”** xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan dövlətinin təhlükəsizliyinə qarşı yönəlmiş istənilən addıma adekvat cavab veriləcəyini bildirib. **“Gandul”** xəbər portalı isə yazır ki, Prezident İlham Əliyev İranı Azərbaycan dövlətinə qarşı terror aktı törətməkdə ittiham edib.

**“Euronews Romania”** isə dron hücumu nəticəsində bir neçə nəfərin yaralandığını və pilotsuz aparatların birinin aeroport yaxınlığında partladığını vurğulayıb. Nəşrin məlumatına görə, Prezident İlham Əliyev bu hücumu Azərbaycan dövlətinə qarşı düşmənçilik aktı kimi qiymətləndirib və məsul şəxslərin müəyyən edilərək cavab verməli olduğunu bildirib.

Yunanıstan mediası da Prezident İlham Əliyevin fikirlərinə geniş yer ayırıb. Yunanıstanın dövlət televiziya və xəbər platforması **“ERT News”** yazır ki, Prezident İlham Əliyev Azərbaycanın ərazisinə edilən dron hücumunu İran tərəfindən həyata keçirilmiş terror aktı kimi qiymətləndirib.

**“SKAI”** yazır ki, Prezident İlham Əliyev İranın Azərbaycana qarşı terror aktı törətdiyini bəyan edib. Azərbaycan lideri rəsmi Tehranın baş verən hadisə ilə bağlı izahat verməli olduğunu bildirib.

**“CNN Greece”** qeyd edir ki, Prezident İlham Əliyev İranın bu terror aktının ciddi nəticələrinin ola biləcəyini bildirib. Rəsmi Bakı hadisə ilə bağlı İran tərəfinin məsuliyyətini gündəmə gətirib və Tehrandan rəsmi açıqlama tələb edib.

**“Capital.gr”** portalında yayımlanan xəbərdə qeyd olunur ki, hadisədən sonra Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib. Azərbaycan rəhbərliyi ölkənin təhlükəsizliyinə qarşı yönəlmiş hər hansı təhdidə operativ cavab verməyə hazırdır və vəziyyət diqqətlə izlənilir.

**“Liberal.gr”** bildirir ki, Prezident İlham Əliyev Azərbaycan Ordusuna mümkün cavab tədbirlərinə hazırlaşmaq barədə göstəriş verib. Nəşr qeyd edir ki, Azərbaycan rəhbərliyi baş verən hadisəni ölkənin təhlükəsizliyinə qarşı ciddi təhdid kimi qiymətləndirir və vəziyyətin inkişafını diqqətlə izləyir.

**“Kanaliena”** yazır ki, Azərbaycan tərəfi bu məsələ ilə bağlı İranın rəsmi izahat verməli olduğunu və hadisənin bütün təfərrüatlarının araşdırılacağını bildirib.

Dövlətimizin başçısının çıxışı Gürcüstan mediasının da diqqət mərkəzində olub. **“interpressnews.ge”, “imedinews.ge”, “bpn.ge”, “1tv.ge”, “radiotavisupleba.ge”, “qafqazturk.com”, “aktual.ge”, “interpress.ge”, “24news.ge”, “rustavi2.ge”, “palitranews.ge”** informasiya portalları, radio və televiziyaları Prezident İlham Əliyevin İran tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisinə dron hücumlarını qətiyyətlə pislədiyini bildirir.

Azərbaycan Prezidentinin çıxışından gətirilən sitatda deyilir: “Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir”.

***AZƏRTAC***

# Yaxın Şərqdə gərginlik, Avropada narahatlıq

## *ABŞ–İsrail–İran qarşıdurmasının qlobal əks-sədası*

**Tarix göstərir ki, istənilən regionda başlayan hərbi və ya siyasi qarşıdurmalar qısa müddət ərzində qlobal sistemə yayılır. ABŞ–İsrail–İran xəttində formalaşan hazırkı qarşıdurmanın da hərbi ölçülərindən daha çox diqqət çəkən tərəfi onun siyasi və iqtisadi rezonansının Avropaya qədər uzanmasıdır.**



İlk baxışdan Yaxın Şərqdə baş verən hadisələrin Avropa üçün dolayı siyasi əhəmiyyət daşıdığı düşünülə bilər. Coğrafi məsafə sanki təhlükəsizlik buferi yaradır. Lakin müasir qlobal iqtisadi və enerji sistemi belə "coğrafi rahatlıq" illüziyasını artıq çoxdan aradan qaldırıb. Bu gün dünya bazarları bir-birinə o qədər bağlıdır ki, Fars körfəzində artan gərginliyin təsiri qısa müddət ərzində Avropa birjalarında, enerji bazarlarında və hətta siyasi gündəmində hiss olunur.

Burada əsas amillərdən biri enerji geosiyasətidir. Avropa iqtisadiyyatı uzun illər ərzində sənaye istehsalı, nəqliyyat və sosial rifah modelini sabit və proqnozlaşdırıla bilən enerji təchizatı üzərində qurub. Amma son illər göstərdi ki, enerji bazarlarında sabitlik əslində siyasi sabitlikdən asılıdır. Ukrayna müharibəsindən sonra Rusiyadan qaz tədarükünün azalması Avropa üçün ciddi strateji sarsıntı yaratdı. Bir çox Avropa ölkəsi qısa müddətdə enerji siyasətini yenidən qurmaq məcburiyyətində qaldı. Məhz bu kontekstdə İranın və bütövlükdə Fars körfəzi regionunun əhəmiyyəti daha aydın görünür. İran qlobal enerji daşımalarının keçdiyi ən kritik geosiyasi məkanlardan birinin – Hörmüz boğazının yaxınlığında yerləşir və bu boğaz dünya neft ticarətinin mühüm hissəsinin keçdiyi strateji arteriya hesab olunur.



### Gərginlik strateji marşrutların təhlükəsizliyini təsir edir

Əgər ABŞ–İsrail–İran xəttində qarşıdurma daha geniş miqyaslı təhlükəsizlik risklərinə çevrilərsə, bu, ilk növbədə, enerji daşımalarının təhlükəsizliyinə dair narahatlıqları artıracaq. Bəzən real hərbi toqquşmadan daha güclü təsir məhz risk ehtimalının özü yaradır. Enerji bazarları siyasi siqnallara son dərəcə həssasdır. Hər hansı eskalasiya ehtimalı belə investorların və treyderlərin davranışını dəyişir, nəticədə, qiymətlərdə sürətli dalğalanmalar müşahidə olunur. Belə vəziyyət isə inflyasiya ilə mübarizə aparan Avropa iqtisadiyyatına yeni təzyiq yarada bilər. Enerji böhranları Avropada sosial və siyasi sabitlik faktoru kimi qəbul olunur. Qiymətlərin artması seçici davranışına, hökumətlərin reytinqlərinə və ümumi siyasi mühitə təsir göstərən amilə çevrilir.

Məhz buna görə də Avropa paytaxtlarında Yaxın Şərqdə baş verən hadisələr qlobal iqtisadi sabitliyə təsir edə biləcək strateji faktor kimi qiymətləndirilir. Başqa sözlə desək, məsələ yalnız İran və ya İsrail ilə bağlı deyil. Məsələ Avropa iqtisadi modelinin nə dərəcədə sabit qalacağı ilə bağlıdır.

### Avropa bu qarşıdurmada hansı mövqedə dayanır – tərəf, yoxsa vasitəçi?

Bu sual əslində Avropanın qlobal siyasətdəki rolunun mahiyyətinə də işıq salır. Çünki son onilliklərdə Avropa İttifaqı özünü daha çox diplomatik və normativ güc kimi təqdim etməyə çalışıb. Yəni Avropa münaqişələrin həllində hərbi alətlərdən çox diplomatik mexanizmlərə, hüquqi çərçivələrə və çoxtərəfli institutlara üstünlük verir. Məhz buna görə də ABŞ–İsrail–İran xəttində formalaşan gərginlikdə Brüsselin mövqeyi daha çox balanslaşdırılmış görünür. Vaşinqton İsrailin təhlükəsizlik arqumentlərini açıq şəkildə müdafiə edir və regiondakı müttəfiqlik münasibətlərinə əsaslanan sərt siyasi mövqe nümayiş etdirir, Avropada isə ritorika ehtiyatlıdır.

### "Qoca qitə" niyə bu qədər ehtiyatlı davranır?

Avropa üçün İran Yaxın Şərqin geosiyasi balansında mühüm aktor və potensial iqtisadi tərəfdaşdır. İran böyük enerji ehtiyatlarına malikdir və uzunmüddətli perspektivdə Avropa enerji strategiyasında alternativ mənbələrdən biri kimi nəzərdən keçirilə bilər. Bu səbəbdən Avropa dövlətləri İranla münasibətlərin tamamilə konfrontasiya müstəvisinə keçməsini istəmir. Çünki belə bir ssenari həm diplomatik dialoq imkanlarını məhdudlaşdırar, həm də regionda daha geniş miqyaslı sabitlik problemləri yarada bilər.

Bu kontekstdə İranın nüvə proqramı ətrafında imzalanmış Birgə Hərtərəfli Fəaliyyət Planı xüsusi əhəmiyyət daşıyır. 2015-ci ildə əldə olunan bu razılaşma Avropa diplomatiyasının ən mühüm uğurlarından biri hesab edilirdi. Saziş İranın nüvə proqramına məhdudiyyətlər qoyur, əvəzində isə sanksiyaların tədricən yumşaldılmasını nəzərdə tuturdu. ABŞ-ın 2018-ci ildə sazişdən çıxması bu diplomatik arxitekturanı zəiflətdi. Lakin maraqlıdır ki, Avropa paytaxtlarında bu saziş ideyası tamamilə gündəmdən silinmiş hesab olunmur. Diplomatik kanallarda hələ də belə bir sual müzakirə olunur: gərginliyin azaldılması üçün nüvə sazişi modelinə qayıdış mümkündürmü? Sualın qısa cavabı hələlik qeyri-müəyyəndir. Lakin bir məqam aydındır: Avropa dövlətləri ABŞ və İran arasında diplomatik körpülərin tamamilə dağılmasını istəmir. Çünki diplomatik mexanizmlərin itməsi regionda hərbi ssenarilərin daha real görünməsinə səbəb olur.

Məhz buna görə Brüssel və Avropanın əsas paytaxtları gərginliyin açıq müharibə mərhələsinə keçməsinin qarşısını almağa çalışır. Başqa sözlə, Avropa bu qarşıdurmada açıq tərəf rolundan daha çox siyasi balans axtaran aktor kimi çıxış edir. Lakin beynəlxalq siyasətin paradoksu ondadır ki, bəzən balansı qorumaq ən çətin strategiyaya çevrilir. Yaxın Şərqdə hər yeni eskalasiya isə Avropanın bu incə diplomatik xətti nə qədər davam etdirə biləcəyini sual altında qoyur.

### Gərginliyin təhlükəsizlik arxitekturasına inteqrasiya edilməsi

Son illər Avropa təhlükəsizlik düşüncəsi əsasən bir istiqamətə – Şərqə yönəlmişdi. Ukrayna müharibəsi qitənin təhlükəsizlik gündəmini köklü şəkildə dəyişdi və Avropa dövlətlərinin strateji planlaşdırması əsasən Rusiya faktoruna fokuslandı. Müdafiə xərclərinin artırılması, NATO-nun şərq cinahının gücləndirilməsi, yeni hərbi doktrinaların hazırlanması – bütün bu proseslər Avropanın təhlükəsizlik sisteminin yenidən qurulduğunu göstərirdi.

Lakin beynəlxalq siyasətin dinamikası nadir hallarda bir böhranla məhdudlaşır. Yaxın Şərqdə artan gərginlik Avropanın təhlükəsizlik düşüncəsini yenidən daha geniş geosiyasi perspektivə qaytarır. Çünki ABŞ–İsrail–İran xəttində eskalasiya ehtimalı Avropanın paralel təhlükəsizlik böhranları ilə üzləşməsi deməkdir.

Bəs Avropa eyni vaxtda bir neçə strateji istiqamətdə təhlükəsizlik risklərini idarə edə biləcəkmi? Bu halda NATO daxilində strateji planlaşdırma yalnız Şərqi Avropa ilə məhdudlaşa bilməz. Əgər Yaxın Şərqdə vəziyyət daha da gərginləşərsə, alyansın diqqəti, eyni zamanda, cənub istiqamətinə də yönəlməli olacaq. Digər tərəfdən, Yaxın Şərqdə eskalasiyanın Avropa üçün yaratdığı gərginliyin humanitar və sosial nəticələri də siyasi gündəmi birbaşa təsir altına ala bilər.

### Yeni qarşıdurma dalğası və miqrasiya siyasəti

Son onillikdə Aİ üçün ən həssas daxili siyasi mövzulardan biri məhz miqrasiya məsələsi olub. Suriya müharibəsi dövründə yaranan qaçqın axını Avropa daxilində ciddi siyasi debatlara səbəb olmuş, bəzi ölkələrdə populist və radikal siyasi qüvvələrin güclənməsinə gətirib çıxarmışdı. Əgər Yaxın Şərqdə hərbi qarşıdurmalar genişlənərsə və regionda humanitar vəziyyət pisləşərsə, yeni miqrasiya dalğalarının yaranması ehtimalı da artır. Belə bir inkişaf isə Avropa daxilində artıq həssas olan siyasi balansı yenidən sınağa çəkə bilər. Çünki miqrasiya məsələsi təhlükəsizlik, sosial inteqrasiya və siyasi identitet müzakirələri ilə sıx bağlıdır.

Bütün bu faktorlar göstərir ki, ABŞ–İsrail–İran qarşıdurması qlobal siyasi sistemdə geniş dalğalar yaradan prosesə çevrilmək potensialına malikdir. Avropa üçün əsas strateji məsələ balansı qorumaqdır: gərginliyin yaratdığı təhlükəsizlik, iqtisadi və sosial riskləri minimuma endirmək, eyni zamanda, diplomatik manevr imkanlarını itirməmək.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

---

**Ənənəvi olaraq Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Türkmənistanı birləşdirən regional koordinasiya mexanizmi ölkəmizi də əhatə edən daha geniş geosiyasi çərçivəyə doğru inkişaf edir. Məhz bu kontekstdə martın 4-də ABŞ-də fəaliyyət göstərən Xəzər Siyasət Mərkəzi (XSM) tərəfindən Vaşinqtonda təşkil edilən "Yeni və genişlənmiş Mərkəzi Asiya: Trans-Xəzər dəhlizinin inkişafı üçün növbəti addımlar" mövzusunda konfransda səsləndirilən tezislər regionun gələcək geosiyasi inkişaf trayektoriyası baxımından xüsusi diqqət çəkir.**

# ABŞ Azərbaycanla tərəfdaşlığı möhkəmləndirməyə önəm verir

## *"C6" və digər platformalarda əməkdaşlıq isə ölkəmizin qlobal logistika qovşağına çevrilməsini sürətləndirir*

Tədbirdə XSM-nin baş eksperti Erik Rudenşioldun moderatorluğu ilə Azərbaycanın bu ölkədəki səfiri Xəzər İbrahim, Qazaxıstanın səfiri Maqjan İlyasov və Özbəkistanın səfiri Furqat Sidiqov regionun yeni geosiyasi mənzərəsini müzakirə ediblər. XSM-nin prezidenti Əfqan Nifti çıxışında regional əməkdaşlığın sistemli xarakter aldığını və Azərbaycanın Mərkəzi Asiya platformasına inteqrasiyası ilə "C5" formatının artıq "C6" formatına çevrildiyini vurğulayıb. Səfirlər bu tərəfdaşlığın və Orta Dəhliz layihəsinin həm region xalqlarının maraqlarına cavab verdiyini, həm də ABŞ investorları üçün logistika və kritik minerallar sahəsində yeni imkanlar açdığını qeyd ediblər.



* * *

Mərkəzi Asiya ilə Azərbaycan arasında formalaşan strateji əməkdaşlıq artıq regional çərçivəni aşaraq Qərb dövlətlərinin, xüsusilə də Amerika Birləşmiş Ştatlarının xarici siyasət prioritetlərinin mərkəzinə çevrilib. Son illər Vaşinqtonun regiona münasibətdə formalaşdırdığı yeni strategiya bir neçə həlledici məqama söykənir ki, bunların başında qlobal texnoloji rəqabətdə mühüm əhəmiyyət kəsb edən mənbələr dayanır. Mərkəzi Asiya ölkələrinin litium, uran və nadir torpaq elementləri kimi strateji xammal ehtiyatlarına malik olması ABŞ-ın bu regiona marağını iqtisadi müstəvidən milli təhlükəsizlik müstəvisinə daşıyıb. Eyni zamanda, mövcud geosiyasi gərginliklər fonunda Rusiya və İran üzərindən keçən ənənəvi nəqliyyat dəhlizlərinə etibarlı və effektiv logistik alternativlərin tapılması zərurəti Azərbaycan və Mərkəzi Asiyanı birləşdirən marşrutların strateji çəkisini artırmışdır.

Prosesin ən mühüm siyasi məqamı ötən ilin noyabrında baş tutan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü oldu. Prezident İlham Əliyevin bu formatda iştirakı Azərbaycanın de-fakto altıncı üzv statusunu möhkəmləndirdi. Daşkənd Sammiti zamanı imzalanan strateji sənədlər Xəzər dənizinin dibi ilə "yaşıl enerji" kabelinin çəkilməsi və rəqəmsal tranzit qovşağının yaradılması kimi layihələri yeni mərhələyə daşıdı. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan və Mərkəzi Asiya ölkələri artıq vahid geoiqtisadi məkan kimi çıxış edir və bu birliyin Orta Dəhliz üzərindəki qlobal rəqabətqabiliyyətliliyi hər ötən il daha da artır. Vaşinqton hazırda bu reallığı nəzərə alaraq "C5+1" mexanizmini Azərbaycanın strateji imkanları ilə sinxronlaşdırmağa, regionun bütövlükdə strateji dayanıqlılığını dəstəkləyən yeni tərəfdaşlıq arxitekturası qurmağa çalışır.

Regionda diqqətçəkən digər tendensiya Mərkəzi Asiya əməkdaşlıq platformasının genişlənməsidir. Azərbaycanın regional dialoq mexanizmlərinə inteqrasiyası, faktiki olaraq, Xəzər hövzəsi ətrafında yeni geosiyasi konfiqurasiya yaradır. Müasir geosiyasi konyuktura çərçivəsində formalaşan bu yeni əməkdaşlıq modeli şərti olaraq "C6" formatı kimi xarakterizə olunur və Azərbaycan ilə 5 Mərkəzi Asiya dövlətinin strateji koordinasiyasını özündə ehtiva edir. Bu formatın fəaliyyət trayektoriyası, ilk növbədə, Xəzər regionunda nəqliyyat və logistika imkanlarının genişləndirilməsinə, xüsusilə Orta Dəhlizin keçid potensialının maksimallaşdırılmasına hədəflənib. Eyni zamanda, tərəflər arasında irimiqyaslı enerji və sənaye layihələrinin sıx koordinasiyası, habelə, regional təhlükəsizlik və iqtisadi sabitliyin kollektiv şəkildə gücləndirilməsi platformanın əsas prioritetləri kimi müəyyən edilib.

Bütün bu proseslər göstərir ki, Mərkəzi Asiya və Cənubi Qafqaz artıq qlobal geosiyasətdə ikinci dərəcəli region kimi qiymətləndirilmir. Əksinə, Avrasiya ticarət və enerji sistemində yeni logistika mərkəzinin formalaşması prosesi gedir. Trans-Xəzər dəhlizi, Orta Dəhliz və "C6" əməkdaşlıq formatı bu transformasiyanın əsas elementləridir. Bu layihələrin uğurla həyata keçirilməsi regionu təkcə tranzit məkan deyil, həm də geoiqtisadi güc mərkəzlərindən birinə çevirə bilər. Beləliklə, Mərkəzi Asiya ilə Azərbaycan arasında dərinləşən əməkdaşlıq yalnız regional layihə deyil, Avrasiyanın gələcək iqtisadi və siyasi arxitekturasını formalaşdıran mühüm geosiyasi proseslərdən biridir.

*Tacir SADIQOV*
*XQ*

### *Ekspert rəyi*



**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı, politoloq**

Son dövrlər ABŞ ilə Azərbaycan arasında münasibətlərin inkişafına yönəlmiş siyasi və institusional aktivliyin artması beynəlxalq münasibətlər sistemində baş verən yeni geosiyasi konfiqurasiyanın mühüm göstəricilərindən biri kimi diqqət çəkir. Vaşinqton həm birbaşa diplomatik kanallar vasitəsilə, həm də analitik mərkəzlər, beynəlxalq platformalar və iqtisadi institutlar üzərindən rəsmi Bakı ilə əməkdaşlıq imkanlarını genişləndirməyə çalışır.

Bu kontekstdə Vaşinqtonda fəaliyyət göstərən Xəzər Siyasət Mərkəzi tərəfindən təşkil olunan "Yeni və genişlənmiş Mərkəzi Asiya: Trans-Xəzər dəhlizinin inkişafı üçün növbəti addımlar" mövzusunda konfrans xüsusi əhəmiyyət kəsb edir. Müzakirələrin məhz Trans-Xəzər nəqliyyat marşrutunun perspektivlərinə həsr olunması təsadüfi deyil. Çünki Avrasiya geoiqtisadi məkanında formalaşan yeni logistika xətləri içərisində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu həm geosiyasi, həm də iqtisadi baxımdan alternativ və strateji istiqamət kimi getdikcə daha çox diqqət cəlb edir. Bu marşrut Çindən başlayaraq Mərkəzi Asiya, Xəzər hövzəsi, Azərbaycan, Cənubi Qafqaz və Türkiyə üzərindən Avropaya çıxışı təmin edən çoxşaxəli tranzit sistemidir və hazırkı beynəlxalq siyasi şəraitdə onun əhəmiyyəti daha da artmışdır. Ümumiyyətlə, Azərbaycanın son illərdə həyata keçirdiyi iri miqyaslı nəqliyyat layihələri, o cümlədən regional dəhlizlərin inkişafına yönəlmiş siyasəti ölkəni Avrasiyanın əsas tranzit qovşaqlarından birinə transformasiya edib. Bu isə ABŞ-ın regionla bağlı uzunmüddətli geoiqtisadi strategiyasında Bakının rolunu daha da aktuallaşdırır.

Milli Məclisin komitə sədri Səməd Seyidovun ABŞ-a səfəri çərçivəsində müxtəlif beynəlxalq platformalarda iştirakı isə Azərbaycanın parlament diplomatiyasının çoxşaxəli və institusional səviyyədə aparıldığını göstərir. Xüsusilə Suveren Millətlər Alyansı platformasının ilk zirvə toplantısında iştirak Azərbaycanın suverenlik, beynəlxalq hüquq və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanan mövqeyinin yeni müzakirə platformalarında da təqdim olunmasına imkan yaradır. Digər tərəfdən, ABŞ–Azərbaycan iqtisadi münasibətlərinin institusional tarixində mühüm rol oynayan ABŞ–Azərbaycan Ticarət Palatasının fəaliyyətinin 30 illiyinə həsr olunmuş konfrans da ikitərəfli əməkdaşlığın iqtisadi komponentinin davamlı inkişaf etdiyini göstərir. Bu qurum uzun illər ərzində enerji, investisiya, ticarət və sənaye sahələrində əməkdaşlığın inkişafına töhfə verən əsas platformalardan biri kimi çıxış edib. ABŞ şirkətlərinin Azərbaycanın enerji və infrastruktur layihələrində iştirakı, eyni zamanda, Azərbaycanın regionun iqtisadi mərkəzlərindən birinə çevrilməsi iki ölkə arasında iqtisadi tərəfdaşlığın strateji mahiyyət daşıdığını təsdiqləyir.

# Humanizm və məsuliyyət nümunəsi

*(əvvəli 1-ci səhifədə)*

Hazırkı mürəkkəb geosiyasi vəziyyət göstərir ki, quru sərhədlərimizin bağlı saxlanılması bizim təhlükəsizliyimiz üçün çox vacib bir amildir. Yaxın coğrafiyada baş verən hərbi qarşıdurmalar, müxtəlif regionlarda artan gərginlik, qeyri-sabitlik o deməkdir ki, dövlətlər sərhəd təhlükəsizliyinə daha həssas yanaşmalıdır. Bu baxımdan, rəsmi Bakı quru sərhədlərlə bağlı qərarı qüvvədə saxlayaraq, əslində, ölkəmizin daxili sabitliyini qorumağa yönəlmiş düzgün siyasət həyata keçirir. Bu məsələni daha geniş kontekstdə dəyərləndirdikdə aydın görünür ki, quru sərhədlərimizin bağlı qalması məhz mümkün təhdidlərin qarşısını almağa hesablanmış addım idi. Dövlət təhlükəsizliyi yalnız hərbi güclə təmin edilmir. Bəzən potensial risklərin vaxtında qiymətləndirilməsi və qabaqlayıcı addımların atılması daha böyük əhəmiyyət daşıyır. Azərbaycan məhz belə bir yanaşma nümayiş etdirərək regionda baş verə biləcək gözlənilməz proseslərin ölkəyə təsir imkanlarını minimuma endirməyə çalışıb.



Bu gün müxtəlif istiqamətlərdən yaranan risklər də bu qərarın nə qədər düzgün olduğunu göstərir. Gözlənilən kənar təhdidlər və ümumilikdə, təhlükəsizlik məsələsi hər bir dövlət üçün əsas prioritetdir. Xüsusilə də regionumuz kimi mürəkkəb geosiyasi məkanlarda yerləşən ölkələr üçün bu məsələ daha həssas xarakter daşıyır. Məhz buna görə də sərhədlərə nəzarətin gücləndirilməsi və onların bağlı saxlanılması dövlət təhlükəsizliyinin mühüm elementinə çevrilir.

Digər tərəfdən, belə qərarların arxasında duran səbəblərdən biri də yad elementlərin respublika ərazisinə daxil olması riskidir. Dünyanın müxtəlif bölgələrində baş verən hadisələr göstərir ki, münaqişə zonalarından və qeyri-sabit ərazilərdən müxtəlif qrupların başqa ölkələrə keçmək cəhdləri istənilən vaxt baş verə bilər. Bu isə yalnız təhlükəsizlik baxımından deyil, həm də sosial sabitlik baxımından əlavə risklər yaradır. Azərbaycanın belə halların qarşısını əvvəlcədən nəzərə alaraq tədbir görməsi dövlət idarəçiliyində məsuliyyətli yanaşmanın göstəricisidir.

Bütün bunlar fonunda indi daha aydın görünür ki, Prezident İlham Əliyevin quru sərhədlərlə bağlı qərarı çox doğru addım olub. Zənnimizcə, dövlətimizin başçısının 2024-cü il sentyabrın 23-də VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışı zamanı səsləndirdiyi fikirləri xatırlatmaq yerinə düşər: "Mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün – sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq, daxili risklər Azərbaycanda yoxdur. Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır".

Bu mənada, quru sərhədlərinin bağlı saxlanılması ilə bağlı qərar təkcə bugünkü vəziyyət üçün deyil, gələcəkdə yarana biləcək riskləri də nəzərə alan uzaqgörən siyasətin nəticəsidir. Dövlətimizin başçısının təhlükəsizlik məsələlərinə xüsusi həssaslıqla yanaşması Azərbaycanın sabitlik adası kimi mövqeyini qorumasında mühüm rol oynayır. Əslində, son hadisələr bir daha sübut edir ki, təhlükəsizlik sahəsində atılan qabaqlayıcı addımların əhəmiyyəti yalnız zaman keçdikcə daha aydın görünür. Azərbaycanın quru sərhədlərinin bağlı saxlanılması da məhz belə qərarlardan biridir. Regionda gərginliyin artdığı, müxtəlif risklərin meydana çıxdığı bir dövrdə bu siyasətin ölkəmizin sabitliyinə və təhlükəsizliyinə mühüm töhfə verdiyi açıq şəkildə görünür. Bu baxımdan rəsmi Bakının seçdiyi xətt həm düşünülmüş, həm də milli maraqlara tam uyğun olan düzgün yanaşma kimi qiymətləndirilə bilər.

* * *

Ancaq hazırkı situasiyada respublikamız təkcə milli təhlükəsizliyini qorumur, həm də humanitar məsuliyyəti unutmayan dövlət kimi çıxış edir. Məhz buna görə də İran ətrafında yaranmış mürəkkəb vəziyyət fonunda rəsmi Bakı prinsipial mövqe nümayiş etdirərək, necə deyərlər, dara düşən insanların taleyinə biganə qalmadığını göstərir. Biz hazırda İranı tərk etməyə və vətənlərinə qayıtmağa yol tapmağa çalışan insanlar üçün də nicat qapısı açmışıq. Qapımız dara düşənlərin üzünə açıqdır. Bu yanaşma Azərbaycanın həm məsuliyyətli dövlət, həm də humanitar dəyərlərə sadiq ölkə olduğunu göstərir. Bu gün İranı tərk edənlər üçün qurtuluş və xilasın əsas qapılarından biri məhz Azərbaycandır. Çünki ölkəmiz regionda sabitliyin qorunduğu nadir məkanlardan biridir. Müxtəlif ölkələrin vətəndaşları çətin vəziyyətdən çıxmaq üçün təhlükəsiz marşrut axtararkən Azərbaycan məhz belə bir imkan təqdim edir. Bu isə təkcə coğrafi üstünlük deyil. Bu, həm də dövlətin siyasi iradəsi və humanitar yanaşmasının nəticəsidir.

Xoşməramlı jestini nümayiş etdirən rəsmi Bakı üçün ərazimizə daxil olan insanların hansı ölkənin vətəndaşı olması əsas məsələ deyil. Azərbaycan bu məsələyə milli və ya siyasi ayrı-seçkilik prizmasından yanaşmır. Ərazimizə daxil olanın Rusiya, Belarus, Almaniya, Çin və ya Fransa vətəndaşı olması fərq etmir. Əsas olan odur ki, həmin insanlar çətin vəziyyətdədir və öz vətənlərinə qayıtmaq üçün təhlükəsiz yol axtarırlar. Azərbaycan isə bu prosesdə etibarlı keçid məkanı kimi çıxış edir.

Diqqətçəkən məqamlardan biri də odur ki, hətta münasibətlərimizin isti olmadığı bəzi ölkələrin vətəndaşları belə Azərbaycan ərazisindən maneəsiz şəkildə vətənlərinə yola salınırlar. Bu fakt rəsmi Bakının məsələyə hansı prizmadan yanaşdığını açıq şəkildə göstərir. Çətin vəziyyətə düşən insanlara yardım göstərmək siyasi münasibətlərdən üstün tutulur. Bu isə dövlət siyasətində humanizm amilinin mühüm yer tutduğunu nümayiş etdirir.

Belə yanaşma beynəlxalq aləmdə də diqqətlə izlənilir. Çünki müasir dünyada dövlətlərin nüfuzu yalnız siyasi və ya iqtisadi güclə ölçülmür. Humanitar məsuliyyət, böhran vəziyyətlərində nümayiş etdirilən davranış da ölkələrin imicinə ciddi təsir göstərir. Azərbaycan bu məsələdə özünü məsuliyyətli və etibarlı tərəfdaş kimi təqdim edir. Təsadüfi deyil ki, fevralın 28-dən başlayaraq bir sıra yaxın-uzaq ölkələrin xarici işlər nazirlərinin Azərbaycan xarici siyasət idarəsinin başçısı ilə apardıqları telefon danışığında xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın oynadığı əhəmiyyətli rol təqdir olunub. Müxtəlif ölkələrin XİN başçıları İranda olan vətəndaşlarının Azərbaycan Respublikasının ərazisindən tranzit keçidinə yaradılmış şəraitə görə Azərbaycan tərəfinə təşəkkürlərini ifadə edib, göstərilmiş operativ və humanitar dəstəyin yüksək qiymətləndirildiyini bildiriblər.

Bütün bunlar göstərir ki, Azərbaycanın siyasəti yalnız təhlükəsizlik tədbirləri ilə məhdudlaşmır. Dövlət həm öz təhlükəsizliyini qoruyur, həm də humanitar məsuliyyəti nəzərə alır. Dara düşən insanların üzünə qapı açmaq, onların təhlükəsiz şəkildə vətənlərinə qayıtmasına şərait yaratmaq məhz belə yanaşmanın təzahürüdür. Nəticə etibarilə, İranı tərk edən insanlar üçün Azərbaycanın qurtuluş və xilas qapısına çevrilməsi təsadüfi deyil. Bu, rəsmi Bakının nümayiş etdirdiyi xoşməramlı siyasətin və humanitar dəyərlərə sadiqliyin real göstəricisidir. Regionda gərginliyin artdığı bir vaxtda belə addımlar həm insan həyatının qorunmasına xidmət edir, həm də Azərbaycanın məsuliyyətli dövlət kimi mövqeyini daha da gücləndirir.

***Səxavət HƏMİD***
***XQ***

# Strateji dalan

*(əvvəli 6-cı səhifədə)*

Bu səbəbdən Hindistandan Ermənistana hərbi yüklərin daşınmasında İran ərazisi əsas logistika xətti kimi formalaşıb. Bu marşrut Hindistanın cənub-şərqində yerləşən və İranın mühüm dəniz qapılarından biri hesab olunan Çabahar limanı üzərindən başlayır. Hindistandan göndərilən yüklər əvvəlcə bu limana çatdırılır, daha sonra isə İran ərazisi boyunca quru nəqliyyatı vasitəsilə Ermənistana daşınır.

Qeyd edək ki, Çabahar limanı Hindistan üçün strateji əhəmiyyətə malik layihələrdən biridir. Bu liman Dehliyə Pakistan ərazisindən yan keçərək Orta Asiya və Cənubi Qafqaz regionlarına çıxış imkanı verir. Eyni zamanda, Hindistanın regiondakı iqtisadi və geosiyasi təsirini artırmaq planlarının əsas elementlərindən biridir. Ermənistan üçün isə bu liman Hindistandan gələn hərbi texnika və digər strateji yüklərin çatdırılmasında, faktiki olaraq, "qapı" rolunu oynayırdı.

Lakin 2026-cı ilin fevral-mart aylarında Yaxın Şərqdə artan hərbi gərginlik bu logistika modelini ciddi şəkildə sarsıdıb. ABŞ və İsrailin İranın hərbi və strateji infrastrukturlarına endirdiyi zərbələr regiondakı nəqliyyat və logistika təhlükəsizliyini böyük risk altına salıb. Bu zərbələr nəticəsində İranın bəzi liman və hərbi obyektləri, o cümlədən Çabahar limanı yaxınlığındakı infrastrukturlar potensial təhlükə zonasına düşüb. Regionun hərbi qarşıdurma zonasına çevrilməsi dəniz nəqliyyatının sığorta xərclərini kəskin şəkildə artırıb və bir sıra marşrutların, faktiki olaraq, iflic olmasına səbəb olub.



Eyni zamanda, Hindistanın 2026-cı il büdcəsində Çabahar layihəsinə vəsait ayırmaması Yeni Dehlinin regiondakı riskləri nəzərə alaraq daha ehtiyatlı siyasət yürütməyə başladığını göstərir. ABŞ tərəfindən İranla bağlı sanksiyalar da bu layihənin gələcəyini qeyri-müəyyən hala gətirib. Bununla da Ermənistanın Hindistandan aldığı silahların əsas daşınma xətti ciddi problemlərlə üzləşib və faktiki olaraq "logistik blokada" vəziyyəti yaranıb.

Alternativ variantlar isə kifayət qədər məhduddur. Hava yolu ilə ağır hərbi texnikanın daşınması həm iqtisadi baxımdan çox baha başa gəlir, həm də texniki baxımdan bütün silah sistemlərinin daşınmasına imkan vermir. Digər mümkün marşrutlar isə ya siyasi səbəblərdən bağlıdır, ya da regiondakı təhlükəsizlik vəziyyəti səbəbindən risklidir. Bu vəziyyət imzalanmış milyardlarla dollarlıq müqavilələrin icrasının ləngiməsinə və bəzi hallarda qeyri-müəyyən müddətə təxirə salınmasına səbəb olur.

Belə bir şəraitdə Ermənistanın Hindistanla hərbi əməkdaşlıq strategiyası ciddi logistika problemləri ilə üzləşib. İrəvanın bu əməkdaşlıq vasitəsilə regionda yeni hərbi balans yaratmaq cəhdləri qlobal geosiyasi proseslərin təsiri altına düşüb. İran ətrafında artan hərbi gərginlik və Yaxın Şərqdəki eskalasiya faktiki olaraq Ermənistanın silahlanma planlarının həyata keçirilməsini çətinləşdirib.

**İqtisadçı-ekspert Mahir Zeynalov** XQ-yə bildirdi ki, bu logistik tıxanıqlıq Ermənistanın müdafiə büdcəsini səmərəsiz hala gətirir: "Bu, ödənişi edilmiş ağır texnikaların "dondurulmuş aktivə" çevrilməsi və ya bahalı hava yolları ilə daşınma məcburi tərəfdaşlığı iqtisadi cəhətdən sarsıdır.

Hindistan silahlarının çatdırılmasında yaranan bu logistik böhran isə Ermənistanı hərbi güclənmə illüziyasından uzaqlaşdıran mühüm amildir. Müdafiə xərclərinin səmərəsizliyi və "ölü sərmayəyə" çevrilməsi İrəvanı çətin seçim qarşısında qoyur. Ya hərbi büdcə xərclərini indiki logistika problemi şəraitində davam etdirib maliyyə böhranına sürüklənmək, ya da Azərbaycanın sülh şərtlərinə və regional kommunikasiyaların (Zəngəzur dəhlizi) açılmasına razı olaraq iqtisadi dividend axtarışına çıxmaq. Bu reallıq Azərbaycanın regionda sülh şərtlərini diktə edən tərəf kimi mövqeyini daha da möhkəmləndirir".

Azərbaycanın milli maraqları baxımından bu vəziyyət regionda hərbi balansın sabit qalması üçün müəyyən strateji imkanlar yaradır. Ermənistanın İran üzərindən keçən hərbi tədarük xəttinin risk altına düşməsi onun sürətli silahlanma imkanlarını məhdudlaşdırır və revanşist siyasətin reallaşma ehtimalını azaldır. Bu isə regionda hərbi sabitliyin qorunması baxımından mühüm amildir.

Digər tərəfdən, indi yaranmış vəziyyət regionda logistika və nəqliyyat marşrutlarının təhlükəsizliyi məsələsi daha da aktuallaşır. Bu kontekstdə Azərbaycanın iştirak etdiyi beynəlxalq nəqliyyat layihələri, xüsusilə Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi yeni geosiyasi əhəmiyyət qazanır. Azərbaycanın quru nəqliyyat infrastrukturu hazırda Rusiya, həmçinin digər region ölkələri üçün ən stabil və təhlükəsiz marşrutlardan biridir. Bu isə Bakının regionda strateji tranzit mərkəzi kimi rolunu daha da gücləndirir.



**Politoloq İlqar Hüseynli** hesab edir ki, hərbi büdcənin səmərəsizliyi, ilk növbədə, alternativ daşıma xərclərinin kəskin artması ilə bağlıdır: "İranın quru yolları və Çabahar limanı sıradan çıxdıqda və ya riskli zonaya çevrildikdə, Ermənistan yeganə çıxış yolu kimi hava körpüsü marşrutuna əl atmaq məcburiyyətində qalır. Lakin ağır texnikanın, xüsusilə iriçaplı artilleriya və raket sistemlərinin karqo təyyarələri ilə daşınması dəniz və quru nəqliyyatından dəfələrlə baha başa gəlir. Bu, onsuz da məhdud olan Ermənistan hərbi büdcəsinin əhəmiyyətli hissəsinin silaha deyil, sadəcə, onun çatdırılmasına sərf edilməsi deməkdir.

Digər tərəfdən, logistik ləngimələr müdafiə planlamasının pozulmasına gətirib çıxarır. Alınan texnikalar vaxtında anbarlara və hərbi hissələrə çatmadıqda, şəxsi heyətin təlimi və yeni sistemlərin inteqrasiyası qeyri-müəyyən müddətə təxirə düşür. Bununla da ödənişi edilmiş hər bir texnika vahidi Ermənistan üçün ölü sərmayəyə çevrilir. Bu da Azərbaycanın regionda qoruyub saxladığı hərbi üstünlük qarşısında Ermənistanın "silahlanma yarışı" iddialarını maliyyə baxımından səmərəsiz və mənasız edir".

Beləliklə, Hindistan–Ermənistan hərbi əməkdaşlığı Cənubi Qafqazda yeni geosiyasi dinamikanın formalaşmasına yönəlmiş bir layihə olsa da, onun real həyata keçirilməsi böyük ölçüdə regional və qlobal geosiyasi proseslərdən asılıdır. İran ətrafında yaranan hərbi gərginlik və Çabahar limanı ətrafında formalaşan risklər bu əməkdaşlığın logistika əsaslarını zəiflədir. Nəticədə, Ermənistanın Hindistan silahları vasitəsilə hərbi potensialını sürətlə artırmaq planı hazırkı mərhələdə ciddi çətinliklərlə üzləşir və bu vəziyyət Cənubi Qafqazda mövcud hərbi-siyasi balansın Azərbaycanın xeyrinə qorunub saxlanmasına şərait yaradır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Avropa İttifaqı Gürcüstan rəhbərliyini niyə tanımaq istəmir?

*(əvvəli 1-ci səhifədə)*

Brüsselin Gürcüstanın hazırkı hakimiyyətini tərəfdaş kimi tanımaqdan imtina etməsi və Tbilisinin buna kəskin "antikolonial" ritorika ilə cavab verməsi qarşıdurmanı daha da dərinləşdirib. Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin bəyanatları açıq şəkildə nümayiş etdirir ki, Brüssel "Gürcü arzusu" administrasiyasını artıq demokratik tərəfdaş kimi qəbul etmir. Bu yeni yanaşma rəsmi hökuməti bypass edərək birbaşa müxalifətə ünvanlanan məktublarda, seçki proseslərinə müdaxilə ittihamlarında və vizasız rejimin tamamilə ləğvi ilə bağlı səsləndirilən hədələrdə özünü qabarıq büruzə verir.



Diplomatik təzyiqlər isə artıq bəyanat müstəvisindən praktiki müstəviyə keçib. Diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejimin məhdudlaşdırılması Brüsselin Gürcüstan siyasi elitasına ünvanladığı "arzuolunmaz tərəf" (persona non grata) mesajıdır. Avropa qurumlarının nəzərində Gürcüstan iqtidarı Qərb yolundan uzaqlaşmış, Rusiyaya yaxınlaşmış və daxildə demokratik təsisatları zəifləmiş bir qüvvə kimi xarakterizə olunur. Xüsusilə "Xarici təsirin şəffaflığı" haqqında qanunun qəbulu Qərb tərəfindən vətəndaş cəmiyyətini susdurmaq cəhdi kimi dəyərləndirilir ki, bu da münasibətlərdəki sonuncu etimad körpülərini də sarsıdıb.

Rəsmi Tbilisi isə Brüsselin bu təzyiqinə passiv müdafiə ilə deyil, kəskin ideoloji hücumla cavab verir. Gürcüstan hakimiyyəti Aİ mövqeyini "təzyiq, şantaj və müstəmləkəçilik təfəkkürün" təzahürü kimi qiymətləndirir. Bu gərginliyin bariz nümunəsi olaraq, Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin Gürcüstan müxalifətinə ünvanladığı məktub göstərilir. Həmin sənəddə qeyd olunur ki, rəhbərlik mövcud problemləri həll etməzsə, vizasız rejimin dayandırılması bütün Gürcüstan vətəndaşlarına təsir edəcək. Fon der Lyayen həmçinin bildirib ki, Aİ-də sanksiyalarla bağlı vahid mövqe hələ formalaşmasa da, demokratiyadan geri çəkilməyə görə məsul şəxslərə qarşı fərdi tədbirlər artıq nəzərdən keçirilir.

Parlament sədri Şalva Papuaşvili qeyd edib ki, bu cür çıxışlar Brüsselin əsl niyyətini, hazırkı iqtidarı özlərinə tabe olan qüvvələrlə əvəzləmək istəyini üzə çıxarır: "Bu şantajın əsas mesajı belədir: Gürcü xalqı ya bizim iradəmizə tabe olub dediklərimizi etməli, ya da vizalar üçün yenidən səfirlik qapılarında növbə gözləməlidir". Papuaşvilinin fikrincə, Aİ xalqı "azadlıqla viza arasında" süni seçim qarşısında qoyaraq ölkənin daxili işlərinə kobud şəkildə müdaxilə edir. O, Brüsselin yanaşmasını "gəmi ilə gəlib yad tayfalara içki müqabilində qızıl tələb edən müstəmləkəçilərin" davranışına bənzədib.

Parlamentin sədri xüsusi olaraq vurğulayıb ki, Brüsselin hakim və prokuror təyinatı, yaxud eynicinsli nikahların qanuniləşdirilməsi kimi şərtlər diktə etməsi birbaşa milli suverenliyə qəsddir və gürcü xalqı viza imtiyazı naminə öz ləyaqətini qurban verməyəcək. Xarici işlər naziri Maka Boçorişvili də bu mövqeyi dəstəkləyərək bildirib ki, Aİ üzvlüyü bəziləri üçün sadəcə proseslərə təsir göstərmək üçün "təzyiq aləti"nə çevrilib. Nazirin sözlərinə görə, bu yanaşma Gürcüstanın Avropa inteqrasiyasına dəyərlər prizmasından baxan səmimi inamı ilə kəskin ziddiyyət təşkil edir.

Bununla bağlı **gürcüstanlı siyasətçi Vüqar İsayev** bildirdi ki, hakimiyyət vizasız rejimin məhdudlaşdırılması riskini sadəcə texniki problem kimi deyil, ölkənin müstəqil qərarvermə hüququna qarşı yönəlmiş birbaşa siyasi təzyiq kimi qiymətləndirir: "Bu şərçivədə Tbilisi, Brüsselin iqtisadi və viza hədələrini geosiyasi balans strategiyası ilə kompensasiya edir. Rusiya ilə ticarət dövriyyəsinin artırılması, Çinlə strateji tərəfdaşlığın dərinləşdirilməsi və "Orta Dəhliz" layihəsindəki mərkəzi rol Gürcüstanın iqtisadi gələcəyinin yalnız bir qütbdən asılı olmadığını nümayiş etdirir. Brüsselin yardımların dayandırılması hədələrinə qarşı isə iqtidar daxili istehsalın stimullaşdırılması və regional əməkdaşlıq vasitəsilə iqtisadi suverenlik modelini qətiyyətlə müdafiə edir".



Onun sözlərinə görə, gərginliyin geosiyasi kökündə həmçinin rəsmi Tbilisini Ukrayna müharibəsinin poliqonuna çevirmək və ölkədə "ikinci cəbhə" açmaq cəhdləri dayanır: "Gürcüstan rəhbərliyi milli təhlükəsizlik maraqlarını hər şeydən üstün tutaraq dağıdıcı sanksiyalara qoşulmur və regionda kövrək sabitliyi qoruyur. Brüsselin bu praqmatik kursu "xəyanət" kimi təqdim etməsi faktiki olaraq Gürcüstanın daxili işlərinə və təhlükəsizlik arxitekturasına birbaşa müdaxilədir. Müxalifətin bu vəziyyətdən istifadə edərək "fəlakət" ssenariləri yayması isə xarici donorların maraqlarına xidmət edən siyasi manipulyasiyadan başqa bir şey deyil.

Bununla belə, Aİ rəhbərliyinin tez-tez səsləndirdiyi tənqidi bəyanatlar cəmiyyətin əhəmiyyətli hissəsi tərəfindən açıq bir şantaj kimi qəbul edilir. Gürcüstanla "güc dilində" danışmaq əks-effekt verir. Avropa bürokratlarının gürcü mentallığını və milli kimliyini tam anlamaması cəmiyyətdə və elitalarda kəskin mənfi münasibət formalaşdırır ki, bu da gələcəkdə münasibətləri bərpa etməyi çətinləşdirir.

Vizasız rejimin dayandırılması vətəndaşlar üçün, xüsusən də Avropada növbəli üsulla çalışan və vətənlə əlaqəni kəsməyən minlərlə miqrant üçün sosial-iqtisadi çətinliklər yarada bilər. Lakin iqtidar bu təzyiqi "xarici iradəyə qarşı milli müqavimət" narrativi ilə daxili siyasi mobilizasiyaya çevirib. Brüsselin legitim hakimiyyəti tanımaqdan imtina etməsi Gürcüstanı öz suverenliyini qorumaq üçün daha sərt addımlar atmağa vadar edir. Ölkə artıq viza müqabilində müstəqil siyasətini qurban verməyən bir subyekt olduğunu dünyaya bəyan edib".

O, sonda qeyd etdi ki, münasibətlərin gələcəyi Brüsselin Cənubi Qafqazın geosiyasi reallıqlarını və Gürcüstanın suveren hüquqlarını nə dərəcədə qəbul etməsindən asılı olacaq: " Əks halda, Tbilisinin alternativ və daha praqmatik tərəfdaşlarla əməkdaşlığı regionda güc balansını milli maraqlara uyğun şəkildə yenidən formalaşdıracaq. Gürcüstan öz ləyaqətini qoruyaraq Avropa ilə bərabərhüquqlu dialoqa hazırdır, lakin bu dialoq şantaj və diktə dilində davam edə bilməz".

Beləliklə, Gürcüstan–Aİ münasibətləri hazırda prinsipial bir seçim mərhələsindədir. Bu münasibətlər təkcə diplomatik müstəvidə deyil, həm də Gürcüstanın gələcək inkişaf modeli, hüquqi dövlət quruculuğu və geosiyasi oriyentasiyası baxımından həlledici əhəmiyyət kəsb edir. Vizasız rejim ətrafında yaranan mübahisə, əslində, daha dərin bir problemin – tərəflər arasındakı ciddi etimad böhranının təzahürüdür. Bu böhranın aradan qaldırılıb-qaldırılmayacağı isə həm Tbilisinin nümayiş etdirəcəyi daxili siyasi iradədən, həm də Brüsselin nə dərəcədə balanslaşdırılmış və prinsipial mövqe sərgiləyəcəyindən asılı olacaq.

***P.ƏFƏNDİ***
***XQ***

# Azərbaycan "yaşıl" enerji nəql edən ölkəyə çevrilir

**Bakıda "Mərkəzi Asiya–Azərbaycan Yaşıl Enerji Dəhlizi" üzrə birinci inkişaf mərhələsinin Texniki-İqtisadi Əsaslandırma sənədinin müzakirəsinə həsr olunmuş ilk seminar keçirilib. Toplantı Xəzər regionu ölkələri arasında regional elektrik enerjisi şəbəkəsinin yaradılması imkanlarının araşdırılmasının birinci mərhələsinə hazırlıq baxımından əsas mərhələ olub.**

Energetika Nazirliyinin məlumatına əsasən, seminar Azərbaycan, Qazaxıstan və Özbəkistanın yüksək səviyyəli dövlət nümayəndələri, ötürücü sistem operatorları, tənzimləyici qurumlar, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı və digər maraqlı tərəflərin iştirakı ilə təşkil edilib.

Azərbaycanın energetika nazirinin müavini Orxan Zeynalov layihəni böyük perspektivə malik təşəbbüs kimi dəyərləndirərək dəhlizin Xəzər və Qara dəniz regionlarını birləşdirməklə Mərkəzi Asiyadan Avropa bazarlarına təmiz bərpaolunan enerjinin ötürülməsini təmin edəcəyini bildirib. Həmçinin layihəyə rəsmi qoşulmuş ölkələrlə yanaşı, digər regional tərəflərin də təşəbbüsdə iştirak etməyə ciddi maraq göstərdiyi qeyd olunub.

Qazaxıstanın energetika nazirinin müavini Sanjar Jarkeşov ölkəsinin əhəmiyyətli enerji potensialına malik olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, Qazaxıstan 2030-cu ilədək ümumi enerji istehsal gücünü 26 giqavata qədər artırmağı hədəfləyir ki, bunun da 30-35 faizinin bərpaolunan enerji mənbələrinin payına düşəcək. Nazir müavininin sözlərinə görə, Qazaxıstan zəngin enerji ehtiyatlarına malikdir və bu dəhliz vasitəsilə təmiz enerjini Avropa bazarlarına ixrac etmək niyyətindədir.

Özbəkistan Milli Elektrik Şəbəkəsi idarə heyəti sədrinin müavini Feruz Kurbonov da layihəyə böyük maraq göstərdiklərini ifadə edərək onu yüksək perspektivli təşəbbüs kimi qiymətləndirib. Özbəkistanın ölkə daxilində mühüm enerji infrastrukturlarına böyük həcmlərdə investisiyalar yatırdığını, 2030-cu ilədək regional şəbəkəyə qoşulmaq və Avropaya ixrac etmək üçün əlavə elektrik enerjisi gücləri əldə edəcəyi bildirilib.

Asiya İnkişaf Bankının Azərbaycan üzrə direktoru Sunniya Durani Camal isə layihənin regionda bağlantıların möhkəmlənməsinə dəstək verəcəyini söyləyib.

Seminarda "CESI S.p.A." şirkəti tərəfindən layihənin texniki-iqtisadi əsaslandırmasının ilk təqdimatı edilib. İlkin nəticələrin müsbət olduğu vurğulanaraq birinci mərhələ üzrə analitik çərçivə və növbəti addımlar barədə məlumat verilib.

Dəyirmi masa və ekspert potensialının artırılması üzrə təlim formatında təşkil olunan toplantı yüksək vəzifəli dövlət rəsmilərini, ötürücü sistem operatorlarını, enerji və telekommunikasiya tənzimləyicilərini, inkişaf tərəfdaşlarını və texniki ekspertləri bir araya gətirib. İştirakçılar birinci mərhələnin nəticələrini müzakirə edib, ilkin qənaətləri nəzərdən keçirib və texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına dəstək məqsədilə analitik yanaşmalar üzrə razılığa gəliblər. Eyni zamanda, bu mərhələ üzrə texniki iqtisadi əsaslandırma hesabatının tamamlanması və ikinci mərhələyə hazırlıq istiqamətində əsas texniki ehtimallar, data tələbləri və növbəti addımlar müəyyənləşdirilib.



Seminar çərçivəsində maraqlı tərəflər tələbatın modelləşdirilməsi, generasiya güclərinin planlaşdırılması, bərba olunan enerji resurslarının tətbiqi sssenariləri, şəbəkə infrastrukturunun tədqiqi və sistemlərarası birləşmə variantları, eləcə də sualtı kabel xətləri layihələri kimi istiqamətlərdə bilik və texniki bacarıqlarını artırıblar.

Qeyd edək ki, "Transxəzər Yaşıl Enerji Dəhlizi" layihəsi Xəzər regionunda bərpa olunan mənbələrdən əldə edilən elektrik enerjisinin mübadiləsinə töhfə vermək və Avropa enerji bazarlarına inteqrasiyaya yol açmaq məqsədi daşıyan regionlararası elektrik şəbəkələrinin birləşdirilməsi sisteminin formalaşdırılmasına yönəlib. Texniki-iqtisadi əsaslandırma sənədi 2025-ci il aprelin 4-də imzalanmış Anlaşma Memorandumuna əsaslanır. Həmin vaxt Azərbaycan, Qazaxıstan və Özbəkistan Asiya İnkişaf Bankının və Asiya İnfrastruktur İnkişaf Bankının dəstəyi ilə "Transxəzər Yaşıl Enerji Dəhlizi" təşəbbüsünün birinci mərhələsinin işə salınması barədə razılığa gəliblər.

Texniki-iqtisadi əsaslandırma sənədinin hazırlığına isə rəsmi olaraq 2026-cı ilin fevralında start verilib. "Mərkəzi Asiya–Azərbaycan Yaşıl Enerji Dəhlizi"nin texniki-iqtisadi əsaslandırması isə Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və CAREC Proqramı çərçivəsində layihə məsləhətçiləri ilə tərəfdaşlıq çərçivəsində hazırlanır.

Günəş enerjisi istehsalı sahəsində mühüm potensiala malik olan Azərbaycan, Qazaxıstan və Özbəkistanın birgə səyləri ilə formalaşdırılan "Mərkəzi Asiya – Azərbaycan" enerji dəhlizi gələcəkdə Xəzər–Qara dəniz marşrutu ilə əlaqələndirilə bilər. Bu da iki dəniz vasitəsilə Mərkəzi Asiyanın geniş ərazilərinin Avropa ilə əlaqəsini təmin etməyə imkan yaradacaq.

Layihənin əsas komponentlərinə isə Xəzər dənizinin dibi ilə kabel xəttinin çəkilməsi, eləcə də Xəzərətrafı ölkələrin enerji sistemlərinin inteqrasiyası daxildir. Məqsəd ixrac yönümlü bərpa olunan enerji vasitəsilə valyuta gəlirlərini artırmaq və Avropanın "yaşıl keçid" prosesinə töhfə verməkdir.

"Transxəzər Yaşıl Enerji Dəhlizi" Azərbaycan, Qazaxıstan və Özbəkistanın əməkdaşlığı ilə Orta Asiyada istehsal edilən bərpaolunan enerjinin (külək və günəş) Xəzər dənizinin dibi və Azərbaycan ərazisi vasitəsilə Avropaya ixracını nəzərdə tutan strateji layihədir. Bu layihə Orta Dəhlizin "yaşıl" körpü istiqamətində inkişafını və enerjinin şaxələndirilməsini hədəfləyir.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov ötən il iyunun 26-da Çinin Ninqbo şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının energetika nazirlərinin iclasının açılış mərasimində və "Sənaye innovasiyası dayanıqlı enerji inkişafının hərəkətverici qüvvəsidir" adlı forumda çıxışı zamanı bu məqama aydınlıq gətirmişdi. O qeyd etmişdi ki, "Azərbaycan, Qazaxıstan və Özbəkistanın birgə layihəsi olan "Transxəzər Yaşıl Enerji Dəhlizi" "Xəzər–Qara dəniz-Avropa" və "Azərbaycan–Türkiyə–Avropa" yaşıl enerji dəhlizləri və interkonnektorları ilə inteqrasiya edilməklə Asiya ilə Avropa arasında yerləşən Orta Dəhliz boyunca bərpaolunan enerjinin genişmiqyaslı və fasiləsiz ötürülməsinə imkan yaradacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti "Vergi sistemində gələcəyə baxış: yeni idarəetmə modeli və data əsaslı qərarlar" mövzusunda forum keçirib. Məclisdə ölkənin iqtisadi idarəetmə sistemində vergi siyasətinin rolu, rəqəmsal transformasiya və gələcək inkişaf prioritetləri müzakirə olunub.**

# Vergi sistemində rəqəmsal hədəflər

## *Ötən il büdcəyə 16,4 milyard manata yaxın vergi gəliri daxil olub*

Baş nazirin müavini Samir Şərifov çıxışında bildirib ki, müasir dövrdə iqtisadi qərarların qəbulu əvvəlki mərhələlərlə müqayisədə daha mürəkkəb xarakter daşıyır. Qlobal iqtisadiyyatda qeyri-müəyyənliklərin artması, geosiyasi risklər, enerji bazarlarında dəyişkənlik və maliyyə axınlarının transformasiyası dövlətlər qarşısında yeni çağırışlar yaradır. Bu şəraitdə əsas məqsəd qısamüddətli reaksiyalar vermək deyil, dayanıqlı iqtisadi idarəetmə modelini qorumaqdır.

Forumda iştirak edən iqtisadiyyat naziri Mikayıl Cabbarov isə son illərdə ölkə iqtisadiyyatında özəl sektorun rolunun əhəmiyyətli dərəcədə artdığını vurğulayıb. Nazir qeyd edib ki, 2019-cu ilin əvvəli ilə müqayisədə 2025-ci ildə qeyri-neft-qaz sektorunun özəl bölməsi üzrə əmək müqavilələrinin payı 38,5 faizdən 54,4 faizə yüksəlib. Bu sektorda əmək müqavilələrinin sayı 1,9 dəfə artaraq 1 milyonu keçib və dövlət sektorunun göstəricisini üstələyib. Qeyri-neft-qaz özəl sektorunun iqtisadiyyatda çəkisi sürətlə artır. Ötən il bu sahədən daxilolmalar sektor üzrə ümumi daxilolmaların 76 faizinə çatıb. 2021-2025-ci illərdə qeyri-neft-qaz sektorunda ÜDM-in orta illik 5,9 faizlik real artımı iqtisadi genişlənmənin əsas mənbələrindən biri olub.



Bu prosesdə özəl sektorun rolu xüsusi əhəmiyyət daşıyır və dövlət tərəfindən tətbiq olunan vergi və gömrük güzəştləri bu inkişafın mühüm stimullaşdırıcı alətlərindən sayılır. Nəticədə, ölkə iqtisadiyyatında struktur dəyişiklikləri dərinləşir, özəl sektorun vergi daxilolmalarında payı ardıcıl şəkildə artır. 2025-ci ildə qeyri-neft-qaz özəl sektoruna yönəlmiş əsas kapitala investisiyalar 11,1 faiz, xarici mənbələr hesabına yatırımlar isə 24 faiz artıb.

Qeyri-neft-qaz sənayesində investisiya artımı 26 faizə yaxın olub. 2021-2025-ci illərdə bu sahədə əlavə dəyər orta hesabla hər il 8 faiz yüksəlib və nəticədə, qeyri-neft-qaz sektorunun ÜDM-də payı 2018-ci ildəki 58,3 faizdən 2025-ci ildə 71,5 faizə çatıb.

Bununla yanaşı, Azərbaycanda süni intellekt texnologiyalarının tətbiqini təşviq edən vergi stimullarının genişləndirilməsi prioritet istiqamətlərdən biri olması da vurğulanıb. Qeyd edilib ki, bu addımlar yüksək texnologiyalara əsaslanan iqtisadi modelə keçidi sürətləndirməyə xidmət edir. Artıq ölkədə superkompüter mərkəzi fəaliyyət göstərir, rəqəmsallaşma sahəsində mühüm layihələr həyata keçirilir və insan kapitalının inkişafına xüsusi diqqət ayrılır. Bu məqsədlə İKT sektoru, startap ekosistemi və yüksəkixtisaslı mütəxəssislər üçün daha çevik və rəqabətqabiliyyətli vergi mühitinin formalaşdırılması nəzərdə tutulur.

Ölkədə makroiqtisadi sabitliyin qorunması və əlverişli biznes mühitinin yaradılması investorlar üçün uzunmüddətli etimad mühiti formalaşdırır. Azərbaycanın strateji coğrafi mövqeyi, geniş nəqliyyat-logistika imkanları, iqtisadi zonalarda yaradılmış müasir infrastruktur, vergi və gömrük güzəştləri, eləcə də dövlət-özəl tərəfdaşlığı mexanizmləri sərmayədarlar üçün geniş imkanlar açır. Qlobal tərəfdaşlarla yaradılmış birgə investisiya fondları isə yeni texnologiya və kapital axınının ölkəyə cəlb edilməsini gücləndirir. Bu müsbət iqtisadi dinamika fonunda ölkənin suveren kredit reytinqi də yüksəlib – Fitch Ratings və Moody's agentlikləri Azərbaycanın reytinqini investisiya səviyyəsinə qaldıraraq gələcək dövr üzrə proqnozu müvafiq olaraq "stabil" və "müsbət" kimi qiymətləndiriblər.

Forumda çıxış edən Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli isə bildirib ki, 2025-ci ildə qlobal siyasi və iqtisadi qeyri-müəyyənliklərə baxmayaraq, ölkə iqtisadiyyatı sabitlik və çevik uyğunlaşma qabiliyyəti nümayiş etdirib. Onun sözlərinə görə, ötən il dövlət büdcəsinə, təxminən, 16,4 milyard manat vergi daxil olub. Bunun 12 milyard manatdan çoxu qeyri-neft-qaz sektorunun payına düşüb.

Ümumilikdə, Dövlət Vergi Xidmətinin xətti ilə fiskal daxilolmaların həcmi 24,2 milyard manata yaxınlaşaraq ümumi fiskal yığımların 79,1 faizini təşkil edib. 2025-ci ildə vergi daxilolmaları proqnoza münasibətdə 105,5 faiz, qeyri-neft-qaz sektoru üzrə daxilolmalar isə 102,9 faiz səviyyəsində icra olunub.

Orxan Nəzərli vurğulayıb ki, ölkədə vergi sistemində aparılan islahatlar iqtisadi fəallığın artmasına da müsbət təsir göstərir. 2025-ci ildə vergi ödəyicilərinin sayı 6,5 faiz artaraq 860 minə yaxınlaşıb ki, bu da 2019-cu illə müqayisədə 73,2 faiz çoxdur. Könüllü əməletmə göstəricisi 92,6 faizə çatıb və son illərdə bu sahədə ciddi irəliləyiş qeydə alınıb.

Xidmət rəisinin sözlərinə görə, əldə olunan nəticələr yalnız inzibati nəzarətin gücləndirilməsi ilə bağlı deyil, həm də iqtisadi fəaliyyətin leqallaşdırılması və vergi ödəyiciləri ilə dövlət arasında qarşılıqlı etimadın artması ilə bağlıdır. Bu yanaşma "kölgə iqtisadiyyatı"nın miqyaslarının azalmasına və vergi sisteminin daha şəffaf və effektiv fəaliyyətinə şərait yaradır.

Azərbaycanda iqtisadi siyasətin formalaşdırılması qlobal proseslərin real təsirlərini nəzərə alan yanaşma üzərində qurulur. Məhz forum da vergi sisteminin müasir çağırışlara uyğun yenilənməsi, rəqəmsal həllərin tətbiqi və data əsaslı idarəetmə modelinin formalaşdırılması istiqamətində həyata keçirilən islahatların ölkənin iqtisadi dayanıqlığının möhkəmləndirilməsinə və daha rəqabətqabiliyyətli biznes mühitinin inkişafına xidmət etdiyini bir daha nümayiş etdirdi.

*NA BDALOV*
*XQ*

# "Milli proqram"da beynəlxalq təlimlər

**"4Sİ Akademiyası" çərçivəsində "Milli proqram" istifadəçiləri 98 mindən çox beynəlxalq təlimi uğurla başa vurublar. Artıq növbəti qrup istifadəçilər "Coursera" təhsil platformasında təlimlərə başlayıblar.**




İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun (TİF) birgə icra etdiyi "4Sİ Akademiyası" çərçivəsində "Milli proqram" istifadəçilərinin sayı 70 min nəfər olub. Növbəti 7,5 min vətəndaş 4 həftə müddətində "Coursera" onlayn təhsil platformasında rəqəmsal bacarıqlar, süni intellekt, data analitikası, proqramlaşdırma, biznes və digər prioritet sahələr üzrə beynəlxalq səviyyəli təlimlərdən yararlanmağa başlayıb.

2025-ci ilin aprel ayından start verilən "Milli proqram"ın icrası çərçivəsində istifadəçilər indiyədək "Coursera" platformasında 270 min təlimə qoşulub. Onlar 98 mindən çox təlimi uğurla tamamlayaraq beynəlxalq sertifikatlar əldə ediblər.

"Coursera" platformasında Oksford, Kembric, Stenford, Yel, Dyuk, London, Edinburq, Mançester, Miçiqan, Con Hopkins, İllinoys, Florida, Sidney, eləcə də "Microsoft", "Google", "Meta", IBM, "AWS", "Oracle", "Gitlab", "Intel", SAP, "Salesforce", "Siemens" kimi dünyanın 375-dən çox ən nüfuzlu universitet və aparıcı texnologiya şirkətlərinin 18 mindən çox sahəvi kurs və proqramı "Milli proqram" istifadəçiləri üçün əlçatandır.

İstifadəçi əlçatanlığının artırılması məqsədilə 2 min 500 kurs Azərbaycan dilində altyazı ilə tərcümə edilib, ən çox tələb olunan 15 təlim isə süni intellektlə dublyaj olunub. Eyni zamanda, "Coursera" platformasında "Milli proqram"ın interfeysi Azərbaycan dilində istifadəyə verilib.

Ölkənin bütün regionlarını əhatə edən proqram vasitəsilə iştirakçılar daha çox süni intellekt, data elmi, sənaye 4.0 texnologiyaları, layihələrin idarəedilməsi, analitik düşüncə, kibertəhlükəsizlik və kommunikasiya bacarıqlarının inkişafına yönəlmiş təlimlərdən faydalanırlar.

Hər bir Azərbaycan vətəndaşı https://form.4sim.gov.az saytı vasitəsilə qeydiyyatdan keçərək bu imkandan yararlana və qlobal əmək bazarında rəqabətqabiliyyətli bacarıqlar əldə edə bilər.

*XQ*

# Azərbaycan–İndoneziya enerji əməkdaşlığı

**Dünən energetika naziri Pərviz Şahbazovla İndoneziyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Berlian Helmi arasında görüş keçirilib.**




Söhbət zamanı Azərbaycanla İndoneziyanın enerji sahəsində əməkdaşlığının genişləndirilməsi imkanları müzakirə edilib. Bu aspektdə enerji təhlükəsizliyi, bərpaolunan enerji və dayanıqlı inkişaf, eləcə də enerji sektorunda biznes və investisiyaların təşviqi istiqamətlərində əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

Enerji təhlükəsizliyi çərçivəsində Azərbaycandan İndoneziyaya xam neft tədarükünün davam etdirilməsi, neft-qaz sahəsində birgə kəşfiyyat və hasilat layihələrində iştirak, həmçinin neft məhsulları və neft-qaz emalı sahələrində SOCAR və "Pertamina" şirkətləri arasında əməkdaşlıq əlaqələrinin inkişafına diqqət yetirilib. Hər iki ölkənin bərpaolunan enerji resurslarının inkişafı üçün mühüm potensiala malik olduğu vurğulanıb, külək və günəş enerjisi layihələri, tullantıdan enerji istehsalı texnologiyalarının tətbiqi, eləcə də biokütlə əsaslı enerji istehsalı üzrə əməkdaşlıq imkanları qeyd edilib.

Görüşdə enerji sektorunda dövlət qurumları ilə yanaşı, özəl sektorun da əməkdaşlıq prosesinə fəal şəkildə cəlb edilməsinin vacibliyi də vurğulanıb. Enerji sahəsində işçi qrupunun ilk iclasının yaxın vaxtlarda keçirilməsi razılaşdırılıb.

# Yaxın Şərq münaqişəsinin region ölkələrinə təsiri

**Yaxın Şərqdə hərbi vəziyyətin kəskinləşməsi fonunda dünya bazarlarında neft və qızıl qiymətlərinin artması Azərbaycan, Qazaxıstan və Özbəkistanın xarici balanslarına qısamüddətli dəstək verir. Bu böhran enerjidən asılı olan Ermənistana təzyiq yaradır. Bu barədə Niderlandın "ING Group" şirkətinin hesabatında bildirilir.**

"Barel üzrə neft qiymətlərinin hər 10 ABŞ dolları davamlı artımı Qazaxıstanın illik ixrac həcminə, təxminən, 6 milyard dollar, Azərbaycanın ixracına isə 3 milyard dollar əlavə edir ki, bu da müvafiq olaraq ÜDM-in 1,8 faizi və 4 faizi anlamına gəlir", – analitiklər qeyd edirlər.

Büdcə baxımdan neft qiymətlərinin eyni məbləğdə artması hər iki ölkəyə yanacaqdan, təxminən, 1,5 milyard dollar əlavə gəlir təmin edir ki, bu da Qazaxıstan ÜDM-nin 0,5 faizi və Azərbaycan ÜDM-nin 2 faizi həcmindədir.

Özbəkistan isə qızıl qiymətlərinin artımından faydalanır. "Qızılın hər unsiyasının qiymətinin 1000 ABŞ dolları artması ölkəyə, təxminən, 4 milyard dollar ixrac gəliri gətirir ki, bu da ÜDM-in 2,7faizinə bərabərdir", – ING ekspertləri izah edirlər.

Niderland şirkəti qeyd edir ki, MDB ölkələrinin münaqişə iştirakçıları ilə birbaşa ticarət əlaqələri məhduddur, lakin Aİ-dən idxaldan və inkişaf etmiş ölkələri, Türkiyəni, İranı və Körfəz dövlətlərini əhatə edən daha geniş təchizat zəncirlərindən asılılıq risk amili olaraq qalır.

*XQ*

# Azərbaycan sülh məramına sadiqdir

## *Bu dəfə Ermənistana 31 vaqon dizel yanacağı göndərilib*

**Azərbaycandan Ermənistana neft məhsulları və Rusiya istehsalı olan gübrələrin daşınması davam edir. Son aylar həyata keçirilən sülh missiyası regionda iqtisadi əlaqələrin tədricən bərpa olunması və Cənubi Qafqazda formalaşan yeni əməkdaşlıq mühitinin diqqətçəkən göstəricisidir.**



Məlumata görə, 1984 ton dizel yanacağı yüklənmiş 31 vaqon və 135 ton Rusiya gübrəsi daşıyan 2 vaqon "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb. Yüklər Gürcüstan ərazisi vasitəsilə tranzit keçərək Ermənistana göndərilib.

Qeyd olunduğu kimi, bu, son aylarda həyata keçirilən tədarüklərin növbəti mərhələsidir. Fevralın 25-də də Azərbaycandan Ermənistana 4500 ton dizel yanacağı daşıyan 39 çən vaqonu yola salınmışdı. Ondan əvvəl yanvarın 11-də 979 ton "Aİ-92" markalı avtomobil benzini yüklənmiş 18 vaqon Ermənistana göndərilmişdi. Yanvarın 9-da isə, ümumilikdə, 2698 ton neft məhsulu tədarük olunmuşdu. Həmin partiyaya 1742 ton "Aİ-95" markalı benzin və 956 ton dizel yanacağı daxil idi.

Qeyd edək ki, Ermənistana yanacaq ixracına 2025-ci il dekabrın 18-də start verilib. Həmin tarixdə bu ölkəyə 1220 ton "Aİ-95" markalı avtomobil benzini göndərilmişdi. Bu daşımalar Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin oktyabrında imzalanmış qərara əsasən həyata keçirilir. Sözügedən sənədlə işğal dövründən qüvvədə olan və Azərbaycandan Ermənistana yüklərin tranzitini məhdudlaşdıran qaydalar ləğv edilib, beləliklə, regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpası üçün hüquqi zəmin formalaşdırılıb.

Ekspertlərin fikrincə, bu addım Cənubi Qafqazda iqtisadi əlaqələrin genişlənməsi və qarşılıqlı asılılığın artması baxımından əhəmiyyətlidir. Azərbaycanın tranzit və logistika imkanlarından istifadə etməklə Ermənistana yanacaq və digər məhsulların çatdırılması regionda yeni iqtisadi dinamikanın formalaşdığını göstərir.

Ermənistan rəsmiləri də Azərbaycan yanacağının ölkə bazarında ciddi maraq doğurduğunu etiraf edirlər. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, Azərbaycan benzininin alınması Ermənistan vətəndaşları üçün iqtisadi baxımdan sərfəli hesab olunur. Onun sözlərinə görə, bəzi qruplar tərəfindən boykot çağırışları səslənsə də, real vəziyyət fərqlidir.

Nazir qeyd edib ki, yanacağa tələbat yüksəkdir və bir çox yanacaqdoldurma məntəqələrində vətəndaşlar növbəyə dayanırlar. A.Mirzoyan vurğulayıb ki, region ölkələri arasında iqtisadi əməkdaşlıq qaçılmazdır və bu proses qarşılıqlı fayda prinsipi əsasında inkişaf etməlidir. Onun fikrincə, Azərbaycan və Türkiyədən malların Ermənistan ərazisindən daşınması, eyni zamanda, Ermənistan məhsullarının həmin ölkələrin ərazilərindən tranzit keçməsi regional iqtisadi inteqrasiyanın mühüm elementidir.

A.Mirzoyan Azərbaycan yanacağının ucuz qiymətə satılmasının Ermənistanın daxili siyasətinə təsir göstərmək məqsədi daşıdığı barədə səsləndirilən iddiaları da təkzib edib. Nazir bildirib ki, bu cür iddialar əsassızdır və qiymətlərin sonradan kəskin şəkildə artırılacağı barədə deyilənlər reallığı əks etdirmir.

Azərbaycandan Ermənistana neft məhsullarının ixrac edilməsi Cənubi Qafqazda yeni geoiqtisadi reallığın formalaşdığını göstərir. Xüsusilə ötən ilin avqustunda ABŞ-da keçirilən Azərbaycan–Ermənistan görüşündən sonra regionda sülh bərqərar olub və Cənubi Qafqazın tarixində yeni səhifə açıb. Nəqliyyat və ticarət əlaqələrinin bərpası tərəflər arasında qarşılıqlı etimadın möhkəmlənməsinə və Cənubi Qafqazda sabitliyin güclənməsinə xidmət edən mühüm addımlardan biridir.

Bundan başqa, regionda nəqliyyat-kommunikasiya xətlərinin açılması da gündəmin əsas mövzularındandır və bu istiqamətdə işlər aparılır. Bu kontekstdə TRIPP layihəsi xüsusi diqqət çəkir. Layihə çərçivəsində Cənubi Qafqazda uzun müddət bağlı qalmış nəqliyyat marşrutlarının mərhələli şəkildə bərpası, dəmir yolu və avtomobil yollarının yenidən istifadəyə verilməsi nəzərdə tutulur.

Əsas məqsədlərdən biri region ölkələri arasında iqtisadi və logistika əlaqələrini genişləndirmək, eyni zamanda, Cənubi Qafqazı daha geniş beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya etməkdir. Bu çərçivədə dəmir yolu xətlərinin bərpası xüsusi əhəmiyyət daşıyır.

Layihə Azərbaycanın tranzit potensialına müsbət təsir göstərəcək. TRIPP Orta Dəhlizin mühüm seqmentlərindən biri olacaq. Bu halda, Azərbaycan öz yüklərini Ermənistan ərazisindən keçirməklə alternativ marşrutlardan istifadə edə biləcək. Bundan əlavə, layihə yalnız iki ölkə ilə məhdudlaşmır. TRIPP çərçivəsində üçüncü ölkələr arasında da yeni nəqliyyat əlaqələrinin formalaşması mümkündür. Bu isə regionun daha geniş Avrasiya nəqliyyat sisteminə inteqrasiyasına töhfə verə bilər.

Məlumata görə, TRIPP layihəsinin praktiki tətbiqinin 2026-cı ilin ikinci yarısından etibarən başlanması nəzərdə tutulur. Bu mərhələdə ilkin infrastruktur işlərinin görülməsi, logistika marşrutlarının müəyyənləşdirilməsi və tərəflər arasında texniki mexanizmlərin razılaşdırılması planlaşdırılır.

***Musa BAĞIRLI***
***XQ***

---

*ARAŞDIRMA*

# Tibbi sığorta mexanizmi "müalicə"yə möhtacdır

## *Xəstə ilə həkim arasında uzun məsafəni aşmaq o qədər də asan olmur*

**Azərbaycanda son illər həyata keçirilən sosial islahatlar sırasında səhiyyə sisteminin yenilənməsi xüsusi yer tutur. Bu islahatların ən mühüm istiqamətlərindən biri icbari tibbi sığorta modelinin tətbiqidir. Sözügedən mexanizmin əsas məqsədi əhalinin tibbi xidmətlərə əlçatanlığını artırmaq, səhiyyə xərclərinin daha səmərəli idarə olunmasını gerçəkləşdirmək və vətəndaşların maliyyə yükünü azaltmaqdır.**

İcbari tibbi sığortanın ölkə üzrə tətbiqi səhiyyə sistemində yeni idarəetmə və maliyyələşmə modelinin formalaşmasına gətirib çıxarıb. Bununla belə, sistemin geniş miqyasda fəaliyyətə başlaması bəzi struktur problemləri və praktiki çətinliklər də yaradıb. Mövcud vəziyyət isə icbari tibbi sığorta modelinin səmərəli işləməsi üçün təkcə hüquqi və maliyyə mexanizmlərinin yaradılmasının kifayət etmədiyini, həm də idarəetmə, infrastruktur və xidmət keyfiyyəti sahələrində kompleks yanaşmanın zəruriliyini qarşıya əsas vəzifə kimi qoyub.

**Tibbi sığorta eksperti Həsən Abbasovun** sözlərinə görə, icbari tibbi sığorta sistemi tətbiq edilməzdən əvvəl respublikada səhiyyə xidmətlərinin maliyyələşməsi, əsasən, dövlət büdcəsi hesabına həyata keçirilirdi. Bu model müəyyən sosial təminat yaratsa da, praktiki baxımdan bir sıra problemlər mövcud idi. Dövlət xəstəxanalarında maliyyə resurslarının qeyri-bərabər bölüşdürülməsi, xidmət keyfiyyətində fərqlər və qeyri-rəsmi ödənişlər kimi hallar vətəndaşların narazılığına səbəb olurdu.

İcbari tibbi sığorta modelinin tətbiqi ilə səhiyyə müəssisələrinin maliyyələşdirilməsi mexanizmi dəyişdi. Tibb müəssisələrində göstərilən xidmətlərin həcminə və keyfiyyətinə uyğun maliyyə vəsaitinin əldə edilməsinə başlandı. Bu yanaşma səhiyyə ocaqlarının tibb fəaliyyətinin daha səmərəli təşkilinə və ehtiyatlardan məqsədəuyğun istifadə olunmasına əlverişli imkan yaratdı. Eyni zamanda, vətəndaşların tibbi xidmətlərdən daha şəffaf, səmərəli mexanizm əsasında yararlanması qarşıya əsas məqsəd kimi qoyuldu. Xidmətlər icbari tibbi sığortanın təminat paketinə daxil olan tibbi prosedurlar üzrə həyata keçirildi və bu paket vətəndaşların hərtərəfli tibbi xidmətlərdən istifadəsini gerçəkləşdirdi.

Həsən Abbasov daha sonra bildirir ki, sistemin tətbiqi zamanı müəyyən müsbət nəticələr əldə olunsa da, praktiki müstəvidə bir sıra problemlər ciddi narahatlıq doğurdu. Ən çox müzakirə olunan məsələlərdən biri səhiyyə xidmətlərinin əlçatanlığı ilə bağlı oldu. Belə ki, bəzi regionlarda tibbi infrastrukturların yetərli səviyyədə olmaması, ixtisaslı həkimlərin çatışmaması və müasir tibbi avadanlıqların məhdudluğu vətəndaşların sığorta çərçivəsində nəzərdə tutulan xidmətlərdən tam istifadəni etməsini. Nəticədə, xəstələrin böyük hissəsi Bakı və digər iri şəhərlərdə yerləşən tibb müəssisələrinə üz tutmağa başladı. Bu isə paytaxt xəstəxanalarında yüklənmənin artmasına gətirib çıxardı.



Ötən müddət ərzində bu problemlərin aradan qaldırılmaması ilə bərabər, xidmətlərin təşkili ilə bağlı ciddi çətinliklər də özünü qabarıq büruzə verir. Bir sıra tibb müəssisələrində növbələrin uzunluğu, diaqnostik müayinələrə yazılma müddətinin uzanması və bəzi hallarda vətəndaşların prosedurlar barədə kifayət qədər məlumatlandırılmaması kimi hallar bunun bariz ifadəsidir. Mütəxəssislərin fikrincə, bu problemlərin aradan qaldırılması üçün ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Ailə həkimi institutunun zəif inkişaf etməsi, poliklinikaların fəaliyyətində səmərəliyin aşağı olması və xəstələrin düzgün istiqamətləndirilməməsi səhiyyə sistemində yüklənmənin artımına gətirib çıxarır.

İcbari sığorta prosesində tez-tez belə bir vəziyyət də yaranır: vətəndaş dövlət xəstəxanasında uzun növbələr, vaxt məhdudiyyəti və ya digər səbəblərdən dolayı diaqnostik müayinələri sığorta çərçivəsində gözləmək əvəzinə öz şəxsi vəsaiti hesabına özəl klinikada və ya başqa tibb müəssisəsində etdirir. Bununla da xəstəliyin diaqnozu təsdiqini tapır. Daha sonra isə vətəndaş əməliyyat və ya müalicənin icbari tibbi sığorta hesabına aparılmasını istəyir. Formal baxımdan sığorta sistemi üçün belə hallarda müəyyən prosedurlar mövcuddur. Çünki icbari tibbi sığorta modeli yalnız müalicənin deyil, diaqnostika və müalicə prosesinin bütöv zəncirini əhatə etməyi nəzərdə tutur. Yəni diaqnozun təsdiqi də sığorta sisteminin daxilində həyata keçirilməlidir.

Bu qaydanın tətbiqinə üstünlük verilməsi bir neçə amillə bağlıdır. Ən əsası isə bu, sistemin tibbi qərarların vahid standartlara uyğunluğunun gerçəkləşdirilməsi, saxta və ya qeyri-dəqiq diaqnozların qarşısının alınması ilə əlaqədardır. Bu səbəbdən bəzi hallarda xəstədən sığorta sisteminə daxil olan tibb müəssisəsində diaqnozun yenidən təsdiqlənməsi bildirilir. Lakin bu yanaşma müəyyən narazılıqlar doğurur. Çünki vətəndaş artıq öz vəsaiti hesabına diaqnostik müayinələrdən keçərək xəstəliyinin mövcudluğunu təsdiqləyir. Belə vəziyyətdə diaqnozun yenidən təsdiqlənməsi əlavə vaxt itkisinə səbəb olur, bəzən isə təkrar müayinələr tələb edilir, xəstəliyin ağırlaşma riski yüksəlir və vətəndaşın sistemə etimadı zəifləyir. Xüsusilə təcili və ya cərrahi müdaxilə tələb edən hallarda bu prosedur daha çox tənqid olunur.

### Əlçatanlığa yaradılan maneələr

İcbari tibbi sığorta sisteminin tətbiqi zamanı müzakirə olunan məsələlərdən biri də diaqnostik müayinələrin hansı çərçivədə aparılması və onların nəticələrinin qəbul olunması ilə bağlıdır. Praktikada tez-tez belə bir vəziyyət yaranır ki, vətəndaş müxtəlif səbəblərdən, məsələn, uzun növbələr, müayinə üçün vaxt məhdudiyyəti və ya daha operativ nəticə əldə etmək istəyi ilə tibbi analiz və müayinələri öz vəsaiti hesabına özəl tibb müəssisələrində gerçəkləşdirir. Bununla da xəstəliyin diaqnozu təsdiqini tapır və xəstə artıq cərrahi müdaxilə və ya digər müalicə üsullarına ehtiyac duyur.

Belə hallarda ortaya çıxan əsas suallardan biri ondan ibarətdir ki, xəstə öz hesabına bütün diaqnostik mərhələdən keçdiyi halda, təkcə əməliyyatın icbari tibbi sığorta hesabına aparılması nə dərəcədə məqsədəuyğundur. Mövcud qaydalara görə, sığorta sistemi diaqnostika və müalicə prosesini vahid tibbi xidmət zənciri kimi nəzərdə tutur. Yəni xəstəliyin diaqnostikası da, müalicəsi də sığorta paketinə daxil olan tibb müəssisələrində və müəyyənləşdirilmiş prosedurlar çərçivəsində həyata keçirilməlidir. Bu yanaşma tibbi qərarların vahid standartlara uyğun qəbulunu və sığorta fondunun maliyyə intizamının qorunmasını reallaşdırmaq məqsədi daşıyır.

Lakin real müstəvidə bu qayda müəyyən narazılıqlar yaradır. Çünki vətəndaş öz şəxsi vəsaiti hesabına müayinələrdən keçərək diaqnoz əldə etməsinə baxmayaraq, bəzi hallarda diaqnozun yenidən təsdiqlənməsi tələb olunur. Bu isə əlavə vaxt itkisinə, təkrar müayinələrə və bəzən xəstəliyin müalicəsinin gecikməsinə səbəb olur. Xüsusilə cərrahi müdaxilə tələb edən hallarda belə prosedurlar xəstələrin və onların yaxınlarının haqlı narazılığı ilə qarşılanır.

**Tibbi sığorta eksperti Adil Həsənəliyev** hesab edir ki, bu problemin həlli üçün daha çevik mexanizmlərin tətbiqi mümkündür. Məsələn, akkreditə olunmuş özəl laboratoriyaların və diaqnostika mərkəzlərinin nəticələrinin sığorta sistemi tərəfindən qəbul edilməsi, tibbi qərarların konsilium əsasında verilməsi və təkrar müayinələrin yalnız zəruri tibbi əsas olduqda aparılması daha səmərəli yanaşma hesab olunur. Bu cür yanaşma həm icbari tibbi sığorta sisteminin maliyyə dayanıqlığını qoruyur, həm də vətəndaşların əlavə bürokratik prosedurlarla üzləşməsinin qarşısını alır.

Beləliklə, diaqnostik müayinələrin nəticələrinin qarşılıqlı tanınması və tibbi qərarların daha çevik mexanizmlərlə qəbul edilməsi icbari tibbi sığorta sisteminin səmərəliyinin artırılması baxımından mühüm istiqamətlərdən biri kimi qiymətləndirilə bilər. Bu məsələ həm də vətəndaş məmnunluğunun yüksəldilməsi və səhiyyə xidmətlərinə etimadın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

### Əlavə xərclər, vaxt itkisi

İcbari tibbi sığorta sisteminin tətbiqi zamanı tez-tez müzakirə edilən məsələlərdən biri də bəzi diaqnostik müayinələr üzrə mövcud olan limitlər və göndəriş mexanizmi ilə bağlıdır. Sistemə görə, vətəndaşların əksər hallarda ixtisaslaşmış müayinələrə yönləndirilməsi ilkin səhiyyə müəssisələri və ya ailə həkimləri vasitəsilə həyata keçirilməlidir. Məqsəd tibbi xidmətlərin daha düzgün istiqamətləndirilməsi və xəstəxanalarda yüklənmənin qarşısının alınmasıdır.

Lakin real müstəvidə bu mexanizm hər zaman səmərəli işləmir. Bəzi hallarda xəstə müayinələrə göndəriş almaq üçün bir neçə dəfə tibb müəssisələrinə müraciət etməli olur, nəticədə, proses uzanır və vətəndaş öz hesabına özəl laboratoriyalara üz tutmağa məcbur qalır. Bu isə icbari tibbi sığortanın əsas məqsədlərindən biri olan tibbi xidmətlərin əlçatanlığının artırılması prinsipinə uyğun gəlmir.

İcbari tibbi sığorta sisteminin səmərəli işləməsi üçün ölkə üzrə səhiyyə infrastrukturu və kadr potensialının balanslı inkişafı xüsusi önəm daşıyır. Hazırda bəzi regionlarda ixtisaslı həkimlərin çatışmazlığı və müasir tibbi avadanlıqların məhdudluğu vətəndaşların sığorta çərçivəsində nəzərdə tutulan xidmətlərdən tam istifadə etməsinə mane olur.

Nəticədə, xəstələrin böyük hissəsi müayinə və müalicə üçün Bakı və digər iri şəhərlərə üz tutur. Bu isə bir tərəfdən paytaxtdakı xəstəxanalarda yüklənməni artırır, digər tərəfdən isə regionlarda yaşayan vətəndaşlar üçün əlavə maliyyə və vaxt itkisinə gətirib çıxarır. Ekspertlərin fikrincə, regional tibb mərkəzlərinin gücləndirilməsi, müasir avadanlıqlarla təminat və həkimlərin bölgələrə cəlb olunması bu problemin həllində əsas rol oynaya bilər.

Sistemin tətbiqi ilə bağlı vətəndaşların ən çox səsləndirdiyi problemlərdən biri də bəzi tibb müəssisələrində növbələrin uzun olmasıdır. Xüsusilə yüksək tələbat olan ixtisaslar üzrə müayinə və konsultasiya üçün vətəndaşlar bəzən bir neçə həftə gözləməli olurlar. Bu vəziyyət bir tərəfdən tibbi xidmətlərə tələbatın artması ilə izah olunsa da, digər tərəfdən səhiyyə xidmətlərinin planlaşdırılması və idarə olunması sahəsində əlavə tədbirlərin görülməsini zəruri edir. Elektron növbə sistemlərinin təkmilləşdirilməsi, xəstələrin düzgün istiqamətləndirilməsi və ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi bu problemin həllinə kömək edə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

---

*Ekspert rəyi*

**Ramil KƏRİMOV,**
**sığorta məsələləri üzrə ekspert**



İcbari tibbi sığorta sisteminin davamlı fəaliyyəti üçün maliyyə dayanıqlığının təmin olunması mühüm məsələlərdən biridir. Bu baxımdan sistemin maliyyələşdirilməsində dövlət büdcəsi, sığorta haqları və digər maliyyə mexanizmləri arasında ən yüksək nəticəni ifadə edən balansın qorunması vacibdir. Bu baxımdan Prezident İlham Əliyevin "Tibbi sığorta haqqında" qanuna edilən dəyişiklikləri təsdiqləməsi xüsusi əhəmiyyət kəsb edir. Sənədə əsasən, icbari tibbi sığorta çərçivəsində reallaşdırılması nəzərdə tutulan müştərək maliyyələşmə mexanizminin tətbiqi müddəti daha bir il uzadılır.

Müştərək maliyyələşmə sistemi bəzi tibbi xidmətlər üzrə xərclərin müəyyən hissəsinin vətəndaş tərəfindən ödənilməsini nəzərdə tutur. Lakin sistemin yeni formalaşdığı mərhələdə belə mexanizmlərin tətbiqi sosial həssaslıq baxımından diqqətli yanaşma tələb edir. Məhz buna görə müvafiq müddətin uzadılması vətəndaşların əlavə maliyyə yükü ilə üzləşməsinin qarşısını almaq və sistemin daha balanslı şəkildə formalaşmasına imkan yaratmaq məqsədi daşıyır. Bu qərar həm də göstərir ki, səhiyyə sahəsində həyata keçirilən islahatlar mərhələli şəkildə həyata keçirilir və sosial rifah amili əsas prioritetlərdən biri kimi nəzərə alınır.

Yeri gəlmişkən, könüllü və icbari sığortanın birləşdirilməsi təminat dairəsini genişləndirmək baxımından faydalı olar. İcbari sığorta zərflərində bəzi xəstəliklər nəzərdə tutulmayıb və təminata daxil deyil. Həmin risklərdən könüllü qaydada sığortalanmaq vacibdir. Hazırda planlaşdırılan birləşmə ilə demək olar ki, bütün könüllü sığorta növləri təminat siyahısına daxil ediləcək. Bunun nəticəsində vətəndaşlara daha geniş əhatəli tibbi xidmətlər təqdim olunacaq.

Onu da qeyd edim ki, bəzi klinikalar hələ də icbari sığorta ilə əməkdaşlıq etmir və daha çox könüllü sığorta paketləri ilə işləyirlər. Bu tibb müəssisələri iri şirkətlərlə əməkdaşlıq quraraq vətəndaşlara daha üstün və keyfiyyətli təminat paketləri təqdim edirlər. Birlikdə işlədikdə isə bu model bütün sığorta növlərinə aid təminatları əhatə edə bilər. Hazırda könüllü sığorta üzrə şirkətlərin təminat dairəsi və sığorta qaydaları Mərkəzi Bank tərəfindən tənzimlənir və şirkətlər bu təminatı həyata keçirmək üçün icazə almalıdır.

# Süni intellekt: rəqib, yoxsa tərəfdaş?

(əvvəli ötən sayımızda)

Dünya miqyasında IFAC nəzdində fəaliyyət göstərən Beynəlxalq Mühasibat Təhsili Paneli sabahın mühasib və auditorlarının hansı bilik və bacarıqlara ehtiyac duyacağını və süni intellektin öyrənmə prosesinin necə təkmilləşdirilməsini araşdırır.

Panelin nəticələri peşəkar qurumlar, o cümlədən IFAC-ın tamhüquqlu üzvü olan Auditorlar Palatası üçün yeni nəsil mütəxəssisləri cəlb etmək və onları düzgün hazırlamaq baxımından mühüm resurs olacaqdır. Bunu nəzərə alaraq Palata 2026-cı il 26 fevral tarixində Sertifikatlı Fırıldaqçılıq Müfəttişləri Assosiasiyası və Mühasibat Təhsili üzrə Beynəlxalq Panel tərəfindən təqdim olunan təlim və sertifikasiya proqramlarında Palatanın mütəxəssislərinin iştirak imkanları ilə bağlı şərtlər, qəbul tələbləri, proqramın məzmunu, tədris formatı, imtahan prosedurları, ödəniş şərtləri və mümkün institusional əməkdaşlıq mexanizmləri barədə ətraflı məlumatın təqdim olunmasını xahiş etmişdir.

Ölkəmizin süni intellekt Konsepsiyasında bir sıra önəmli işlərin görülməsi zəruri hesab edilmişdir. O cümlədən süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsi üzrə təlimlərin təşkili və keçirilməsi, müvafiq təlimçilərin hazırlanması və cəlb edilməsi, dövlət orqanlarının rəhbər heyəti üçün süni intellekt və data təliminin təşkil edilməsi, dövlət qulluqçuları və rəhbər şəxslər üçün süni intellekt və məlumatların idarə edilməsi üzrə təlimlərin keçirilməsi, universitetlərdə və digər təhsil müəssisələrində data elmi və maşın öyrənməsi üzrə ixtisaslaşmış proqramların yaradılması və mövcud proqramların təkmilləşdirilməsi nəzərdə tutulur.

Mühasiblər və auditorlar üçün davamlı öyrənmə çox vacibdir. Peşə sahəsindəki dəyişikliklər son 5 ildə əvvəki iki onilliklərdən daha sürətli baş vermişdir. Gələcək daha intensiv dəyişikliklər vəd edir, bu da davamlı təhsil və bacarıq inkişafına sadiqliyi tələb edir.

Mühasibatlıq və audit peşəsi əsaslı bir dönüş nöqtəsindədir. Keçmiş praktikaların uğuruna qarşı müxtəlif təhlükələr mövcuddur, amma eyni zamanda, mühasiblərin və auditorların kapital bazarlarında və geniş biznes mühitində daha təsirli rol oynayan imkanlar təqdim edir. Peşələrimizin gələcəyi bizim əlimizdədir və bu imkanlardan maksimum dərəcədə yararlanmaq bizim öhdəmizdədir.

Beynəlxalq təşkilatların verdikləri proqnozlar da onu göstərir ki, 2035-ci ildən etibarən mühasiblər və auditorlar sadəcə rəqəmləri analiz edənlər olmayacaqlar – onlar innovatorlar, strateqlər və iqtisadiyyatın gələcəyini formalaşdıran liderlər olacaq. Bu peşə texnologiyanı qəbul edən və maliyyə dünyasında müsbət dəyişikliklər aparanlar üçün dinamik, təsirli və mükafatlandırıcı bir karyera yolu təqdim edir. Gələcək mühasibatlıq məzunlarımız və mütəxəssislər üçün parlaq olacaq, amma bu, dəyişiklikləri qəbul etməyi və peşəni yenidən müəyyənləşdirməyi, eyni zamanda peşəmizin quruluşunu qorumağı tələb edəcək.

Hələlik isə mühasibatlıq və audit üzrə bacarıqlı kadrların çatışmazlığı əksər ölkələrdə, o cümlədən Azərbaycanda kəskin hiss olunmaqdadır. Xarici peşəkar qurumlar tərəfindən aparılmış sorğulardan aydın olmuşdur ki, 50 faiz respondent bacarıqlı kadr çatışmazlığını və bunun yüksək risk yaratdığını hesab edir. Təşviş doğuran haldır ki, bu göstərici 2024-2025-ci illər ərzində 7 faiz artmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərini nəzərə alaraq Azərbaycan Respublikası Auditorlar Palatasında rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə sədr müavini vəzifəsi yaradılmış, imtahan və ixtisasartırma proqramlarında rəqəmsallaşmaya və süni intellektin tətbiqinə daha geniş yer verilməsi nəzərdə tutulmuşdur.

## Maliyyə fırıldaqları və ƏL/TMM

Bütün dünyada maliyyə cinayətləri çox sürətlə inkişaf edir və maliyyə institutları və tənzimləyicilərdən, habelə maliyyə nəzarəti orqanlarından proaktiv (qabaqlayıcı) və əməkdaşlığa əsaslanan yanaşma tələb edir.

Qeyd etmək lazımdır ki, rəqəmsallaşma və süni intellektin tətbiqi bu bəşəri problemin həllində müsbət rol oynamaqla yanaşı, həm də ciddi çətinliklər və pozuntulara yol açan fırıldaqçılıq hallarının yenilənməsinə və yayılmasına da şərait yaradır. Bunlara misal olaraq zərərli proqram təminatını, məlumatların saxtalaşdırılmasını, mühasibatlıq sisteminə müdaxilə, bank ödənişlərinin yönləndirilməsini, kommersiya sirrinin oğurlanmasını, insanın səsinin, üzünün, video görüntüsünün saxtalaşdırılmasını, şirkətlərdə pul, məlumat və qərarların manipulyasiyası məqsədilə edilən dələduzluqları və s. göstərmək olar.

Məhz bu səbəblərin təsirilə maliyyə cinayəti baş verir, inkişaf edir, yayılır və çox ciddi maliyyə və nüfuz itkilərinə gətirib çıxarır. Lakin nəzərə alsaq ki, bu pozuntu və cinayətləri çox vaxt maliyyə və mühasibat kitablarına ən yaxın olanlar mühasiblər və auditorlar aşkar edə bilərlər, onda onların fəaliyyətinin maliyyə cinayətkarlığına qarşı müdafiənin birinci – ön xətti olması aydın olur. Başqa sözlə, mühasibatlıq və audit düzgün dəyərli tərəfdaş olaraq bu sahədə vacib rol oynaya bilərlər.

Ən təhlükəli hallardan biri də odur ki, maliyyə cinayətləri və fırıldaqçılıq müəllifləri süni intellektin üstünlüklərindən öz xeyirlərinə çox çevik istifadə etməyi də bacarırlar. Ekspertlərin rəyincə, maliyyə peşəkarları, o cümlədən də mühasibatlıq və audit texnologiyanın sürətli inkişafı ilə ənənəvi metodların üzləşdiyi bir dövrə uyğunlaşmalıdırlar.

Dünyanın bir sıra dövlətlərində maliyyə fırıldaqçılığı milli təhlükəsizlik təhdidi kimi tanınır. Mübarizə əsasən aşağıdakı cinayət təhdidinə qarşı aparılmalıdır:

**1.** Səlahiyyətli fırıldaqçılıq: Sosial media və texnologiya vasitəsilə həyata keçirilən fırıldaqçılıq sxemləri;

**2.** Sanksiyalar və ixrac nəzarətindən yayınma;



**3.** Qlobal maliyyə sisteminin parçalanmasına, maliyyə cinayətlərinin aşkar edilməsini və qarşısının alınmasını çətinləşdirən geosiyasi qütbləşmə və münaqişələr;

**4.** Süni intellektin cinayətkar istifadəsi;

**5.** Yeraltı bankçılıq və kölgə maliyyə sistemi.

Rəsmi bank sistemindən kənar Hawala şəbəkəsindən kripto əsaslı əməliyyatlara qədər yeraltı bankçılıq metodlarının tənzimləyici çərçivələri və hüquq – mühafizə imkanlarını üstələməsidir.

Bir neçə il bundan əvvəl (2023) 138 ölkədə baş vermiş fırıldaqçılıq arasında maliyyə hesabatı fırıldağı (maliyyə hesabatlarının məqsədli şəkildə hesabatı hazılayanların qanunsuz məqsədləri üçün manipulyasiyası) cəmi 5 faiz təşkil etsə də, belə hər bir hadisədə dəyən zərər (766 min dollar) digər fırıldaq növlərindən daha yüksək olmuşdur.

Süni intellektin ikili xarakteri və ondan istifadənin spesifik xüsusiyyətləri onun tətbiqinin etik standartlar əsasında həyata keçirilməsinin zəruriliyini ortaya qoyur.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TM) bir çox neqativ hallara və pozuntulara gətirib çıxarır ki, bunlara misal olaraq resursların iqtisadi inkişafdan yayındırılmasını, hüququn aliliyinin zəifləndirilməsini, şirkətlərin reputasiyasının zəifləməsini, bütövlükdə cəmiyyətin idarəetməyə etimadının aşınmasını və azaldılmasını və s. göstərmək olar.

Dünya təcrübəsi sübut edir ki, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı kəsərli mübarizə aparmadan iqtisadi islahatların həyata keçirilməsi və inkişafın sürətləndirilməsi mümkün olmur. İstər qanunsuz yollarla əldə edilmiş əmlakın leqallaşdırılması, istərsə də onunla sıx bağlı olan korrupsiya hər bir ölkənin iqtisadiyyatına böyük ziyan vurmaqla bərabər, əlverişli investisiya mühitinin formalaşmasına, xarici və daxili mənbələr hesabına investisiyaların cəlb edilməsinə, sahibkarlığın inkişafına ciddi əngəl törədir və ölkənin maliyyə bazarının dayanıqlılığını sarsıdır.

Sübut olunmuşdur ki, qanunsuz yollarla əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin mümkünlüyü maliyyə hesabatlılığının dürüstlüyündən birbaşa asılıdır. Başqa sözlə, bu sahədə mübarizədə maliyyə hesabatlarının düzgün tərtib edilməsi və onun obyektiv qiymətləndirilməsi, qanunsuz və şübhəli əməliyyatlara nəzarətin təmin edilməsi, maliyyə institutlarının fəaliyyətində zəruri şəffaflığın olması mühüm əhəmiyyət kəsb edir. Bu işdə isə heç şübhəsiz ki, auditin potensial rolu və əhəmiyyəti çox böyükdür. Beynəlxalq təcrübədə məhz müstəqil auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatlığının mövcudluğu qanunsuz yollarla əldə edilmiş əmlakın leqallaşdırılmasına və korrupsiyaya qarşı mübarizədə preventiv (qabaqlayıcı) xarakterli tədbir kimi dəyərləndirilir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev qanunsuz gəlirlərin qarşısının alınmasını ən prioritet məsələ kimi dəyərləndirməklə və eyni zamanda, bu sahədə möhkəm qətiyyət nümayiş etdirməklə şəffaflığın yüksəlməsi istiqamətində mübarizənin daha qətiyyətlə aparılmasının zəruriliyini dəfələrlə vurğulamışdır. Dünya ölkələrinin təcrübəsi göstərir ki, bu istiqamətdə mübarizə dövlət siyasəti olaraq davamlı hal alırsa, hökmən müsbət nəticələr əldə edilir. Ən önəmlisi isə bu mübarizədə ölkə rəhbərinin siyasi iradə nümayiş etdirməsidir.

Belə bir siyasi iradənin mövcudluğu Azərbaycan Prezidentinin müxtəlif illərdə imzaladığı və öz sistemliliyi ilə fərqlənən qanunvericilik aktlarının və Milli Fəaliyyət Planlarının mahiyyətində özünü bir daha bürüzə verir.

Əmlakın leqallaşdırılması probleminin dövlət qurumlarının fəaliyyətində olduğu kimi, özəl sektorda da təmin edilməsi çox zəruridir. Bu problemlərin həlli isə müxtəlif araşdırmaların və beynəlxalq təcrübənin tətbiqini ön plana çəkir.

Xüsusi vurğulamaq lazımdır ki, nəzərdə tutulmuş məsələlər inzibati yollardan daha çox, qabaqlayıcı tədbirlərin görülməsini məqsədəmüvafiq hesab edir.

Süni intellekt və maşın öyrənməsi (machine learning) texnologiyaları müasir çirkli pulların yuyulmasına qarşı mübarizə sistemlərinin əsas komponenti halına gəlmişdir. Çirkli pulların yuyulmasına qarşı mübarizə ənənəvi sistemləri mürəkkəb və sürətlə dəyişən maliyyə cinayətkarlığının mənzərəsinə cavab verməklə kifayət etmir. 2024-cü il statistikasına görə, dünyada maliyyə institutlarının 71 faizi artıq pul yuyulması, bank fırıldaqçılığı və digər qeyri-qanuni fəaliyyətlərlə mübarizə üçün süni intellekt və maşın öyrənməsi texnologiyalarından istifadə edir.

Süni intellekt maliyyə xidmətləri şirkətlərinin böyük həcmdə məlumatlardan istinadlar edərək əlaqələri görməyə, qənaətlər çıxarmağa və ssenarilər proqnozlaşdırmağa imkan verən statistik vasitələr məcmusudur.

Ənənəvi qayda əsaslı sistemlər əvvəlcədən proqramlaşdırılmış nümunələr, statistik qaydalar və hədlər üzərində işləyir, lakin yüksək false positive dərəcəsi (90-95 faiz) və məhdud adaptasiya qabiliyyəti ilə xarakterizə olunur. Süni intellekt əsaslı sistemlər isə dinamik nümunə aşkarlanması, öyrənmə və adaptasiya qabiliyyəti, false positive azalması (50-70 faizə qədər) və gizli və mürəkkəb əlaqələrin aşkarlanması imkanları təqdim edir.



**Vahid NOVRUZOV,**
***Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor***

## Məhkəmə auditi

Maliyyə fırıldaqçılığına qarşı mübarizədə beynəlxalq təcrübədən bəhrələnməyin rolu şübhəsizdir. Fikrimcə, müvafiq qurumlar və peşəkar mütəxəssislər "Məhkəmə Mühasibatlığı və Araşdırma Standartlarının" (FAIS № 330) öyrənilməsinə və tətbiqinə xüsusi fikir verməlidirlər.

Ona görə ki, fırıldaqçılığı törətmək üçün stimullar və təzyiqləri göstərən hadisələr və ya şəraitlərin (motive) və ya onu həyata keçirmək üçün imkan yaradan vəziyyətlərin (opportunity) mahiyyəti məhz bu standartda sistemli və peşəkar səlahiyyətə açıqlanmışdır.

Məhkəmə auditi - maliyyə və mühasibatlıq məlumatları ilə əlaqəli pozuntuları, fırıldaqçılığı, maliyyə sui-istifadələrini və ya digər qanunsuz hərəkətləri aşkar etməyə yönəlmiş xüsusi araşdırma prosesidir. Bu, sübutları tapmaq məqsədilə məlumatların toplanması, analizi və yoxlanmasını əhatə edir və bunlar məhkəmə proseslərində və ya digər hüquqi proseslərdə istifadə oluna bilər.

Məhkəmə mühasiblərinin və auditorların hazırlanması – maliyyə pozuntularını, fırıldaqçılığı və ya digər hüquq pozuntularını aşkar etmək məqsədilə audit yoxlamalarını həyata keçirə biləcək mütəxəssislərin hazırlanması vacib bir prosesdir. Məhkəmə mühasibləri və auditorları (və ya forensik auditorlar) maliyyə saxtakarlıqları, korporativ cinayətlər və ya mühasibat hesabatının pozulması ilə bağlı araşdırmalarda əsas rol oynayırlar. Onların vəzifəsi, məhkəmə işlərində istifadə oluna biləcək sübutlar toplamaqdır.

Məhkəmə mühasibləri və auditorları yüksək etik standartlara riayət etməlidirlər. Onlar müstəqil və obyektiv işləməli, xarici təzyiqlərdən asılı olmamalıdırlar və onların nəticələri etibarlı və güvənli olmalıdır. Araşdırmalar üzərində işləyərkən, onların məqsədi ədaləti qorumaq olmalı, hansısa tərəfi (məsələn, müştəri və ya şirkət) dəstəkləmək olmamalıdır.

Müasir texnologiyalar forensik auditdə mühüm rol oynayır. Auditorlar müxtəlif ixtisaslaşmış proqram təminatlarından və alətlərdən istifadə edə bilərlər:

• *Böyük verilənlərin təhlili. Böyük verilənlər bazarlarında olan əməliyyatlar və maliyyə qeydlərini sürətlə təhlil etmək üçün xüsusi proqramlar istifadə olunur.*

• *Fırıldaqçılığın aşkarlanması. Maşın öyrənmə və süni intellekt alqoritmləri istifadə edərək verilənlərdəki şübhəli nümunələri aşkar etmək.*

• *Rəqəmsal forensika. Kompüterlərdə və bulud saxlama sistemlərində olan faylların və digər rəqəmsal sübutların araşdırılması.*

FAİS yalnız maliyyə cinayətlərinin aşkarlanmasına deyil, həm də təşkilatın daxili nəzarət sistemlərini gücləndirməsi, riskləri idarə etmək və qanunvericiliyə uyğunluğu təmin etməkdə kömək edir.

## Kibertəhlükəsizlik

Bu ilin fevral ayındakı çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev göstərmişdir ki, "kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilmişdir. Bu sahə kritik sahələrdən biridir....Ona görə də bu sahəyə ciddi diqqət göstərilməlidir".

Məlumat məxfiliyi və təhlükəsizliyi, audit məqsədi ilə süni intellektdən istifadə zamanı əsas məsələlərdən biridir. Süni intellekt sistemləri çox vaxt düzgün işləmək üçün böyük həcmdə həssas maliyyə məlumatına çıxış tələb edir. Bu məlumatların icazəsiz daxilolma və mümkün pozuntuların qarşısını almaq üçün son dərəcə diqqətlə idarə edilməsi vacibdir. Təşkilatlar süni intellekt texnologiyalarının məlumatların qorunması qaydalarına uyğun olmasını və kifayət qədər təhlükəsizlik tədbirlərinə malik olmasını təmin etməlidirlər.

Bundan əlavə, süni intellektin tətbiqi məlumat sahibliyi və idarəçiliyi ilə bağlı məsələlər yaradır. Təşkilatlar Sİ tərəfindən yaradılmış məlumatlara kimin çıxışının olduğunu, bu məlumatların necə idarə olunduğunu və paylaşıldığını müəyyən edən aydın standartlar hazırlamalıdırlar. Süni intellekt alətlərinin təsadüfən həssas məlumatları açıqlamamasını və ya məlumat bütövlüyünü pozmamasını təmin etmək etibarın və uyğunluğun qorunması üçün vacibdir. Məhz bu baxımdan kibertəhlükəsizlik sahəsində qanunvericiliyin gücləndirilməsi günün vacib məsələlərindəndir.

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı maliyyə sektorunda yeni imkanlar yaratmaqla yanaşı, cinayətkarlar üçün də əlavə fürsətlər təqdim edir. Kibercinayətlər və məlumat təhlükəsizliyi məsələləri çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində çox mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan kibercinayətlərin növləri, məlumat təhlükəsizliyi prinsipləri, beynəlxalq və milli təcrübə, həmçinin bu sahədə audit və nəzarət mexanizmlərin araşdırılması zəruridir.

Kibercinayətlər maliyyə sistemində müxtəlif formalarda özünü göstərir və ƏL/TMM risklərini əhəmiyyətli dərəcədə artırır. Maliyyə fırıldaqçılığı kredit kartları ilə qanunsuz əməliyyatlar, onlayn bank hesablarına icazəsiz giriş, saxta ödəniş sistemləri və şəxsiyyət məlumatlarının oğurlanması formasında həyata keçirilir. Şifrələmə proqramı hücumları maliyyə institutlarının sistemlərinin bloklanması, fidyə pulunun kriptovalyuta ilə tələbi və məlumatların şifrələnərək satılması ilə xarakterizə olunur.

Kriptovalyuta cinayətləri qaranlıq veb bazarlarda qanunsuz əməliyyatlar, qarışdırma və dolaşdırma xidmətləri, mərkəzləşdirilməmiş maliyyə protokollarından sui-istifadə formasında baş verir. Daxili təhdidlər isə işçilər tərəfindən məlumat satışı, sistemlərə icazəsiz giriş və maliyyə məlumatlarının kənar şəxslərə verilməsi kimi hallarla özünü göstərir.

Əlavə olaraq, kibercinayət və ƏL/TMM riskləri yalnız birbaşa maliyyə institutlarının daxilində deyil, həm də xarici tərəflər vasitəsilə yarana bilər. Xüsusilə üçüncü tərəf və keçmiş əməkdaşlar potensial risk mənbəyi hesab olunur. Bu qrupun fəaliyyəti FATF və NIST sənədlərində ayrıca vurğulanır, müvafiq nəzarət və monitorinq tədbirlərinin tətbiqi tövsiyə olunur.

2023-cü il üzrə beynəlxalq rəqəmlər kibercinayətlərdən dünya iqtisadiyyatının zərərinin 10,5 trilyon dollar, maliyyə sektorunda kibercinayət hallarının 40 faiz artım, ransomware (fidyə proqramı) hücumlarının orta fidyə məbləğinin 850 min dollar və phishing (fişinq/aldatma) hücumlarının uğur dərəcəsinin 32 faiz təşkil etdiyini göstərir.

Mühasibatlıq və audit üçün kibertəhlükəsizlik çox vacibdir, çünki onlar tez-tez həssas maliyyə məlumatları ilə işləyirlər. Süni intellekt əsaslı kibertəhlükəsizlik həlləri, real vaxtda təhlükə aşkarlanmasını və qarşısının alınmasını təklif edərək maliyyə məlumatlarının qorunmasını gücləndirir. Bu həllər məlumat sızmaları, viruslar və digər kibertəhlükələr kimi təhdidlərə qarşı texnologiya sistemlərini, şəbəkələri və məlumatları qorumaq üçün hazırlanmış bir sıra alət və strategiyaları əhatə edir.

Tam yəqinliklə demək olar ki, son vaxtlar ölkəmizdə rəqəmsallaşmanın və süni intellektin tətbiqi, habelə kibercinayətkarlığa, habelə maliyyə fırıldaqlarına qarşı mübarizəyə rəvac verən sənədlərin qəbulu və həyata keçirilməsi ölkəmizin bu sahədə də yaxın vaxtlarda nəzərəçarpacaq uğurlar qazanmasına və beynəlxalq reytinqinin yüksəlməsinə zəmin yaradacaqdır.

## I Türkoloji Qurultay – 100

# Türk xalqlarının elmi-mədəni əməkdaşlığının tarixi özülü

**Elmin sosial təsisat kimi formalaşması XVII əsrin sonu, XVIII əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Avropada ilk elmi cəmiyyətlər və akademiyalar yaranmış, elmi jurnallar nəşrə başlamışdır. Məhz XIX əsrin sonu, XX əsrin əvvəllərində elmin təşkilatlanmasının yeni üsulu – irihəcmli elmi institutlar və güclü elmi-texniki bazaya malik elmi müəssisələr, laboratoriyalar yaranmışdır.**

XX əsr şanlı tariximizə elmi inqilabın qabiliyyət dövrü kimi daxil oldu. Məhz bu əsrin 90-cı illərində müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı dövlətçilik ənənələrini qoruyub saxlamaq naminə qətiyyətli addımlar atmış, soy-kökünü öyrənməyə, keçmiş mənəvi dəyərləri özünə qaytarmağa çalışmışdır.

Xalqımızın milli-mənəvi dirçəlişində və tərəqqisində müstəsna rol oynamış Azərbaycan elmi dünya elminin inkişafına mühüm töhfə vermişdir. Fazil Fəriddin Şirvanlı, Fəxri Şirvani, Nizami Gəncəvi, Xaqani, Məhəmməd Füzuli, Nəsirəddin Tusi, Əbülhəsən Bəhmənyar, Nəsimi, Hüseyn Xalxali, M.F.Axundov, A.A.Bakıxanov kimi dünya şöhrətli alimlərimiz tariximizdə silinməz izlər qoymuşlar. Əsrlər boyu yaratdıqları zəngin mədəni irsin içərisində ən alisi ana dilimizdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan türklərinin tarixi, əsasən mərkəzdən idarə olunan ənənəyə "sadiq qalaraq" öyrənilib. Sovetlər Birliyinin tərkibində olan dövlətlər öz xalqlarının tarixini doğru-düzgün yazmaqdan məhrum idilər.

"Təbii dərinləşmə" üsulundan istifadə etməklə türklərin mənşəyinin araşdırılması üçün həm tarixi bilgilərin, yazılı qaynaqların, arxeoloji tapıntıların, toponimikanın, həm də dilimizin şivələrinin, yəni tarixi filologiyanın paralel öyrənilməsi gərəkdir. Yaranış mövzularının öyrənilməsində tarix və dil araşdırmaları arxeoloji araşdırmalardan öndə durur. Tarixi qaynaqlarda olan tutarlı yazılar, zəngin toponomiya və dil bilikləri gərəksiz hesab edilərək öyrənilməyib. Halbuki dünya xalqları öz yaranışlarını məhz tarix və dil biliklərinə söykənərək təhlil edirlər. Elmdə qəbul olunan fikrə əsasən, xalqın yaranışının başlıca göstəricisi dilidir. Belə isə Azərbaycan türkləri, Anadolu türkləri və türkmənlər qaqauzlar ilə birlikdə Oğuz kökündən yaranıb, onların hər birinin dili təbii ayrılıqlara baxmayaraq, Oğuz dilidir. Sovet tarixçiləri bu meyarı Azərbaycan türklərinə aid etmirdilər. Onlar türk xalqı deyil, olsa-olsa "türkdilli", yəni Qafqaz – İber köklü albanların və İran köklü Güney Azərbaycan əhalisinin son 7 yüz ildə "türkləşmiş" törəməsi sayırdılar. Nə yazıq ki, biz sovet dönəmində bu uydurmaları təkzib etməkdən çəkinmişik, hətta bir çox tanınmış tarixçilər, dilçilər sovet tarixçilərinin yalnış bilgilərini təsdiq ediblər.

Bizim söz ehtiyatı fondumuzda qorunub mühafizə edilən ərəb, fars sözlərinin 60-65 faizi özümüzə məxsusdur. Bu bizim çox zəngin sərvətimizdir. Çünki qədim gil yazıları yazıldığı zaman bu dillərin daşıyıcıları yada belə düşmürdü. Bunlar təkzibedilməz tarixi faktlardır. Dədə-babalarımızın işlətdikləri dildə təhsil aldıqları zaman ərəblər, farslar, yəhudilər, ermənilər və dilləri digər bizə aid olan sözləri özlərinin istifadə arealına daxil etdikdən sonra onlara verilən imtiyazlı hakimiyyətdən yararlanaraq, bizi inandırmağa çalışıblar ki, bu sözləri bizə hədiyyə ediblər.

Yunan və yəhudi dillərində kifayət qədər qədim şumer sözlərinə rast gəlmək mümkündür və bu çox təbii haldır.

Azərbaycan türk dilinin qədimliyini Qobustanda, Qazaxda, Gədəbəydə, Naxçıvanda tapılan nikioqrafik yazılar, 720 qayaüstü şəkil və əyani təsvir sübut edir.

Mixutar Qoşa müraciət etsək, qədim Alban əlifbasının qarqar (qıpcaq) dili əsasında Beniamin tərəfindən tərtib edildiyinə şahid olarıq. Azərbaycan tarixçisi Qiyasəddin Qeybullayevin elmi araşdırmalarına əsaslanaraq söyləyə bilərik ki, alban tayfalarından olan qarqarlar türk idilər və onların dili qıpçaq-türk dili hesab edilir. Bunu Azərbaycan və digər türkdilli xalqların yazılı eposu "Kitabi – Dədə Qorqud" təkzibedilməz fakt kimi təsdiq edir.

Akademik Vladimir Vasilyeviç Bartold 1926-cı ildə İstanbul Universitetində oxuduğu mühazirələrdə Ptolemey "Coğafiya"-sından aşkar etdiyi "daiks" sözünü yaşı bəlli olan ilkin türk sözü sayırdı (Ptolemeydəki daiks, yoik – indiki Ural çayının adıdır). Zaman ötdükcə Bartoldun qeyd etdiklərindən daha çox "dərinlərdə" onlarca yeni türk sözləri elmə bəlli oldu. Çivil yazılarda tourki (türki), dinger (tengir, tenqri), ada, ama, eren, pelaskların dilində tepae (tepe), yunancada achu (acı) kimi türk sözləri üzə çıxdı. Bu sözlər yaşca Bartoldun aşkar etdiyi "daiks"dən ən azı 700 il, ən çoxu isə 3000 il qədimdir.

Türk xalqlarının yazısının 3 min illik tarixə malik olmasına baxmayaraq, bir neçə dəfə xalqın əlifbasında dəyişiklik olub. Dilimizin yazılı hissəsində yaşanan əsas çətinliklər hərflərin mürəkkəb təsviri və istifadəsi ilə bağlı idi.

Azərbaycan dilində rəsmi üç əlifba sistemi mövcuddur: Azərbaycanda latın, İranda ərəb və Dağıstanda kiril əlifbaları.

1922-ci ilə qədər Azərbaycanda türk dilləri ailəsinə aid əlavə işarələrlə birgə ərəb yazıları işlədilirdi. Azərbaycan mədəniyyət xadimlərinin qeydlərinə istinadən söyləyə bilərik ki, bu, çox çətin qrafik sistem təşkil edirdi. Hələ XVI əsrdə Məhəmməd Füzuli ərəb dilinin çətinliyi barədə öz fikrini söyləmişdi. Bu çətinliklərə baxmayaraq, Azərbaycanda 1929-cu ilədək ərəb əlifbası latın əlifbası ilə yanaşı işlənib. Türkdilli xalqların əksəriyyəti uzun müddət öz əsərlərini fars, ərəb, türk dillərində yazıblar və bu ənənə ədəbi dil üslubunun zənginləşməsinə xidmət edib. Azərbaycan xalqının görkəmli şəxsiyyətləri – Nəsimi, Füzuli üç dildə mükəmməl əsərlər yazıblar. M.Füzulinin ərəb, fars, türk dillərində yazdığı bənzərsiz sənət nümunələri dövrün ənənələrinə xas olaraq hər 3 dili yüksək səviyyədə bilməsinə sübutdur. Azərbaycan, Yaxın və Orta Şərq klassiklərinin müxtəlif dillərin qarışığından istifadə etməklə yazdıqları şeirlər təsadüfi deyil, tarixi coğrafi şəraitlə əlaqədardır. VII əsrdən sonra ərəb xilafətinin tərkibinə daxil olan ərazilərdə ərəb dilinin dövlət dili olması bir çox xalqların mədəniyyətini özündə birləşdirən ümummüsəlman mədəniyyətinin yaranmasına səbəb olub, islam bayrağı altında birləşən xalqlar üçün müştərək dünyagörüşünə əsaslanan ortaq ədəbi mövzular, janr formaları təşkil edib.



Azərbaycan türk dilinin yazılışında latın əlifbasının qəbul edilməsi təşəbbüsü ilk dəfə XIX əsrdə irəli sürülüb. Yeni əlifba görkəmli ictimai xadim, yazıçı, maarifçi, şair, filosof, Rusiya imperiyasının Coğrafiya Cəmiyyətinin üzvü, Azərbaycan dramaturgiyası və ədəbi tənqidinin banisi Mirzə Fətəli Axundov tərəfindən tərtib olunub.

O, 1857-ci ildə farsca yazdığı ərəb əlifbasının islahat layihəsində ərəb yazılarının çatışmazlıqlarını qeyd edərək həlli yollarını təklif edib. 1863-cü ildə öz layihəsinə dəstək almaq məqsədilə İstanbula səfər edib. Onun layihəsi "Ancuman – Danış" Elmi Cəmiyyəti tərəfindən rədd edilib. Buna cavab olaraq M.F.Axundov islam əlifbasından tamamilə imtina etməyi, Avropa yazı sistemi üzrə soldan sağa doğru yazmağı təklif edib. M.F.Axundov Avropa sisteminə əsaslanan 42 işarəli (32 samit və 10 sait hərfləri) layihə üzərində işləyib yeni əlifba tərtib edib. Yeni layihədə görkəmli ədib ərəb əlifbasının bütün hərflərini saxlayıb, orada yer almayan saitləri əlifbaya əlavə edib. İstanbuldan qayıtdıqdan sonra əlifba haqqında ikinci layihə tərtib edərək Tehrana göndərib. Lakin irticaçı İran hökuməti başda Nəsrəddin şah olmaqla bu layihəni qəbul etməyiblər. Əlifba məsələsi ilə bağlı üçüncü layihəni Türkiyə sədrəzəmi Ali paşaya göndərib. Bu layihədə Türkiyə alimi Suavinin İslam əlifbasının dəyişdirilməsinin lüzumsuzluğu haqqında məqaləsini kəskin tənqid edib. M.F.Axundov geniş xalq kütləsinin tez və asan yolla savadlanmaq üçün köhnə ərəb əlifbasının dəyişdirilməsi uğrunda ömrünün sonuna qədər mübarizə aparıb, Azərbaycan dilinin sadələşdirilməsi uğrunda çalışıb, dramatik əsərlərini çox sadə xalq danışıq dilində qələmə alıb. "Əlifba haqqında mənzumə" əsərini yazıb.

XX əsrin əvvəllərində latın əlifbasına keçid barədə bir neçə dəfə məsələ qaldırılıb. Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi, Nəriman Nərimanov və digər ədiblər ərəb əlifbasından latın əlifbasına keçidin zəruri olduğunu söyləyiblər. Nəhayət, 1919-cu ildə Azərbaycan Demokratik Respublikası Maarif Nazirliyinin nəzdində Yeni əlifbanın tədqiqi üzrə komissiya yaradılıb. A.Əfəndizadənin təqdim etdiyi nümunələrdən biri təsdiq olunaraq nəşr edilib.

Azərbaycan SSR elan edildikdən sonra latın əlifbasına keçid yenidən gündəmə gəlib. Uzun müzakirələrdən sonra yeni əlifba 1922-ci ildə təsdiq edilib, 1925-ci ildə isə ərəb əlifbası ilə yanaşı, rəsmi dil kimi istifadə olunub.

1924-cü ildə Moskvada şərqşünaslıq elmi cəmiyyəti nəzdində təsis edilən Türk yazılarında latın şrifti assosiasiyası yaradılıb və bu qurum ilk Ümumtürk Qurultayının keçirilməsinə zəmin yaradıb. Hazırlıq işləri zamanı 1924-cü il avqustun 2-də Azərbaycanda diyarşünaslıq üzrə Qurultayın əsasnaməsi qəbul edilib.

1924-cü il 21-24 sentyabr tarixlərində Azərbaycanda I Diyarşünaslıq Qurultayı 200 nümayəndənin iştirakı ilə ilk dəfə "Satir – Agit" (indiki Kukla teatrı) teatr binasında keçirilib. Qurultayda SSRİ MİK-nın sədri Nəriman Nərimanov, SSRİ Elmlər Akademiyasının elmi katibi, akademik Sergey Oldenburq, Ümumittifaq Şərqşünaslar Assosiasiyası və RSFSR-nin Diyarşünaslıq bürosunun, başda professor Aleksandr Samoyloviç olmaqla görkəmli alimləri, respublikanın elm və mədəniyyət xadimləri təmsil olunurdular.

Qurultayı Azərbaycan SSR MİK-nın sədri Səməd Ağamalıoğlu açıq elan etmişdi. S.Ağamalıoğlu, Q.Musayev, M.Quliyev və S.F.Oldenburq qurultayın fəxri sədrləri seçilmişdilər. H.Cəbiyev, professor Vladimir Pavloviç Smirnov-Loginov, Ə.Haqverdiyev, A.R.Zifeldt, D.Rəfibəyov, A.D.Pepinov qurultayın rəyasət heyətinin tərkibinə daxil edilmişlər. Ümumittifaq Şərqşünaslıq Assosiasiyasının və RSFSR-in Diyarşünaslıq bürosunun nümayəndəsi akademik A.N.Samoyloviç həm də "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin fəxri sədri seçilmişdi.

Qurultayda çıxış edən M.K.Qasımov "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin ilk olaraq Şərqdə yaradılmasının əhəmiyyətini vurğulayıb.

Qurultayın gündəliyində duran əsas məsələ Azərbaycan-türk dili ləhcələrinin elmi cəhətdən öyrənilməsi, bu dilin türk ləhcələri və akademik Marrın ən yeni yafetik dillər nəzəriyyəsi ilə əlaqəsinin müəyyənləşdirilməsi, Azərbaycan-türk milli xalq ləhcələri lüğətinin tərtib edilməsi olub.

Qurultayda türk xalqlarının tarixi, etnoqrafiyası, folklorunu öyrənən bölmələri əhatə edən türkoloji yarımseksiya yaradılıb. I Diyarşünaslıq Qurultayında türkoloji seksiyanın iclaslarında, Nəriman Nərimanovun məruzəsinin müzakirəsindən sonra türk mədəniyyətinin bir sıra elmi təcrübə məsələlərinin müzakirəsi məqsədilə Türkoloji Qurultayın çağırılmasının zəruriliyi barədə qətnamə təsdiq edilib.

Diyarşünaslıq Qurultayının qətnaməsində dərc olunun "Türkoloji Qurultay" məqaləsində Bəkir Çobanzadə türkoloji qurultayın zəruriliyi, bu ideyanın önəmindən danışıb.

Respublikada diyarşünaslıq sahəsinin təkmilləşmiş yeni metodlarla gerçəkləşməsinin elmi səciyyəvi zəruriliyi vurğulanmış və qərara alınmışdı ki, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" respublikada diyarşünaslığın araşdırılması üçün bütün imkanlardan yararlanaraq təşviqat aparacaq.

Azərbaycanda keçirilən diyarşünaslıq sahəsinə aid işlərin, hesabatların toplanması, eləcə də müxtəlif elmi əsərlərin, bülletenlərin nəşri "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin öhdəsinə verilmişdir.

Diyarşünaslıq Qurultayı 4 gün fəaliyyət göstərmiş, plenum və seksiyalarda 30-dan çox məruzə dinlənilmişdi. Qurultayın qərar və tövsiyələrində respublikada diyarşünaslıq sahəsində tədqiqata cəlb olunacaq vacib məsələlərin qoyuluşu çox əhəmiyyətli təkmil formada öz əksini tapmışdı.

Diyarşünaslıq Qurultayında Azərbaycanda I Türkoloji Qurultayın keçirilməsi qərara alınmışdı. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin əməkdaşları qurultayın keçirilməsi üçün hazırlıqlara başlamışdı.

Beləliklə, qurultay diyarşünaslığın inkişafına böyük təkan verdi, Azərbaycanın tədqiqi və öyrənilməsi dərnəkləri, Cəmiyyətin populyarlaşdırılması barədə əsasnamə qəbul edilmişdi. Əsasnamədə qeyd edildiyi kimi, Azərbaycanı tədqiq edən dərnəklərin əsas vəzifəsi əhali arasında milli diyarşünaslığın müxtəlif sahələri üzrə kadrların hazırlanması kimi əhəmiyyətli məsələləri həll etmək idi.

Respublikanın Xalq Maarif Komissarlığı hökumətinin qərarına əsasən, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin əməkdaşları (Səməd Ağa Ağamalıoğlu, Ruhulla Axundov, R.Cəbiyev, prof. Bəkir Çobanzadə, prof. N.İ.Aşmarin, V.Xuluflu və başqaları) əlifba komissiyası, ali təhsil müəssisələri və ictimai təşkilatlarla birgə fəaliyyətə başlamışlar.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" türkdilli xalqların istifadə etdiyi bütün əlifba sistemlərini, eləcə də əlifba islahatları barədə təkliflərini əyani sərgilər təşkil edərək geniş ictimaiyyət qarşısında nümayiş etdirmişlər. Sərginin rəhbəri tanınmış tarixçi, numizmat və arxeoloq Yevgeniy Aleksandroviç Paxomov idi.

Fəaliyyəti dövründə cəmiyyət çox işlər görmüş, xeyli inkişaf etmiş, üzvlərinin sayı artmışdı: B.V.Çobanzadə, X.Məmmədov, A.O.Musaxanlı, V.Əşim, İ.Hikmət, H.Seyidbəyli, Ə.Hüseynzadə, S.Nəşirvanova, A.Vəlixanlı, Ağamirzə Axundzadə, Ə.Yazidji, Əli Nazim Məmmədzadə, C.Sadıxov, H.Verdiyev və digərləri. Adları sadalanan görkəmli alimlər Cəmiyyətə üzv olduqdan sonra bölmənin işi xeyli genişləndi.

Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət Azərbaycan xalqının ədəbi irsinin, folklorunun öyrənilməsi və digər sahələrdə mühüm göstəricilərə nail olmuşdur. Qurultaya hazırlıq Səməd Ağamalıoğlunun rəhbərliyi altında 9 nəfərdən ibarət Cəmiyyətin Mərkəzi Şurasının təşkilat komissiyası tərəfindən aparılmışdır.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin təşəbbüsü ilə Bakı şəhərində yerləşən Türk mədəniyyəti sarayında ("İsmailiyyə" binası) 1926-cı il fevralın 16-dan martın 6-na qədər I Türkoloji Qurultay keçirilmişdir.

Keçmiş Sovet İttifaqının bütün türkdilli xalqlarının 131 nəfərlik alim heyəti, SSRİ Elmlər Akademiyasının mütəxəssisləri, Ukrayna Akademiyasının Şərqşünaslıq Elmi Assosiasiyası, Qafqaz Şərqşünaslıq Assosiasiyası və 30 nəfər xarici ölkələrdən gəlmiş alimlər arasında Türkiyə və Almaniyadan iki professor, Macarıstan, Avstriya və İrandan gəlmiş nümayəndələr qurultayda iştirak etmişlər. Qurultay Azərbaycan SSRİ MİK-nın və XKŞ-nin sədri Q.Musabəyovun sədrliyi ilə işə başlamışdır.

Qurultayın Rəyasət Heyətinə Səməd ağa Ağamalıoğlu, Ruhulla Axundov, Vasiliy Bartold, A.Krımski, H.Cəbiyev, M.F.Köprülü, C.Qorxmazov, S.F.Oldenburq, M.P.Pavloviç, B.Çobanzadə, T.Mensel, A.B.Baytursun, İ.N.Borozdin, A.N.Samoyloviç və digərləri seçilmişdi. Əcnəbi nümayəndə heyətinin tərkibində Mehmet Fuad Köprülü, Əli Bəy Hüseynzadə, Teodor Menzel, Yulius Messaroş, Ömər Tehsin, Qorten, Məcid Soltani, Deni, Munkaçi, Boneli, Setele, Tompson, Banq, Oberqummer, Paul Vitek, Valter Radebold və digərləri iştirak etmişlər.

Gündəlikdə üç əsas məsələ - türk dilinin əlifbası, terminologiyası, orfoqrafiyası daxil olmaqla 14 məsələ təqdim edilmişdi. 40-dan çox məruzə və həmməruzə dinlənilmişdi. Orfoqrafiya üzrə əsas məruzəçi professor Lev Şerba, elmi terminologiya üzrə türk alimi Azərbaycan Dövlət Universitetinin professoru Bəkir Çobanzadə çıxış etmişdi.

Qurultay iştirakçıları tərəfindən məruzə olunan aktual problemlər sırasında: "Türk xalqları tarixinin öyrənilməsinin müasir durumu və uyğun tapşırıqları" (Vasiliy Bartold), "Türk xalqları arasında diyarşünaslıq işinin metodları" (Sergey Oldenburq), "Türk dillərinin öyrənilməsində müasir vəziyyət və uyğun vəzifələr" (Aleksandr Samoylov), "Qafqaz türklərinin etnoqrafiyasının öyrənilməsinin uyğun vəzifələri" (Q.F.Çursin), "Türkologiyanın keçmişi və indiki durumu haqqında" (N.N.Aşmarin), "Türk dillərində elmi terminologiya sistemi barədə" (Hənəfi Zeynallı), "Türk dillərinin yafetidoloji dillərlə münasibətləri barədə" (A.N.Genko), "Türk danışıqlarının doğmalığı barədə" (Bəkir Çobanzadə), "Türk dilində doğru yazı" (F.Ağazadə), "Orfoqrafiya haqqında" və "Texniki baxımdan əlifba sistemi barədə" (C.Məmmədzadə), "Türk xalqlarının təsviri sənəti barədə" (A.A.Miller), "Orfoqrafiya barədə" (A.B.Baytursun), "Türk-tatar xalqlarının ədəbi inkişafı" (Qaziz Qubaydullin), "Türk xalqlarında ədəbi dilin inkişafı" (Mehmet Fuad Köprülüzadə) və digərləri çıxış etmişlər.

Qurultayda ölkənin bütövlükdə türkdilli xalqları üçün latın əlifbası əsasında vahid yazının ərsəyə gətirilməsi, türk xalqlarının mədəni inkişafında prinsipial məsələlərin müzakirəsi aparılmışdı. Türkoloji Qurultay Fransa, Almaniya, Türkiyədə və bir sıra ölkələrdə böyük maraq doğurmuşdu. "Der İslam" adlı alman jurnalında Türkoloji Qurultayın "dünya tarixində görünməmiş hadisə olması" barədə əhatəli məqalə dərc edilmişdi. Leninqradda Canlı Şərq Dilləri İnstitutunda Birinci Türkoloji Qurultaya türkoloji seminar həsr edilmişdi.

Qurultayda ərəb əlifbasından latın əlifbasına keçidi türk xalqlarının tarixi-etnoqrafik və linqvistik problemlərinin həlli ilə yanaşı, keçmiş SSRİ ərazisində yaşayan bütün türkdilli xalqların mədəni inkişaf perspektivləri müəyyən edilmişdi. Bir müddət sonra 1933-cü ildə bəzi hərflərin qrafikası və fonetik əhəmiyyətini fərqləndirən yeni əlifba yarandı. Azərbaycan latın əlifbası 1938-ci ildə dəyişikliyə məruz qaldı, nəticədə "N, n" hərfi ləğv edildi. Nəhayət, türkdilli xalqları öz soykökündən uzaqlaşdırmaq məqsədi güdən Sovetlər Birliyinin məkrli siyasəti nəticəsində 1939-cu ilin may ayında Azərbaycan-türk əlifbasının kiril əlifbasına keçirilməsi barədə qərar qəbul edildi. 1939-cu il noyabrın 15-də kiril əlifbası rəsmi olaraq təsdiq edildi. Azərbaycan SSR XKS komissiyasının nəzdində yaradılan əlifba 1940-cı il yanvarın 1-də qüvvəyə mindi.

Bakı şəhərində keçirilən I Türkoloji Qurultayın tövsiyəsi ilə Azərbaycan xalqı türk xalqları ilə birlikdə latın qrafikalı əlifbanı qəbul etdi. Bu o qədər asan həll edilə biləcək məsələ olmadığı üçün çox böyük elmi diskussiyaların məntiqi sonluğu kimi kütləvi savadlanmaya bütün türk xalqları arasında elmi, mədəni əlaqələrin daha intensiv inkişafına təkan verəcək bir addım olmalı idi.

Beləliklə, Türkoloji Qurultay, ümumilikdə, türk xalqları tarixinin araşdırılması sahəsində ilk ən mühüm və qlobal hadisə idi. Bu qurultay daha öncə keçirilmiş qurultaydan və onun kimi digər konqreslərdən fərqli olaraq aşağıdakı özəllikləri ilə seçilirdi:

*Türkoloji Qurultay şərqşünaslara yeni imkanlar yaratdı, elmi tədqiqatların səviyyəsini yüksəltdi, daha dinamik iş rejimi imkanı verdi;*

*Türk alimləri, müəllimləri bu sahədə ilk dəfə Avropa, Rusiya və digər dövlətlərin elmi ictimaiyyəti ilə praktiki, nəzəri problemləri birgə müzakirə etmək imkanı əldə etdi;*

*Qurultayın gündəliyində əlifba, terminologiya, ədəbi dil, çoxsaylı türk-tatar xalqları arasında mədəni əlaqələrin əməli və ictimai məsələlər səviyyəsində inkişafı araşdırılırdı;*

*Qurultay Avropa və Şərq alimlərinin dostluq, yoldaşlıq şəraitində əməkdaşlığın ilk bariz təzahür forması idi. I Türkoloji Qurultay müxtəlif sahələrdə aparılan tədqiqatlarla elmi yanaşmanın təkmilləşməsinə səbəb oldu.*

Sonradan Sovet Birliyinin iyerarxiyası türk xalqlarının birləşərək güclü real qüvvəyə çevrilməsindən ehtiyatlandıqları və siyasi səhvə yol verdiklərini anlayaraq Azərbaycan və digər türk xalqlarının iradəsinə zidd, mərkəzin təzyiqi ilə 1939-cu ildə kiril əlifbasına keçidi reallaşdırdılar. Bu qərar türk xalqlarının milli özünüdərk prosesinin qarşısını almaq, bir-birindən uzaq salaraq yadlaşdırmaq, onların birləşərək təhlükəli qüvvəyə çevrilməsinin qarşısını almaqdan ibarət idi.

XX əsrin 30-cu illərində yüzdən çox qurultay iştirakçıları pantürkizm, millətçilik, əks-inqilabi fəaliyyətdə günahlandırılaraq repressiyalara məruz qaldı. Onların arasında Aleksandr Samoyloviç, Cəlaləddin Qorxmazov, Bəkir Çobanzadə, Osman Ağçöhrəli, Əhməd Baytursunov, Salman Mümtaz, Ruhulla Axundov, İsidor Baraxov, Hənəfi Zeynallı, Ayna Sultanova, Həmid Sultanov və digərləri var idi.

Ümumi dil, əlifba, orfoqrafiya, ümumbirlik terminlər sahəsində I Diyarşünaslıq Qurultayında öz həllini tapan mühüm problemlər, 1926-cı ildə elmi-tədqiqat mövzusu kimi qadağan edildi.

Qeyd edək ki, ulu öndər Heydər Əliyevin 2 avqust 2001-ci ildə verdiyi fərmanla Azərbaycan dili və Əlifbası günü təsis edildi. Bu da Azərbaycan xalqının mütəfəkkiri Mirzə Fətəli Axundovun arzularının, xəyallarının gerçəkləşməsi idi.

Fərmanda bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə Qobustan və Gəmiqaya təsvirləri epiqrafik abidələr şəklində daşların yaddaşında həkk olunaraq günümüzədək yaşamışdır.

İslam dininin qəbuluna qədər olan dövrün yazı, şəkilləri unudulmuş və ərəb qrafikasına keçirilmişdir. Ərəb əlifbasından istifadə müsəlman Şərqinin ümumi yazı sistemi kimi formalaşmışdır. Əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini dolğunluğu ilə əks etdirməsi, quruluşu və xarakteri haqqında təsəvvür yarada bilməməsi XIX əsrin ikinci yarısından M.F.Axundov başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarını islahat problemi üzərində düşündürmüşdür. Bu, Azərbaycan xalqının o dövrdə yaşadığı tarixi şəraitdən doğan zərurət idi.

1991-ci il 18-20 noyabr tarixlərində İstanbulda "Çağdaş" "Türk Alfabesi Sempozyumu"nda hazırlanan layihəyə əsasən, Beynəlxalq Türk Akademiyası ilə Türk Dil Qurumunun 9-11 sentyabr 2024-cü il tarixində keçirilən türk dünyası ortaq komissiyasının iclasında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyəni təmsil edən alim və mütəxəssislərdən ibarət komissiya üzvləri ümumi razılığa gələrək 34 hərfdən ibarət Ortaq Əlifba layihəsini yekdilliklə təsdiq etmişlər. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra latın əlifbası bərpa edildi. 1992-ci ildən həyata keçirilən latın əlifbasına keçid 2001-ci ildə yekunlaşdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi barədə imzaladığı sərəncam türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoydu. Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə dövlət başçısı İlham Əliyev türk xalqlarının ortaq tarixi, etnik köklərimiz, dilimizin bizi bir ailə kimi birləşdirdiyini açıqladı. Prezident Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulayaraq Türk Dövlətləri Təşkilatı çərçivəsində qurultayın yüzillik yubileyinin keçirilməsini təklif etdi. Zirvə Görüşünün qəbul ediləcək qərarlarla birgə Türk Dövlətləri Təşkilatının mövqeyinin yüksəlməsinə, güclənməsinə, türk xalqlarının rifahı və təhlükəsizliyinə töhfə verəcəyi vurğulandı.

***Zemfira HACIYEVA,***
***AMEA Rəyasət Heyəti Aparatının şöbə müdiri, professor***

## Leyla Əliyeva və Arzu Əliyeva Pediatriya Mərkəzində



**Leyla Əliyeva və Arzu Əliyeva martın 4-də “Referans Medical Group”un tərkibində fəaliyyət göstərən “Leyla Medical Center”in Pediatriya Mərkəzində olublar.**

Ziyarət zamanı qonaqlar Mərkəzin gündüz stasionarında müalicə alan uşaqlara baş çəkib, onların səhhəti və müalicə prosesi ilə maraqlanıblar.

Uşaqlarla səmimi söhbət edən Leyla Əliyeva və Arzu Əliyeva körpələrə müxtəlif hədiyyələr təqdim edib, onlara xoş anlar yaşadıblar.

Qeyd edək ki, Pediatriya Mərkəzində uşaqların sağlamlığının qorunması və müalicəsi istiqamətində müasir tibbi xidmətlər göstərilir, balaca pasiyentlərin rahat və təhlükəsiz mühitdə müalicə alması üçün bütün zəruri şərait yaradılıb.

***XQ***





## Leyla Əliyeva Narkoloji Mərkəzi ziyarət edib





**Martın 5-də Leyla Əliyeva Bakı Şəhər Narkoloji Mərkəzini ziyarət edib.**

Leyla Əliyevaya mərkəz barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Azərbaycanda ilk narkoloji tibbi müəssisə olan Bakı Şəhər Narkoloji Mərkəzinin əsası 1980-ci ildə qoyulub. Əvvəllər Bakı Şəhər Narkoloji Dispanseri kimi fəaliyyət göstərib.

Qeyd olunub ki, həmin dövrdə alkoqolizmlə mübarizə əsasında narkologiya psixiatriyadan ayrılanda narkoloji müəssisələrin yaradılmasına başlanılıb. Azərbaycanda ilk olaraq həmin narkoloji mərkəz açılıb.

2012-ci ildə dispanser Səhiyyə Nazirliyi tərəfindən əsaslı təmir edilərək istifadəyə verilib. Səhiyyə Nazirliyinin 2020-ci il 11 avqust tarixli qərarı ilə "Bakı Şəhər Narkoloji Dispanseri" əsasında "Bakı Şəhər Narkoloji Mərkəzi" publik hüquqi şəxsi yaradılıb. Mərkəz 16 otaqdan ibarətdir: qeydiyyat, qəbul, 7 həkim, manipulyasiya, 6 administrativ otaq.

Paytaxtın 12 rayonuna xidmət edən mərkəzin 18 həkim, 25 tibb bacısı və 27 digər vəzifələrdə çalışan əməkdaşı var. Mərkəz gün ərzində 200-300 nəfərə qədər vətəndaşa xidmət göstərmək gücündədir.

Bakı Şəhər Narkoloji Mərkəzində paytaxt üzrə 17 min 557 nəfər, onlardan 1416 nəfər alkoqolizmdən, 14 min 753 nəfər narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları, 1388 nəfər toksiki maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə qeydiyyatdadır.

Gün ərzində narkoloji asılılıqdan əziyyət çəkən 20 nəfər mərkəzə müraciət edir, nadir hallarda alkoqolizm asılılığına görə müraciət daxil olur. Kəskin vəziyyətləri olan alkoqolizm halları stasionara yönləndirilir. Yüngül vəziyyətdə olan alkoqolizm halları isə mərkəzdə ambulator müalicə edilir.

Bakı Şəhər Narkoloji Mərkəzində sifilis, İİV, Hepatit B və C-nin müayinəsi də aparılır.

Mərkəz üçün yeni yerin ayrıldığı, yaxın gələcəkdə həmin məkana köçürüləcəyi də diqqətə çatdırılıb.

Leyla Əliyeva qeydiyyat, qəbul, həkim, baş tibb bacısı, manipulyasiya otaqlarına baş çəkib, mərkəzin tibbi personalı ilə həmsöhbət olub, onlarla şəkil çəkdirib.

## “Qərbi azərbaycanlıların milli geyim irsi”

**6 Mart Beynəlxalq Milli Geyim, 8 Mart Beynəlxalq Qadınlar günləri və XIX əsrdə yaşamış görkəmli Azərbaycan portret ustası və nəqqaş rəssam, milli panel rəssamlığının əsasını qoymuş Mirzə Qədim İrəvaninin 200 illik yubileyi münasibətilə Azərbaycan Milli Xalça Muzeyində “Qərbi azərbaycanlıların milli geyim irsi” adlı albom-kitabın təqdimatı və eyniadlı dəfilə keçirildi.**



Mərasimində çıxış edənlər Qərbi Azərbaycanın zəngin mədəni irsinin qorunması və təbliğinin vacibliyini vurğuladılar. Bildirildi ki, layihə çərçivəsində işıq üzü görən albom-kitabda bölgənin milli geyim nümunələrinə dair nadir fotolar, tarixi sənədlər və elmi məlumatlar yer alıb. Təqdim olunan albom-kitabda geyimlərin böyük hissəsi Mirzə Qədim İrəvaninin əsərləri, eləcə də tanınmış rəssamlar Qriqori Qaqarin və Maks Tilkenin İrəvan Xan Sarayı və Üçkilsə kafedralında çəkdikləri rəsmlər əsasında hazırlanıb. Azərbaycan və ingilis dillərində işıq üzü görən nəşrə ilk dəfə şəxsi kolleksiyadan 2 geyim nümunəsi, müxtəlif tarixi və informativ mənbələr əsasında bərpa edilmiş 2 dəst milli geyim daxil edilib.

**Mərasimdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova** qeyd etdi ki, milli geyimlər xalqın keçmiş həyat tərzini əks etdirən mühüm tarixi irsdir.

**Milli Məclisin Mədəniyyət Komitəsinin sədr müavini Günay Əfəndiyeva** bildirdi ki, Qərbi Azərbaycanın mədəni irsinin tədqiqi və təqdimatı beynəlxalq səviyyədə də mühüm əhəmiyyət daşıyır .

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru və Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü Mahirə Nağıqızı** vurğuladı ki, Qərbi Azərbaycanın maddi və mənəvi irsi xalqımızın ümumi tarixi yaddaş xəzinəsinin ayrılmaz hissəsidir. Bu irsin araşdırılması və təbliği milli varlığımızın qorunmasına xidmət edir.

**Milli geyimlər üzrə etnoqraf alim, dosent Gülzadə Abdulova** XQ-yə açıqlamasında türk geyimlərinin Qərbi Azərbaycanda türk kimliyinin əsas göstəricisi olduğunu bildirdi:

– İrəvan şəhəri Qərbi Azərbaycan mədəniyyətinin əsas mərkəzi idi. Qıpçaq geyim tərzi bütün Qafqazın geyim adətinə təsir edib. Qıpçaqların geyimini götürən xalqlar onu öz adları ilə tanıdıblar. Çərkəzlərə və Dağıstanın digər xalqlarına aid olunan geyimlər də qıpçaq türklərinin tərzidir. Qərbi Azərbaycanda Heydəri, Qarabatdax, Sinəbənd kimi bəzək əşyaları olub.

İrəvan geyimləri köynək, tuman və uzunqol arxalıqdan ibarətdir. Tuman və arxalıq Naxçıvanda olduğu kimidir, köynək isə fərqlidir. Qadınlarının alt köynəyi dizdən bir qədər yuxarı, qolu uzun olub. Davamlı olmaq üçün köynəyin yaxasına bir qarış enində ikinci qatın qoyulması dəb halını alıb. XIX əsr və XX əsrin əvvəllərində əhalinin geyim materialı kimi, əsasən, yerli ustalar tərəfindən kustar üsulla üfüqi toxuculuq dəzgahlarında - kərəkdə toxunmuş qılıcı şaldan, müxtəlif növlü və rəngli ipəkdən, nazik yun və pambıq parçalardan, aşılanmış gön və dəridən istifadə edirdilər.

Lakin, əhalinin varlı təbəqəsinin geyimi əsas etibarı ilə ipək tafta, darayı, qanovuz, atlas, alaca, xara və s. parçalardan ibarət idi ki, bunlarında çoxu satınalma yolu ilə əldə edilirdi. Rəng çalarlarına gəldikdə isə qadınların geyimlərində tünd qırmızı, yaşıl, sarı rənglərə üstünlük verilirdi.

**Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli** isə XQ-yə açıqlamasında bildirdi ki, İcma yarandığı gündən etibarən Qərbi Azərbaycan tarixi irsinin qorunmasına və yaşadılmasına xüsusi önəm verib:

– Bugünkü təqdimatda əsas məqsəd Qərbi Azərbaycan ərazisinə məxsus zəngin mədəni irsimizə daxil olan bütün dəyərləri qorumaq, onlara sahib çıxmaq və bu dəyərləri dünya ictimaiyyətinə daha geniş şəkildə tanıtmaqdır. Qərbi Azərbaycan İcması bundan sonra da bu istiqamətdə fəaliyyətini davam etdirəcək, milli-mədəni dəyərlərimizin təbliği ilə bağlı yeni tədbirlər və sərgilər təşkil edəcək. Hədəflərdən biri də bu sərgilərin gələcəkdə xarici ölkələrdə nümayiş etdirilməsidir. Biz çalışırıq ki, bu dəyərlər təhsil proqramlarında da öz əksini tapsın. Çünki gənc nəsil öz milli-mədəni irsini tanımalı, onu mənimsəməli və qoruyaraq yaşatmalıdır.

Mərasim çərçivəsində 40-a yaxın milli geyim nümunəsinin yer aldığı sərgi açıldı. Ziyarətçilər Qərbi Azərbaycanın müxtəlif bölgələrinə məxsus geyim ənənələrini əks etdirən nümunələrlə tanış olmaq imkanı əldə etdilər. Sərgi martın 8-dək davam edəcək.

***Fidan ƏLİYEVA***
***XQ***

# Azadlığın dövlətsizliklə eyniləşdirilməsi

**Azadlıq anlayışının ən köklü və davamlı təhriflərindən biri onun dövlətin yoxluğu ilə eyniləşdirilməsidir. Bu yanaşmada dövlət azadlığın hüquqi və institusional təminatçısı kimi deyil, fərdin təbii azadlığını məhdudlaşdıran xarici və mahiyyət etibarilə mənfi qüvvə kimi təqdim olunur. Azadlıq isə hüquqi nizamın mövcudluğu ilə deyil, bu nizamın zəifləməsi və ya tamamilə aradan qalxması ilə genişlənən hal kimi başa düşülür.**



Beləliklə, azadlıq hüquqi münasibət kateqoriyası olmaqdan çıxarılır və institusional çərçivədən kənarda təsəvvür olunan bir hala çevrilir. Dövlət nə qədər zəifdirsə, azadlıq bir o qədər çoxdur – bu, yanaşmanın sadələşdirilmiş formuludur. Bu təsəvvür təkcə siyasi ritorikanın məhsulu deyil; o, ciddi nəzəri ənənəyə söykənir.

Anarxist düşüncədə dövlət azadlığın prinsipial inkarı kimi təqdim olunur. Burada azadlıq mərkəzləşdirilmiş hakimiyyətin ləğvi ilə eyniləşdirilir. Kommunalar və özünüidarə edən birliklər “təbii azadlıq mühiti” kimi idealizə edilir. Lakin bu modellərdə azadlıq hüquqi təminat deyil, faktiki razılaşmaların və real güc balanslarının nəticəsi kimi mövcud olur.

Klassik liberalizm isə daha ehtiyatlıdır: dövlət lazımdır, lakin məhdudlaşdırılmış dövlət. Azadlıq dövlətin yoxluğu ilə deyil, onun məhdud hüquqi çərçivəyə salınması ilə qorunur. Lakin liberal düşüncənin bir xətti - libertarianlar daha da irəli gedərək dövləti “gecə gözətçisi” funksiyasına endirməyə çalışmışdır. Bu modeldə dövlət yalnız təhlükəsizliyi və müqavilələrin icrasını təmin edən minimal mexanizm kimi qəbul olunur; sosial siyasət, iqtisadi tənzimləmə və kollektiv müdaxilə isə azadlığa müdaxilə kimi qiymətləndirilir. Dövlətin sosial rolu daraldıqca, azadlıq bazar münasibətlərinin sərbəstliyinə bərabərləşdirilir. Bu mövqedə azadlıq əsasən dövlətin nə etməməsi üzərindən müəyyən olunur.

Problem məhz burada başlayır. Çünki cəmiyyət yalnız təhlükəsizlik və müqavilə icrası üzərində qurulmur. Sosial bərabərsizlik, iqtisadi güc fərqləri və real imkanların asimmetriyası şəraitində minimal dövlət modeli formal azadlığı qorusa da, faktiki azadlıq bərabərliyini təmin etmir. Dövlət tamamilə geri çəkildikdə azadlıq hüquqi status kimi qalır, lakin onun həyata keçirilməsi fərdlərin real resurslarından asılı olur. Bu modelin ardıcıl tətbiqi göstərdi ki, dövlətin rolu yalnız “gecə gözətçisi” funksiyasına endirildikdə sosial uçurum dərinləşir, cəmiyyətdə sosial partlayış baş verir və formal bərabərlik real imkan bərabərsizliyini ört-basdır edə bilmir. Nəticədə, məhz bu mühitdə bərabərliyi radikal və inzibati üsullarla təmin etməyi vəd edən kollektivist ideologiyalar güclənir. Beləliklə, dövləti minimuma endirmək iddiası paradoksal şəkildə dövlətin ifrat və mərkəzləşmiş formasının yaranmasına zəmin yarada bilir.

Bu istiqamətlərin hər biri azadlığın müəyyən tərəfini vurğulayır. Lakin onları birləşdirən gizli məntiq eynidir: dövlət azadlığın şərti deyil, potensial təhlükəsidir.

Anarxist düşüncə dövlətin ləğvini azadlığın ilkin şərti kimi təqdim etdiyi halda, klassik dövlətçi ənənə bunun əksini iddia edir. Tomas Hobbes dövlətin yoxluğunu azadlığın genişlənməsi deyil, onun hüquqi məzmununun dağılması kimi təsvir edirdi. Onun məşhur ifadəsi ilə, dövlətin olmadığı təbii vəziyyətdə insan həyatı “tənha, yoxsul, qəddar və qısa” olur. Hobbes üçün problem məhdudiyyətin mövcudluğu deyil, məhdudiyyətin ümumi və sabit norma formasında olmamasıdır. Dövlət olmadan formal olaraq hər kəs hər şeyi edə bilər, lakin heç kəs öz azadlığının qorunacağına əmin ola bilməz. Bu mənada, dövlət azadlığın alternativi deyil, onun hüquqi formasıdır: o, fərdlərin faktiki güc münasibətlərindən asılı olmadan birgə yaşamasını mümkün edən sabit çərçivə yaradır.

Məhz burada əsas sual ortaya çıxır: dövlət zəiflədikdə azadlıq həqiqətənmi genişlənir?

Tarixi təcrübə bunun əksini göstərir.

1990-cı illərdə Somalidə mərkəzi dövlət institutlarının dağılması formal qadağaların aradan qalxması kimi təqdim edilə bilərdi. Dövlət nəzarət mexanizmi, normativ çərçivə yox idi. Formal baxımdan fərdlər “azad” idilər. Lakin bu vəziyyət hüquqi azadlıq yaratmadı. Əksinə, fərd silahlı qrupların, klan qarşıdurmalarının və təsadüfi güc münasibətlərinin obyektinə çevrildi.

Bu nümunə göstərir ki, dövlətin yoxluğu azadlığın maksimum forması deyil; çox vaxt onun hüquqi məzmununun dağılmasıdır.

Dövlət institutları zəiflədikdə azadlıq bərabər hüquq kimi yox, faktiki imkan kimi işləməyə başlayır. Və faktiki imkan həmişə bərabər bölüşdürülmür. Resursu, gücü və təşkilatlanma qabiliyyəti olan tərəf daha çox “azadlıq” əldə edir. Beləliklə, azadlıq hüquqi münasibət olmaqdan çıxaraq güc münasibətinə çevrilir.

Məsələ dövlətin müqəddəsləşdirilməsi deyil, azadlığın yalnız hüquqi çərçivədə bərabər paylaşılmasının mümkün olmasıdır. Hüquqi nizam olmadan azadlıq formal sərbəstlik kimi mövcud ola bilər, lakin o, qorunan və davamlı hüquqa çevrilmir. Azərbaycan təcrübəsi bu baxımdan mühüm əhəmiyyət daşıyır.

1990-cı illərin əvvəllərində dövlət institutlarının zəifləməsi, siyasi parçalanma və təhlükəsizlik təhdidləri şəraitində formal azadlıq şüarları geniş səslənirdi. “Azadlıq”, “müstəqillik”, “demokratiya” anlayışları ictimai diskursda üstün mövqe tuturdu. Lakin institusional zəiflik və hüquqi nizamsızlıq bu anlayışları real təminata çevirə bilmədi. Faktiki olaraq, siyasi və iqtisadi sahədə güc boşluğu yarandı. Azadlıq hüquqi münasibət kimi deyil, nizamsız mühitdə səslənən iddia kimi işləyirdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə prioritet dəyişdi: ilk növbədə, dövlətçilik bərpa edildi. Hüquqi institutların qurulması, təhlükəsizlik mexanizmlərinin möhkəmləndirilməsi və siyasi sabitliyin təmin edilməsi azadlığın real təminatı üçün zəmin yaratdı. Bu yanaşmada dövlət azadlığın alternativi kimi deyil, onun institusional şərti kimi təqdim edildi.

Prezident İlham Əliyevin dövründə isə milli suverenliyin möhkəmləndirilməsi və dövlətin icra qabiliyyətinin artırılması azadlığın artıq təhlükəsizlik boşluğunda deyil, idarəolunan hüquqi mühitdə reallaşdığını göstərdi. Bu, azadlığın məhdudlaşdırılması deyil, onun qeyri-müəyyənlikdən çıxarılaraq normativ və faktiki zəmanət altına alınması idi.

Burada əsas məntiq budur: dövlət zəiflədikcə azadlıq avtomatik genişlənmir; əksinə, onun təminat mexanizmləri zəifləyir. Güclü hüquqi dövlət azadlığın düşməni deyil; o, azadlığın bərabər və davamlı şəkildə həyata keçirilməsinin institusional formasıdır.

Azadlığın dövlətsizliklə eyniləşdirilməsi bu həqiqəti nəzərdən qaçırır. O, azadlığı hüquqi nizamdan ayıraraq faktiki münasibətlər səviyyəsinə endirir. Nəticədə, azadlıq hüquq kimi yox, imkan kimi işləyir. İmkan isə həmişə gücə bağlıdır.

Bu təhrif azadlığın növbəti problemli təqdimatına – onun kontekstdən qoparılaraq ümumi qiymətləndirmə meyarına çevrilməsinə aparan məntiqə zəmin yaradır.

***(ardı var)***

***Mehdi ABDULLAYEV,***
***Dövlət İdarəçilik Akademiyası dövlət idarəçiliyinin hüquqi təminatı kafedrasının müdiri, hüquq elmləri doktoru***

“Şəhərsalma və Memarlıq İli” – 2026

# Azərbaycanın şəhərsalma və memarlıq irsi tarixi sərvətimizdir

## Quruculuq ənənələrimiz qorunur, yaşadılır, zənginləşdirilir

**Prezident İlham Əliyev Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaradılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə 2026-cı ili “Şəhərsalma və Memarlıq İli” elan etmişdir. Dövlət başçısının bununla bağlı imzaladığı 22 dekabr 2025-ci il tarixli sərəncamda qeyd edildiyi kimi, Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır.**



Əcəmi Əbubəkr oğlu Naxçıvani

İpək yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır. Mövcud Azərbaycan şəhərlərinin böyük qismi orta əsrlərdə meydana gəlmişdir. Doğrudur, bu şəhərlərdən bəzilərinin hələ eramızdan əvvəl mövcud olduqları haqqında əldə tarixi materiallar, maddi-mədəniyyət nümunələri vardır. Naxçıvan şəhəri də bu cəhətdən müstəsnalıq təşkil etmir. Azərbaycan ərazisində təşəkkül tapmış ən qədim şəhərlərdən biri olan Naxçıvanın tarixinə dair məxəzlərdə zəngin məlumatlara təsadüf edilir.



Boyalı qablar mədəniyyətinin tapıntıları

Naxçıvan adı ilk dəfə Naksuana şəklində II əsr müəllifi Klavdi Ptolemeyin “Coğrafiya” əsərində çəkilmişdir. İlk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi qeyd edən yunan alimi K.Ptolemey Naxçıvan şəhərinin adını dünyanın yeddi böyük şəhəri ilə bir sırada çəkmişdir. Lakin V əsr müəlliflərinin əsərlərində şəhərin adı “Naxçıvan” formasında qeyd edilir. Orta əsrlərin ərəb mənbələrində şəhərin adı “Nəşəva” kimi yazılır. Bir sıra orta əsr müəlliflərinin əsərlərində şəhərin adı böyük hörmətlə “Nəqşi-cahan” (“Dünyanın bəzəyi”) adlandırılır.

Bir sıra mənbələrdə və tədqiqatlarda Naxçıvan şəhərinin təşəkkülü eramızdan əvvəl ikinci minilliyə şamil edilir. Bəzi müəlliflər Naxçıvanın eramızdan əvvəl 1539-cu ildə meydana gəldiyini iddia etmişlər. Müəlliflərdən bəziləri öz yazılarında Naxçıvanın 3500 il bundan əvvəl bir şəhər kimi təşəkkül tapdığını göstərirlər. Arxeoloqlar ərazidən əldə edilmiş maddi-mədəniyyət nümunələrinə əsaslanaraq onun eramızdan əvvəl III minillikdən başlayaraq formalaşdığını təsdiq edirlər. Çoxsaylı faktlar Naxçıvan şəhərinin beş min ildən artıq tarixə malik olduğunu təsdiq edir. Naxçıvan eramızın əvvəllərindən hərtərəfli formalaşmış bir şəhər olmuşdur. Orta tunc dövründə Naxçıvanda şəhər tipli yaşayış yerlərinin olması haqqındakı elmi dəlillər özünü tamamilə doğrultmuşdur.

Qədim şəhərlərimiz, eləcə də Naxçıvan şəhəri sənətkarlıq və ticarət mərkəzləri olaraq ortaya çıxmış, “Boyalı qablar mədəniyyəti”nin ən gözəl sənət nümunələri ilə dünya mədəniyyətinə töhfə vermişdir. Cənubi Qafqaz ərazisində boyalı qablar adı ilə tanınan arxeoloji mədəniyyət “Naxçıvan mədəniyyəti” kimi tanınır.

Naxçıvan şəhərinin yerləşdiyi ərazi təbii imkanlarına görə şəhərsalma üçün çox yararlıdır. Naxçıvan geniş “düzənliyin ortasında elə yüksəklikdə tikilmişdir ki, ordan Araz çayı görünür” (Ə.Bakuvi).

Bakuvinin bu fikri bəzi müəlliflərin qeydlərini – “Araz çayı şəhərin içərisindən axır” – fikrini inkar edir.

Bu yaxınlaracan köhnə uçuqları qalmış Köhnə qala Naxçıvan şəhərinin yerləşdiyi əraziyə aid idi və eramızın əvvəllərində çox möhkəm qala şəhər olduğunu nümayiş etdirirdi. Möhrədən tikilmiş bu qala XVIII əsrədək fəaliyyət göstərmişdir. Qalada şirin su mənbəyi və yeraltı yollar olmuşdur. Köhnə qala şəhər əhalisinin təhlükəsizliyini təmin edən başlıca müdafiə qalası idi. Divarlarının qalınlığı 3,5 metrə çatırdı.

Naxçıvanın əsaslı inkişafı Naxçıvanşahlıq (983-1066) və Eldənizlərin dövründə baş vermişdir. XI əsrin ikinci yarısından sonra, böyük səlcuqlu sultanı Alp Arslanın (1063-1072) burada özünə iqamətgah tikdirməsi və Naxçıvanın Səlcuqlu canişinlərinin oturduğu yerə çevrilməsi ilə başlamışdır. Naxçıvan özünün ən coşqun çiçəklənmə dövrünü XII əsrdə - Azərbaycan Atabəylərinin paytaxtı və iqamətgahı olduğu illərdə keçirmişdir.

Böyük Səlcuqlu sarayında yüksək hörmət və nüfuz qazanmış Eldəniz 1136-cı ildə ona xidməti müqabilində verilmiş Arrana hakim təyin edilir. Şahzadə Arslanşaha atabəylik vəzifəsi ilə yanaşı, Eldənizə “Şəmsəddin” (“Dinin günəşi”) ləqəbi verilir. Şəmsəddin Eldəniz 1146-cı ildə Naxçıvan vilayətini də öz mülklərinə qatır, iqamətgahını və ailəsini Bərdədən Naxçıvana köçürür. XII əsrin 30-70-ci illərində Naxçıvan Eldənizlər dövlətinin əsas iqamətgahlarından idi. Naxçıvan şəhəri həm də gündən-günə güclənən və inkişaf edən Azərbaycan Atabəylər dövlətinin paytaxtı olur. Şəmsəddin Eldənizdən sonra onun övladları dövləti Həmədandan idarə etsələr də, Naxçıvan öz yüksək siyasi və mədəni mövqeyini qoruyub saxlamışdır.



Yusif Küseyir oğlu türbəsi



Mömінə xatun türbəsi

Eldənizlər dövləti dövründə Naxçıvan xeyli inkişaf etdi, şəhərdə abadlıq və tikinti işləri aparıldı. Şəhərdə təqribən 150-200 min əhali yaşayırdı. Bu illərdə Naxçıvan özünün şəhərsalma və memarlıq inkişafının zirvəsinə yüksəlmişdir. XIII əsrin 30-cu illərində naməlum müəllif tərəfindən yazılmış “Əcaib əd-dünya” (“Dünyanın qəribəlikləri”) əsərində bişmiş kərpicdən tikilmiş üç-dörd mərtəbəli binaların cəzbedici memarlıq üslubu ağızdolusu vəsf edilmişdir: “Əlahəzrət Eldənizin mübarək zamanında şəhər özünün ən yüksək əzəmətinə çatdı. Orada hökmdar iqamətgahı (darülmülk) qurdular və hökumət binası (dövlətxana) tikdilər”.

Naxçıvan şəhərinin memarlığında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Şəhərdə gözəl saray, köşk, karvansaralar, məscidlər, mədrəsələr və başqa dini və mülkü binalar tikilmişdir. Dahi memar Əcəminin dövrümüzə gəlib çatmış Yusif Küseyir oğlu və Möminə xatun türbələri dünya memarlıq tarixinin incilərindən biri kimi məşhurdur. Bu və digər abidələrlə Naxçıvan şəhəri peşəkar ustaları ilə təkcə Azərbaycanın deyil, bütün Ön Asiyanın ən önəmli memarlıq mərkəzlərindən birinə çevrilmişdir. Memar Əcəmi Naxçıvani bu mərkəzin yüksək mədəni mühitində formalaşmış və onu zirvəyə qaldırmışdır.

“Əcaib əd-dünya” əsərində Naxçıvan şəhəri, onun əhalisi, əhalinin məşğuliyyəti haqqında maraqlı və əhatəli məlumatlar verilmişdir: “Naxçıvan Azərbaycanda böyük və əhalisi çox olan şəhərdir, yüksək yerdə yerləşmişdir, çox möhkəmləndirilmişdir, orada çoxlu saray, köşk və təntənəli eyvanlar vardır, şəhərin yanında daşdan qala tikmişlər və qalada mədrəsə və məscid tikmişlər; qalada yaxşı bulaq var. Köşklərin çoxu qala kimi üç və dörd mərtəbəlidir. Naxçıvanın əksər binaları gəcdən və bişmiş kərpicdən tikilib.

Naxçıvan torpağında dənli bitkilər, pambıq, üzüm və bir az meyvə yetişir. Şəhərin ətrafı yaxşıdır; axar suları, meşələri, bağları, çoxlu göy-göyərtisi var. Meyvələri çox ləzzətlidir: deyirlər bütün dünyada Naxçıvan üzümündən daha yaxşısı və mənfəətlisi yoxdur. Havası təmiz, suyu tamlıdır. Şəhərin vergiləri 113 min dinara bərabərdir. Naxçıvanın yaxınlığında Əlincə, Sürməli, Taqmar, Fəqnan, Gərni kimi möhtəşəm qala və istehkamlar ucalır. Deyirlər Naxçıvan qəbristanlığı kimi heç yerdə qəbristanlıq yoxdur. Burada olan binalar – məscidlər, mədrəsələr, türbələr və çoxlu bağlar mühafizə olunur”.



Köhnə qala

Azərbaycan Atabəylər dövləti dövründə ölkədə siyasi sabitliyin olması, iqtisadi inkişafdakı dəyişikliklər, mədəni həyat üçün əlverişli şəraitin yaranması, ən başlıcası isə Eldənizlərin tikintiyə böyük həvəs və himayədarlıq göstərmələri sayəsində Naxçıvan XII əsrin ikinci yarısında bölgənin ən iri və gözəl şəhərlərindən biri kimi geniş şöhrət qazanır. Bütün bunlar barədə Məhəmməd Naxçıvanı yazır: “Naxçıvan elə şəhərdir ki, bütün ölkələr içində Bağdad və Təbrizdən sonra onun kimi füsunkar şəhəri heç bir göz görməmiş, heç bir qulaq eşitməmişdir”.

Naxçıvanın müqayisə olunduğu Bağdad və Təbriz şəhərləri çox böyük olmaqla bərabər, o zaman həm də Ön Asiyanın ən önəmli mədəniyyət və memarlıq mərkəzləri kimi tanınırdı. Naxçıvan şəhəri də həm paytaxt şəhəri, mədəniyyət mərkəzi və memarlıq abidələri ilə səyyahların, şəhər qonaqlarının böyük marağına səbəb olurdu. Həmdullah Qəzvini Naxçıvan şəhərinin gözəlliyini vurğulayaraq onu “Nəqşi-cahan” – “Dünyanın bəzəyi” adlandırmışdır.

Naxçıvan ciddi şəhər strukturuna, məhəllə və abidələrə məxsus olan şəhər kimi tanınmışdır. O, möhkəm və etibarlı müdafiə sistemi olan İçəri şəhərdən – şəhristandan və ona bitişik olan içqaladan ibarət olmuşdur. Onun ətrafını bağlar və əkin sahələri əhatə edirdi. Araz çayının şəhərin hüdudlarından axması Naxçıvan şəhərinin o dövrə görə nəhəng ölçüdə olmasını təsdiq etdiyi üçün çox əhəmiyyətlidir. Bəzi müəlliflər Araz çayının şəhərin içindən axmasından bəhs etmişlər. Onlar şəhərin yerləşdiyi ərazinin mövqeyini bilmədiklərindən bu fikri söyləmişlər. Çünki Araz çayı ilə şəhərin yerləşdiyi ərazinin yüksəkliyi arasında böyük fərq vardır. Naxçıvan çayının bir qolunun şəhərin içərisindən axmasını Arazla əlaqələndirirlər ki, bu da həqiqətə uyğun deyil.

Tanınmış memar Cəfər Qiyasiyə görə, Naxçıvanın böyük şəhər qalası, bölgənin başqa iri şəhərlərində olduğu kimi, çiy kərpicdən tikilmişdi. Bu səbəbdən tarixi qaynaqlarda onun içqalasının divarlarının daşdan ucaldılması vurğulanmışdır. Eldənizlər zamanı həmin içqala şəhər qalasına bitişik – indiki Möminə xatun türbəsinin olduğu ərazidə yerləşirdi. Mənbələrdən məlum olur ki, içqalada hökumət evi olmaqla yanaşı, başqa binalar da olmuşdur. Məlumatda içqala içərisində təbii su qaynağının olması vurğulanır. İçqala üçün şəhər ərazisinin təpəli bir yeri seçilmişdi.



“Naxçıvan XII əsrdə”. Davud Kazımov

50 ilə yaxın Eldənizlər sülaləsinin iqamətgahı olan Naxçıvanın içqalasında möhtəşəm memarlıq ansamblı yaradılmışdı. Bu memarlıq ansamblına darülmülk, dövlətxana, saray köşkləri, məscid, mədrəsə, türbə və başqa binalar daxil idi. Memarlıq abidələrinin ansamblının tərkibində olan binalar paytaxt şəhərin ən görkəmli tikililəri olmuşdur.

Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin “Şəhərsalma və Memarlıq İli” ilə bağlı imzaladığı Sərəncamda bir çox abidələrin memarlıq rəmzlərinə çevrildiyi qeyd edilir: “Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, “Atəşgah” kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir”.

Azərbaycan Atabəyləri dövlətinin paytaxtı statusunu daşıyan Naxçıvan şəhərində iqtisadiyyatın, dövlətlərarası ticarətin inkişafına ciddi təsir göstərdi və şəhər çoxsaylı sənət və istehsal sahələrində bölgənin mərkəzinə çevrildi. İpəkçilik, toxuculuq, dulusçuluq, daş, taxta və bədii metal məmulatları o zaman Naxçıvandan xarici ölkələrə ixrac edilirdi. “Əcaib əd-dünya” əsərində bildirlir ki, Naxçıvanın “malları: çin parçaları, yaxşı işlənmiş nazik örtüklər, keçə, çuxa, futa, kasa, boyanmış ağac tabaqçalar çox yaxşıdırlar, belə ki, onları hədiyyə kimi bütün dünya boyu aparırlar”. Bunu Ə.Bakuvi də əsrində qeyd edir: “Naxçıvan sakinləri bədii oymada, boşqab və xaland ağacından müxtəlif qablar hazırlamaqda mahirdirlər və bütün bunlar müxtəlif ölkələrə aparılır”.

Orta əsrlər dövründə qurulan şəhərlərin bir sıra memarlıq abidələri daha çox şəhərin aparıcı şəxslərinə, onların yaxınlarına həsr olan türbələrdə əks olunurdu. Bəzən belə memarlıq abidələri şəhərlərin simvoluna çevrilirdi. Belə ki, Naxçıvan şəhərində 1162-ci ildə yaradılan Yusif Küseyir oğlu türbəsi şəhərin valisinə (rəisinə), 1186-cı ildə başa çatan Möminə xatun türbəsi isə Eldənizlər dövlətinin hökmdarı Şəmsəddin Eldənizin həyat yoldaşının xatirəsinə həsr edilmişdir. Möminə xatun türbəsi Naxçıvan şəhərinin simvoluna çevrilmişdir. Bu abidələr həm də dahi memar Əcəmi Naxçıvaninin Naxçıvana bəxş etdiyi nadir dünya əhəmiyyətli memarlıq inciləridir. Memar Əcəmi Naxçıvani Naxçıvan mühitində formalaşmış və Naxçıvan memarlıq məktəbinin əsasını qoymuşdur.

Naxçıvan paytaxt olaraq böyük siyasi əhəmiyyət daşıdığı kimi, həm də bölgənin iri ticarət mərkəzlərindən biri idi və çeşidli sənətkarlıq məmulatları və kənd təsərrüfatı məhsulları ilə dövlətlərarası ticarətin fəal iştirakçısı olmuşdu. Naxçıvan sənətkarları tərəfindən hazırlanan məmulatlar ölkə xaricində şöhrət tapmışdı.

Milli şəhərsalma irsimiz, tarixi ənənələr, şəhərlərimizin simvollarına çevrilən memarlıq abidələrimizə göstərilən diqqət və qayğı ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə onun fəaliyyətinin prioritet istiqamətlərindən olmuşdur. Bakının, Naxçıvanın, Sumqayıtın, Gəncənin və başqa şəhərlərin quruluşunun planauyğun qurulması şəhərsalma sahəsinin mükəmməl bilicisi Heydər Əliyevin bu sahəyə xüsusi əhəmiyyət verməsi sayəsində mümkün olmuşdur. O, şəhərlərimizin müasirləşdirilməsi, tarixi memarlıq irsimizin qorunması istiqamətində əvəzsiz xidmətlər göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyev tərəfindən ən yüksək səviyyədə yerinə yetirilir. Onun “Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında”, “Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında”, “Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında” və başqa bu kimi sərəncamları milli irsimizə, milli-mənəvi dəyərlərimizə, tarix və mədəniyyət abidələrimizə nə qədər böyük əhəmiyyət verdiyini bir daha təsdiq edir.



Naxçıvan qalasının planı

Beləliklə, Naxçıvan şəhəri nümunəsində şəhərin tarixi, mədəniyyəti və memarlıq abidələrinin təhlilindən bir daha aydın olur ki, Naxçıvan şəhəri XII-XIII əsrlərdə şəhər kimi müəyyən inkişaf səviyyəsinə çatmış və bu zaman öz tarixi, mədəni və coğrafi xüsusiyyətlərini qoruyaraq inkişaf etmişdir. Ölkə Prezidentinin müvafiq sərəncamları Naxçıvan şəhərinin inkişafına, abidələrin qorunmasına, konservasiyasına və sistemli şəkildə davam etdirilməsinə əlavə imkanlar açacaq və daha geniş şərait yaradacaq.

*İsmayıl HACIYEV,*
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

Xaqani Şirvani – 900

# Dizi məktəb, könlü müəllim şair



**Bu il yubileyi qeyd olunan Azərbaycanın böyük şairi Xaqaninin əsl adı İbrahim, atasının adı Əli idi. Orta əsr mənbələrində o, Əbu Bədil Əfzələddin İbrahim ibn Əli Nəccar ibn Osman ibn İbrahim Həqaiqi Həssanul-Əcəm Xaqani Şirvani kimi təqdim edilir. Burada Həqaiqi, Həssanul-Əcəm və Xaqani onun təxəllüsü, Əfzələddin ləqəbi, Əbu Bədil kunyəsi və Şirvani mənsub olduğu yerin adı-nisbəsidir.**

Xaqani Şirvanda dülgər ailəsində anadan olmuşdur. Əsərlərində özü ailəsi haqqında geniş məlumat vermişdir:

***Atam nəccar idi, dərs alıb ondan,***
***Oldum zəmanədə ustad sözyonan...***

O, ilk təhsilini əmisindən almış və dövrünün müxtəlif elmlərinə yiyələnmişdir.

Əmisinin onun boynunda haqqının olmasını bir çox şeirində qeyd edib, “Ana” şeirində isə bu haqqı ana haqqına bərabər tutub:

***Onun haqqı çoxdur boynumda, bişəkk,***
***Boynumda əmimin haqqı olan tək.***

Bu musralardan, həmçinin babasına, atasına, anasına, əmisinə şeir həsr etməsindən, onları əsərlərində tez-tez minnətqdarlıqla yad etməsindən şairin mənəviyyatca kamil bir insan olduğunu düşünmək olar:

***Gövhərim nəccardır, təbin nəcib övladına,***
***Tişəsi altında bir mahir ata əl gəzdirər.***

Xaqani ədəb-ərkanın ona ailəsindən miras qalmasını aşağıdakı misralarda bu cür ifadə etmişdir:

***Həcv edərkən söyüş söymək xasiyyətim deyil mənim,***
***Ədəb mənə ailəmdən təkcə miras qalanımdır.***

Atasından giley etdiyi şeirində atasının onu bir şair kimi görmək istəməməsindən qeyd etsə də, onun üzünə ağ olmamağı əsas şərt sayır:

***Zəmanənin mən ki belə ən layiqli oğluyam,***
***Osa mənim hünərimi özü üçün bilir ar.***
***Deyir: kaş ki, bu Xaqani bir toxucu olaydı,***
***Olmayaydı söz mülkündə belə qabil sənətkar.***
***Nə etməli, atam odur bir oğulam ona mən,***
***Ağ olmaram, o nə qədər eyləyərsə məni zar.***
***Axır mənə çörək verib bəsləmişdir birtəhər,***
***Böyük Allah, qoru onu, bəlalardan çək kənar.***

Gənc yaşlarından, öz sözləri ilə desək, “ustad sözyonan” kimi yüksək şairlik istedadını göstərən Xaqani Şirvanşahlar sarayına dəvət edilir və orada böyük şöhrət tapır. O, 25 yaşında ikən Şirvanşahların “məlik üş-şüara”sı Əbülüla Gəncəvinin dəvəti ilə saraya gəlmiş, onun qızı ilə evlənmiş, Əbülülanın ona verdiyi “Xaqani” təxəllüsü ilə şeirlər yazmışdır:

***Hanı bir yel, apara könlü gülüstanə tərəf,***
***Tutaraq bəlkə yaxamdan, çəkə cananə tərəf.***
***Biz onun xəncərinə hazır olan qurbanıq,***
***Kaş ki, bir ləhzə baxa biz kimi qurbanə tərəf.***
***Ağlayarsa belə bir nalə ilə Xaqani,***
***Qorxuram göz yaşı çəksin onu tufanə tərəf.***
***Biz onun xəncərinə hazır olan qurbanıq,***
***Kaş ki, bir ləhzə baxa biz kimi qurbanə tərəf.***
***Ağlayarsa belə bir nalə ilə Xaqani,***
***Qorxuram göz yaşı çəksin onu tufanə tərəf.***

Xaqani Şirvaninin əsərləri tədqiq edildikdə onun öz dövründəki elmlərə yaxşı bələd olduğu ortaya çıxır. Xaqani dövrünün bir çox elmlərinin bilicisi idi. Azərbaycan alimi Məhəmmədəli Tərbiyyət Xaqaninin elmləri necə dərindən bildiyi haqda yazır: “Xaqani Şirvani öz dövrünün işlənməkdə olan elmlərinin çoxuna, xüsusən də hikmət, nücum, müsiqi elmlərinə yaxşı bələd idi. Qəsidəsinin birində bu haqda yazır: “O hansı elmdir ki, mən onu bilmirəm? – məni sınamaq istəyirsən, əsərlərimə diqqət et”. Xaqani bu fikri ərəb dilində yazdığı bir əsərində də təkrar edərək: “Mən elmlə şərafətlənib onun sayəsində şöhrət tapıram”, – yazırdı.

Xaqani həmişə inamın, həqiqətin, gözəlliyin carcısı olmuş, hər cür şəri rədd etmiş, həyatda düz yolu seçmişdir:

***Xaqani, əgər olsa nəsibin himmət,***
***Axtarma hər alçaq kimi sən var-dövlət.***
***Düz get yolunu, olma, ey aqil, fərzin,***
***Mümkünsə piyada ol, yolu sən düz get.***

O, heç zaman haqsızlığa qarşı susmamış, azadfikirliliyi ilə saray əhlindən seçilmişdir:

***Bəli, dərvişdəki hümmət Günəş misli gərək olsun,***
***Axı o, şahdan üstündür, nə yurdu var, nə sahmanı.***

Xaqaninin poeziyasındakı ciddi, sərt fikirlər, eyni zamanda, hərəkəti, davranışı saraydakıları təşvişə salmışdı. Ona görə də saray intriqalarından, çəkişmələrindən kənarda qalmamış, get-gedə düşmənləri daha da çoxalmışdı:

***Sayəsiz, barsız qovaq tək boy atar düşmənlərim,***
***Hikmətim, təbim mənim hər an verər şirin bəhər.***
***Fitnə Rəxşini minib, ox sazlayarlar hiylədən,***
***Rüstəm olmazsa, yetər İsfəndiyaramı zərər?!***

Sarayda özünü “qanadı qırılmış quş kimi dəmir qəfəsdə” hiss edən şair iki dəfə onu sıxan bu mühutdən qaçmağa cəhd etsə də, tutularaq həbs olunmuşdur. Özünün "Həbsiyyə" qəsidəsində:

***“Hər səhər qalxar göyə ah ilə əfğanım mənim,***
***Qərq olar qanda şəfəq tək çeşmi-giryanım mənim”***

– deməklə necə ağır bir həyat keçirdiyindən bəhs etmişdir.

Şair sarayda yaşasa da, xalqın yanında idi, onun ehtiyaclarına, qüssəsinə və kədərinə dərindən bələd olduğundan, dərdlərinə ürəkdən yanır və əsərlərində bunları dilə gətirirdi. Odur ki, Xaqaninin “İstəmirəm adımı çağırsınlar Xaqani, Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani”, – beytinin mənasını bəzi tədqiqatçılar şairin xalqa yaxınlığının, təkəbbürdən uzaq olduğunun və özünü “xalqın şairi” (Xəlqani) kimi tanıtdığının ifadəsi kimi izah edirlər. Onların fikrincə, Xaqani bu misralarla “Xaqan” (hökmdar) sözündən gələn adın ona ucalıq verməsindən çox, yoxsul və sadə insanlarla bir olmağı üstün tutduğunu bəyan edir.

“Xəlqani”ni onlar ərəbcə “xalq” (xəlq) sözü ilə əlaqəli hesab edib, “xalqla bağlı olan” və ya “xalqa xidmət edən” mənası daşıdığı kimi izah ediblər. Bəzi tədqiqatçıların fikrinə görə isə, Xaqani elə söz deməyib. Xaqani farsca yazıb və nə fars, nə də ərəb dilində “xəlqani” sözü var. Poetik tərcümədə “nimdaş paltarları bərpa edən” mənasında olan “xolqani” sözü yanlış oxunub və nəticədə, ortaya yanlış bir izah çıxıb.

Əslində, şairin sözügüdən beytinin bu cür izah olunmasına səbəb, bəlkə də, xalqla yaxınlığını, onun ehtiyaclarına, qüssəsinə və kədərinə bələdliyini, dərdlərinə ürəkdən yanğısını ifadə edən misralarının çoxluğu olmuşdur.

Xaqani Şirvanini Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanıdan təkcə şeirlərinin məzmunu deyil, həm də onların mükəmməl bədiiliyə malik olması, yüksək bədii keyfiyyəti idi. Onun qəzəl və rübailərində Azərbaycan poeziya məktəbinin ən yaxşı ənənələrinin əsası qoyulub:

**Xaqani, tutub dünyanı bidad, yeri,**
**Tərk et bu kədərxanəni sən, şad yeri.**
**Can verdi fələk sənə, səni qul etdi,**
**Qaytar sən onun borcunu, azad yeri.**

Xaqani Şirvani olduqca mürəkkəb yaradıcılığa və özünəməxsus bədii ifadə tərzinə malik bir şair olub. Azərbaycan klassikləri arasında ancaq o, əruz vəzninin, demək olar ki, bütün bəhrlərində şeir yazıb.

Xaqani qüdrətli bir şair olduğundan hələ öz dövründə geniş şöhrət qazanımışdı. Ona görə də zəmanəsinin və sönrakı dövrlərin ən böyük şairlərindən biri olan dahi Nizami Gəncəvi “dizi məktəb, könlü müəllim olan, himməti ilə önündə aslanı it kimi çökdürən” bu qüdrətli şairin yaradıcılığına çox böyük qiymət vermişdir. Tədqiqatlarda Xaqani Şirvani ilə Nizami Gəncəvi arasında səmimi dostluq əlaqələrinin olduğu barədə maraqlı məlumatlar var. Professor Fazil Qaraoğlu bu barədə yazır: “Xaqani və Nizami yaradıcılığı bir-birini təsdiq edən, tamamlayan, eyni bir dövrün poetik əks-sədası olan iki qüdrətli poetik mənbədir. Hər iki sənətkar dövrün ən mühüm məsələlərində eyni cəbhədə dayanır, eyni ideallarla çıxış edir. Xaqani ilə Nizamini təkcə saraylar deyil, bütün dövr, zaman, cəmiyyət narahat edir. Hər iki şair dövrünün hünərsiz, nadan hakimlərindən şikayətlərdə həmrəy və həmfikirdir. Hər iki şairin yaradıcılığında güclü bir inkarçılıq ruhu vardır. Xaqaninin “Töhfətül-İraqeyn”, “Mədain xərabələr” və başqa əsərlərində, Nizaminin “Xəmsə”sində və lirik əsərlərində gözəlliyi təsdiqə yönələn bu inkarın parlaq nümunələri ilə qarşılaşırıq”.

Təsadüfi deyil ki, Xaqani vəfat edəndə bir çox şairlər kimi Nizami Gəncəvi də ona matəm şeiri həsr etmişdir. O, təəssüf hissi ilə Xaqaninin ona deyil, özünün Xaqaniyə mərsiyə yazdığını qələmə almışdır. Təəssüf ki, həmin şeirin tək bircə beyti əsrləri aşaraq bizə gəlib çatmışdır. Beytin sətri tərcüməsi belədir: “Hey deyirdim ki, (bu dünyadan köçəndə) Xaqani mənim mərsiyəçim olsun. Təəssüf ki, (rehlət günündə) mən onun mərsiyəçisi oldum!”.

Dahi Nizaminin dilindən deyilən bu misralar Xaqaninin öz dövrünün nə qədər böyük söz ustadı olmasından və yüksək qiymətləndirilməsindən xəbər verir. Təkcə Nizami deyil, Azərbaycanın və Yaxın Şərqin bir çox adlı-sanlı şairləri onu ustad hesab edib və ayrı-ayrı əsərlərinə iftixarla nəzirələr yazıblar.

Xaqani Şirvani, hər şeydən əvvəl, vətənini dərin məhəbbətlə sevən bir şair idi. Şairin “Savalan dağının tərifi” şeiri vətənpərvərlik movzusunda yazılan, öz qiymətli fikri-bədii keyfiyyətləri etibarilə xüsusi yer tutan əsərlərdəndir:

***Səadət qibləsi Savalan dağı,***
***Şərəfdə Kəbətək qazanıb şöhrət.***
***Kəbə yaşıl geyər, ağ bürünər o,***
***Çünki ehram tutan geyər ağ xələt.***

“Şamaxı! Ey mənim sevimli yurdum” misrası ilə başlanan şeirində elə ilk misralardakı gözəl, səmimi xitabdan Xaqaninin bütün varlığı ilə doğma yurduna bağlılığının, Şamaxıya bəslədiyi sonsuz məhəbbətin yüksək bədii ifadəsini görmüş oluruq. Xaqani yaradıcılığında parlaq lirik lövhələrlə ifadəsini tapan vətənpərvərlik motivləri şairin doğma yurda və onun gözəlliklərinə sonsuz sevgisinin dolğun poetik təzahürüdür. Daim vətəni tərənnüm edən şairin şeirləri, əsərləri bügünə qədər sevilir və hər biri gələcək nəslə bir nümunədir.

Biz Azərbaycan xalqının olduqca zəngin mədəniyyət tarixini, Azərbaycan ədəbiyyatı dahilərinin əsərlərini əziz tutmalı, onların qədrini bilməli və dərindən öyrənməli, tarixi bir millət olaraq öz keçmişimizi, mütərəqqi yazarlarımızı böyük iftixar hissi ilə öyrənib təbliğ etməli, gənc nəslə ötürməliyik. Bu baxımdan Prezident İlham Əliyevin böyük Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi barədə 28 yanvar 2026-cı il tarixli sərəncamı onun yaradıcılığına verilən çox yüksək dəyərdir. İnanırıq ki, 2026-cı il Xaqani irsinin öyrənilməsi baxımından yaddaqalan bir il olacaq.

***Gülyaz ƏLİYEVA,***
***Filoloji Araşdırmalar və***
***Dil Monitorinqi Mərkəzinin əməkdaşı***

# “AZSIĞORTA”ASC-nin 2025-ci il dekabrın 31-nə mühasibat balansı (rüblük və illik)

*manatla*

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **334,967.50** | **611,579.89** |
| **Qeyri-maddi aktivlər** | **529,703.82** | **482,571.31** |
| **Təxirə salınmış vergi aktivləri** | **314,144.22** | **0.00** |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **9,799,851.64** | **15,411,395.33** |
| dövlət qiymətli kağızları | 8,299,868.42 | 11,300,982.91 |
| qeyri-dövlət qiymətli kağızları | 1,499,983.22 | 4,110,412.42 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | **312,500.00** | **364,583.00** |
| **Sair aktivlər** | **200,000.00** | **200,000.00** |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **11,491,167.18** | **17,070,129.53** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **2,144,954.83** | **1,737,023.99** |
| birbaşa sığorta üzrə | 303,171.95 | 229,603.94 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **615,717.49** | **243,373.56** |
| - təkrarsığortaçı üzrə | 458,744.56 | 114,658.41 |
| - təkrarsığortalı üzrə | 156,972.93 | 128,715.15 |
| büdcə üzrə | 892,001.03 | 599,018.98 |
| sair debitorlar | 334,064.36 | 665,027.51 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **13,222,549.16** | **10,714,579.46** |
| hesablaşma hesabı | 977,775.90 | 616,774.27 |
| valyuta hesabı | 163,055.03 | 40,540.12 |
| depozit hesablar | 12,000,000.00 | 10,000,000.00 |
| sair pul vəsaitləri | 81,718.23 | 57,265.07 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **3,000,000.00** | **0.00** |
| dövlət qiymətli kağızları | 3,000,000.00 | 0.00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **805,839.67** | **746,671.85** |
| qeyri-həyat sığortası sahəsi üzrə | 805,839.67 | 746,671.85 |
| **Sair qısamüddətli aktivlər:** | **35,629.04** | **46,075.60** |
| gələcək hesabat dövrlərinin xərcləri | 34,471.52 | 36,775.51 |
| təhtəl hesablar | 1,157.52 | 9,300.09 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **19,208,972.70** | **13,244,350.90** |
| **CƏMİ AKTİVLƏR** | **30,700,139.88** | **30,314,480.43** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **İlin əvvəlinə** | **İlin əvvəlinə** |
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **14,007,000.00** | **14,007,000.00** |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **4,825,413.16** | **5,575,646.81** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1,693,559.06 | 1,750,334.30 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 3,131,854.10 | 3,825,312.51 |
| ***Cəmi kapital*** | **18,832,413.16** | **19,582,646.81** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **9,188,464.16** | **7,927,394.14** |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 9,188,464.16 | 7,927,394.14 |
| **Qarşısıalınma tədbirləri fondu** | **1,611,172.61** | **1,623,675.34** |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **522,005.56** | **563,388.16** |
| təkrarsığortaçı üzrə | 522,005.56 | 563,388.16 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **11,321,642.33** | **10,114,457.64** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | **50,205.01** | **57,448.59** |
| **Kreditor borcları:** | **495,879.38** | **559,927.39** |
| sosial sığorta və təminat üzrə | 41,114.33 | 46,540.06 |
| digər məcburi ödənişlər üzrə | 21,056.17 | 49,749.77 |
| sair kreditorlar | 433,708.88 | 463,637.56 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **546,084.39** | **617,375.98** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **11,867,726.72** | **10,731,833.62** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **30,700,139.88** | **30,314,480.43** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | 0.00 | 0.00 |

**MƏNFƏƏT və ZƏRƏR HAQQINDA HESABAT (rüblük və illik)**

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **8,364,479.47** |
| birbaşa sığorta üzrə sığorta haqları | 7,829,536.97 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 481,499.56 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 1,450.25 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 51,992.69 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **1,201,902.20** |
| **İnvestisiya gəlirləri üzrə** | **2,682,443.39** |
| **Subroqasiya gəlirləri** | **404,686.73** |
| **Sair gəlirlər** | **659,789.09** |
| **CƏMİ GƏLİRLƏR** | **13,313,300.88** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **3,795,281.17** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 1,836,135.67 |
| qaytarılan sığorta haqları üzrə | 27,711.54 |
| tənzimləmə xərcləri | 259,160.28 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 1,615,375.95 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 56,897.73 |
| **İşlərin aparılması xərcləri** | **6,679,911.31** |
| **Sair xərclər** | **593,514.20** |
| **CƏMİ XƏRCLƏR** | **11,068,706.68** |
| **Maliyyə mənfəəti (zərəri)** | **2,244,594.20** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **2,244,594.20** |
| **Mənfəət vergisi** | **494,259.90** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **1,750,334.30** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | 2025-ci il |
|---|---|
| Sığorta və təkrarsığorta haqlarından daxilolmalar | 8,250,912 |
| Təkrarsığortaya ötürülən müqavilələr üzrə ödənişlər | -1,487,080 |
| Qaytarılmalı olan sığorta haqları üzrə ödənişlər | -13,332 |
| Sığorta və təkrarsığorta hadisələri üzrə ödənişlər | -2,097,371 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 341,519 |
| Komissiya ödənişləri | -65,143 |
| Əmək haqqı fondu üzrə ödənişlər | -4,562,400 |
| Ümumi və İnzibati xərclər üzrə ödənişlər | -1,739,122 |
| Marketinq və reklam xərcləri üzrə ödənişlər | -33,321 |
| Subroqasiya üzrə daxilolmalar | 404,218 |
| Digər daxilolmalar / ödənişlər | 129,878 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən xalis pul axını** | **-871,242** |
| **Əməliyyat fəaliyyətindən xalis pul axını** | **-871,242** |
| İnvestisiya fəaliyyətindən daxilolmalar | 2,358,373 |
| Qiymətli Kağızların alışı | -2,610,429 |
| Banklarda yerləşdirilən depozitlər | -10,000,000 |
| Banklarda yerləşdirilən depozitlərin qayıdışı | 12,000,000 |
| Əsas vəsait və qeyri-maddi aktivlərin alışı | -384,626 |
| İdarəçilik xərcləri | -4,871 |
| Digər müəssisələrə investisiya qoyuluşu | -52,083 |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul axını** | **1,306,363** |
| Dividend ödənişi | -950,000 |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul axını** | **-950,000** |
| Məzənnə fərqi (müsbət) | 17,866 |
| Məzənnə fərqi (mənfi) | -12,657 |
| **Pul və pul vəsaitlərində xalis artma / (azalma)** | **-509,670** |
| Dövrün əvvəlinə pul və pul vəsaitləri | 1,222,549 |
| Dövrün sonuna pul və pul vəsaitləri | 712,879 |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR BARƏDƏ HESABAT**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | CƏM |
|---|---|---|---|
| **2025-ci il yanvarın 1-nə qalıq** | **14,007,000** | **4,825,313** | **18,832,313** |
| Dövr ərzində mənfəət və ya zərər | 0 | 1,750,334 | 1,750,334 |
| Ödənilmiş dividend | 0 | 1,000,000 | 1,000,000 |
| **2025-ci il dekabrın 31-nə qalıq** | **14,007,000** | **5,575,647** | **19,582,647** |

**“Azsığorta” ASC-nin rəhbərliyinə və cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə Müstəqil Auditorun Hesabatı Rəy**

Biz “Azsığorta” ASC-nin (bundan sonra “Cəmiyyət”) 2025-ci il dekabrın 31- nə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Milli Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq. Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 2025-ci il dekabrın 31-nə cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Milli Standartlarına (MHMS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir. Rəyin bildirilməsi üçün əsas Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın “Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti” bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi “Etika məcəlləsinin” (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik.

Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir. Maliyyə hesabatlarına görə rəhbərliyin və cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti Rəhbərlik hazırkı Maliyyə Hesabatlarını MHMS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan Maliyyə Hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır. Maliyyə Hesabatlarının hazırlanması zamanı rəhbərlik, cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən Maliyyə Hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır. Cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin Maliyyə Hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar. Maliyyə Hesabatlarının auditinə görə auditorun məsuliyyəti Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq cəmiyyətin Maliyyə Hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə cəmiyyətin Maliyyə Hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin. Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz: ►

Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq cəmiyyətin Maliyyə Hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur. ►

Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik. ►

Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər. ► Cəmiyyətin Maliyyə Hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və Maliyyə Hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk. Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

**27 fevral 2026-cı il Bakı, Azərbaycan Respublikası E.Cəfərov**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 43 (31012) 6 mart 2026-cı il, cümə

## İDMAN

### Dünyanın idman gimnastları Bakıda

**Dünən Bakıda idman gimnastikası üzrə Dünya Kubokuna start verilib.**



Milli Gimnastika Arenasında təşkil olunan yarışın startından əvvəl Azərbaycanın Dövlət Himni səsləndirilib.

İdmançılar Milli Gimnastika Arenasında təşkil olunan yarışların ilk günündə təsnifat mərhələsində qüvvələrini sınayıblar.

Turnirdə Azərbaycanı təmsil edən iki gimnast adını finala yazdırıb. Belə ki, Nikita Simonov halqalarda, Dəniz Əliyeva isə dayaqlı tullanmada həlledici raundda iştirak hüququ qazanıb. Bu mərhələnin yarışları martın 7-də keçiriləcək və ilk medalçılar müəyyənləşəcək.

30-dan çox ölkədən idmançıların mübarizə apardığı Dünya Kuboku martın 8-də başa çatacaq.

### Azərbaycan Kubokunun 1/2 finalçıları

**Futbol üzrə Azərbaycan Kubokunda 1/4 final mərhələsinə dünən yekun vurulub.**



Sonuncu oyun günündə iki cavab matçı keçirilib. Günün ilk qarşılaşmasında "Kəpəz" "Turan Tovuz"u qəbul edib. Yevlax şəhər stadionunda baş tutan qarşılaşmada qonaqlar gəncəlilərin qapısından 2 top keçirib. Görüşün 13-cü dəqiqəsində Xorxe Silva, 51-ci dəqiqəsində Hayderson Hurtado fərqlənib.

İki görüşün nəticəsinə əsasən 3:0 hesabı ilə qalib gələn tovuzlular yarımfinalda "Zirə" ilə üz-üzə gələcək.

Günün ikinci matçında "Sabah" səfərdə "Qəbələ"nin qonağı olub. Qəbələ şəhər stadionunda keçirilən qarşılaşmanın əsas (2:2) və əlavə vaxtında (3:3) qalib müəyyənləşməyib. 11 metrlik cərimə zərbələrini daha yaxşı yerinə yetirən Bakı klubu (4:2) yarımfinala vəsiqə qazanıb.

Bakıda gerçəkləşən ilk qarşılaşma qolsuz bərabərliklə bitdiyindən 2 oyunun nəticəsinə görə, "Sabah" növbəti raundda "Qarabağ"a rəqib olacaq.

### Xizək alpinizmində 2-ci gün

**Şahdağda keçirilən xizək alpinizmi üzrə Avropa çempionatında növbəti qaliblər bəlli olub.**



İdmançılar ikinci yarış günündə qarışıq estafet növündə qüvvələrini sınayıblar. Yeniyetmə oğlan və qızlar arasında Almaniya 1-ci, İspaniya 2-ci, Rusiya təmsilçiləri 3-cü pillədə qərarlaşıblar. Böyüklərin mübarizəsində isə İsveçrə idmançıları Avropa çempionu olublar. İtaliya 2-ci, Almaniya 3-cü yeri tutub.

Qeyd edək ki, Azərbaycanı qarışıq estafet növündə Nəzrin Qəribova və Nəbiyulla Qələbəqiyev təmsil edib.

Martın 8-nə kimi davam edəcək yarışlarda U-18 və U-20 kategoriyasından olan qadınlar və kişilər fərdi və vertikal növlərdə mübarizə aparacaqlar.

Xatırladaq ki, turnir Beynəlxalq Xizək Alpinizmi Federasiyasının, Azərbaycan Qış İdman Növləri Federasiyasının və "Şahdağ" Turizm Mərkəzinin təşkilatçılığı ilə keçirilir. Yarışda Azərbaycanla yanaşı, Türkiyə, İtaliya, İsveçrə, Sloveniya, Almaniya, İspaniya, Avstriya, Norveç, Bolqarıstan, Çexiya, Polşa, Rusiya, Slovakiya, Yunanıstan, Andorra və İsveçdən ümumilikdə 124 idmançı iştirak edir.

*Qabil YUSİFOĞLU*
*XQ*

*6 Mart Beynəlxalq Stomatoloq Günüdür*

# Sağlam dişlər gümrahlığa və gözəlliyə qapı açır

**Ağız və diş sağlamlığının qorunması insan həyatında önəmli məsələdir. Bu sahədə çalışan stomatoloqlar cəmiyyətin sağlam gələcəyi üçün mühüm missiya daşıyırlar. Elə buna görə də hər il 6 Mart Beynəlxalq Stomatoloq Günü dünyada bu peşənin əhəmiyyətini vurğulamaq və diş sağlamlığına diqqəti artırmaq məqsədilə qeyd olunur.**



Bu tarix təsadüfi seçilməyib. Stomatologiya tarixində mühüm hadisələrdən biri məhz 1790-cı il martın 6-da ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun şəxsi diş həkimi Con Qrinvud tərəfindən stomatoloji bor kəşf edilib. Yeni ixtira ayaqla hərəkətə gətirilən iri bormaşın olub. Həmin stomatoloji alətin köməyi ilə Qrinvud tərəfindən Corc Vaşinqton üçün protez diş hazırlanıb. Ən maraqlısı odur ki, cihazın hərəkətə gətirilməsində Qrinvud öz anasına aid cəhrənin təkərindən istifadə edib. Bu yenilik sonralar stomatologiyanın inkişafında mühüm mərhələ sayılıb və müasir diş müalicəsinin əsasını qoyan addımlardan biri kimi tarixə düşüb. Elektrik bormaşın isə həmin ixtiradan bir əsr sonra, 1907-ci ildə istifadəyə verilib.

Stomatologiya, ümumiyyətlə, çox qədim köklərə malik tibb sahələrindən biridir. Alimlərin araşdırmalarına görə, təxminən 7 min il əvvəl insanlar diş ağrısını azaltmaq üçün primitiv alətlərdən istifadə ediblər. Qədim sivilizasiyalarda diş problemləri müxtəlif üsullarla müalicə olunmağa çalışılırdı. Məsələn, qədim Misirdə diş ağrısının səbəbi kimi bəzən mistik amillər göstərilir, təbii qarışıqlar və müxtəlif vasitələrdən istifadə edilirdi.

Maraqlı faktlardan biri də ilk diş fırçalarının XV əsrdə Çində hazırlanmasıdır. Bambuk saplı və heyvan tüklərindən hazırlanan bu vasitələr dişlərin təmizlənməsi üçün istifadə olunurdu. Müasir diş fırçalarının geniş yayılması isə XX əsrdə sintetik materialların tətbiqindən sonra mümkün oldu. Bu gün isə stomatologiya sahəsində texnologiyalar sürətlə inkişaf edir, lazer müalicəsi, rəqəmsal diaqnostika və estetik stomatologiya kimi yeniliklər insanlara daha rahat və effektiv müalicə imkanı yaradır.

Statistik məlumatlara görə, dünya əhalisinin böyük əksəriyyəti həyatının müəyyən dövründə diş çürüməsi problemi ilə qarşılaşır. Bu isə diş sağlamlığının qorunmasının nə qədər vacib olduğunu bir daha göstərir.

**Mövzu ilə bağlı Bakının Yasamal rayonunda yerləşən "FN dental" klinikasının stomatoloqu, gənc və savadlı həkim Fərid Həsrətli bildirir ki, xüsusilə son illərdə uşaqlarda erkən yaşlarda diş çürüməsi halları daha çox müşahidə olunur:** "Uşaqlarda erkən yaşlarda diş çürüməsinin əsas səbəblərindən biri şirniyyatların və qazlı içkilərin həddindən artıq istifadəsi, eləcə də ağız gigiyenasına lazımi diqqətin yetirilməməsidir. Bəzən valideynlər süd dişlərini müvəqqəti hesab etdikləri üçün onların müalicəsini vacib saymırlar. Halbuki süd dişlərinin vaxtından əvvəl çürüməsi və itirilməsi gələcəkdə daimi dişlərin düzgün formalaşmasına mənfi təsir göstərə bilər.

Diş sağlamlığının qorunması üçün uşaqlara erkən yaşlardan düzgün gigiyena vərdişləri öyrədilməlidir. Gündə iki dəfə dişləri fırçalamaq, şəkərli qidaların qəbulunu məhdudlaşdırmaq və ildə ən azı iki dəfə stomatoloq müayinəsindən keçmək bu problemlərin qarşısını almaqda mühüm rol oynayır".

Həkimin sözlərinə görə, müasir stomatologiyada profilaktika xüsusi əhəmiyyət daşıyır. Çünki diş problemlərinin erkən mərhələdə aşkarlanması onların daha asan və ağrısız müalicəsinə imkan yaradır.

Stomatoloq onu da bildirdi ki, insanın diş minasının bədəndə ən möhkəm toxuma olduğu elmi şəkildə sübut edilib. Lakin düzgün qulluq edilmədikdə bu möhkəm qat belə zədələnə bilər. Buna görə də ağız gigiyenasına gündəlik diqqət yetirilməsi vacibdir.

Sağlam dişlər yalnız tibbi məsələ deyil, həm də sosial həyatın mühüm hissəsidir. İnsanların ilk ünsiyyəti zamanı diqqətçəkən amillərdən biri məhz təbəssümdür. Səliqəli və sağlam dişlər isə insanın özünəinamını artırır və ünsiyyətdə müsbət təəssürat yaradır.

Bəli, stomatologiya tibbin mühüm sahələrindən biridir. Bəşəriyyətin yalnız kiçik bir hissəsi xəstə diş, xəstə diş əti, ağız boşluğu ilə əlaqədar problemlərdən yan keçir. Yer kürəsi əhalisinin böyük bir hissəsi ömründə ən azı bir dəfə də olsun, nə vaxtsa stomatoloq kreslosunda oturaraq dişlərini müalicə etdirməyə məcbur olur.

Beynəlxalq Stomatoloq Günü hər birimiz üçün vacib bir mesajdır: sağlam həyat kiçik vərdişlərdən başlayır. Dişlərimizə ayırdığımız bir neçə dəqiqəlik gündəlik qayğı uzun illər sağlam təbəssümün qorunmasına xidmət edə bilər. Çünki sağlam təbəssüm yalnız gözəllik deyil, həm də sağlam həyatın mühüm göstəricisidir.

*Nurəngiz ADİLQIZI*
*XQ*

*Bağbanlara məsləhət*

# Bağlar bizi çağırır

**Artıq soyuq qış fəsli öz dövranını başa vurur və qarşıdan hamımızın səbirsizliklə gözlədiyi füsunkar yaz fəsli gəlir. Ana yurdumuzun barlı-bərəkətli meyvə bağlarında isə yaz aylarında bağbanlarımızın qayğıları daha da artır. Belə ki, onlar bol məhsul almaq üçün erkən yaz-becərmə işlərini aqroxteniki qaydalara uyğun olaraq vaxtında və keyfiyyətlə başa çatdırmalıdırlar.**

Redaksiyamız ölkəmizin aqrar sektorunda çalışan fermer və torpaq pay mülkiyyətçilərinə əməli kömək göstərmək məqsədilə tanınmış alimlərimizin, təcrübəli mütəxəssislərin rəy və təkliflərini dərc edir. Bu dəfə **aqrar məsələlər üzrə təcrübəli ekspert, biologiya üzrə fəlsəfə doktoru Mədət Qurbanovdan** hazırda Azərbaycanın müxtəlif bölgələrində becərilən çəyirdəkli meyvə bağlarında həyata keçirilən yaz-becərmə işləri haqqında məlumat verməsini xahiş etdik. Hörmətli alim-aqronom dedi:

– Qeyd etmək lazımdır ki, 2010-cu illərdən başlayaraq ölkəmizin ayrı-ayrı rayonlarında müasir tələblərə cavab verən texnologiyalar əsasında 10 min hektarlarla gilas, şaftalı, ərik, gavalı, albalı, alça bitkilərindən ibarət olan intensiv tipli çəyirdəkli meyvə bağları salınmışdır.

Belə müasir bağlarda hazırda müxtəlif xarici ölkələrdən gətirilmiş 65-ə qədər yeni gilas, 30-a qədər şaftalı (nektarin), 10-a qədər ərik, 20-yə qədər gavalı və 5-ə qədər albalı və alça sortları becərilir. Bağlarda aqrotexniki qaydalara əməl etməklə qulluq işləri xüsusi diqqət tələb edir və hər bir tədbir vaxtında yerinə yetirilməlidir.

Xatırladaq ki, fermerlər erkən yaz dövründə, yəni qarşıdakı 2 həftə ərzində bağlarda cərgə aralarının diskilənməsi və frezlənməsi (torpağn yumşaldılması) işlərini, həmçinin müvafiq oalraq bitkilərin aralarının da frezlənməsi işlərini başa çatdırmalıdırlar. Bağlarda budama və formavermə işlərinin sona çatdırılması ilə ağaclar qurumuş, xəstə budaqlardan təmizlənir və çətirin içərisinə normal işığın düşməsi təmin edilir.

Novruz bayramınadək havanın temperaturunun yüksəlməsi, eləcə də rütubətin çoxalması nəticəsində bir çox xəstəliklərin, o cümlədən klasterosporioz (deşikli qonur ləkə), monilioz (moniliya yanığı), unlu şeh, polistiqmoz, cibcibə və digər göbələk mənşəli xəstəliklərin, habelə bakterial xərçəng xəstəliyinin kütləvi inkişafının qarşısını almaq və tamamilə məhv etmək məqsədi ilə bağlarda mütləq kimyəvi çiləmə işi aparılmalıdır.

Çəyirdəkli meyvə bağlarında qışlama dövründən ayılmaqda olan müxtəlif yastıca növləri – gənələr, mənənələr, uzunburun böcəklər, şərq və gavalı meyvəyeyənləri, tripslər və s. zərərvericilərə qarşı çiçəkləməyə ən azı 20-22 gün qalmış qışlıq mineral yağ preparatından 30-35 litri 1 ton suda qarışdıraraq çiləmək lazımdır. Bu kimyəvi mübarizə tədbirini həyata keçirməklə bağbanlar yuxarıda adları qeyd olunmuş zərərvericiləri məhv etməklə yanaşı, həm də çiçəkləmə fazasını 2-3 gün gecikdirə bilərlər ki, bu da yazda baş verə biləcək donvurmanın fəsadlarının qarşısını almaqda bağbanlara kömək edə bilər.

Belə bir məqamı da qeyd etmək lazımdır ki, çiçəkləmə ərəfəsində yuxarıda adları qeyd olunmuş xəstəlik və zərərvericilərin kökünü kəsmək, həmçinin meyvə tutumunu artırmaq üçün bağlara müvafiq kimyəvi məhlullar çilənməlidir.

Çiçəkləmə zamanı açılmış çiçəklərin şaxtalara həssas olmasını nəzərə alaraq qəfil don və şaxtaların zərərlərinin qarşısını almaq üçün bağın müxtəlif yerlərinə küləş, saman, nəm ot qalıqları qoyulmalıdır. Onların



yandırılmasından əmələ gələn tüstü ağaclardakı çiçəkləri qorumaq üçün səmərəli vasitə ola bilər.

Nəhayət, çiçəkləmənin sonunda xəstəlik və zərərvericilərin qarşısını almaq və meyvə tutumunu normal vəziyyətdə saxlamaq üçün yuxarıda verilmiş kompleks müalicə tədbirini mütəxəssislərlə məsləhətləşərək təkrarlamaq lazımdır.

Sonda ümid edirəm ki, bağbanlar bütün lazımi becərmə tədbirlərini vaxtında həyata keçirməklə bağlarda bol məhsul yetişdirə bilərlər.

*Hazırladı:*
*Məsaim ABDULLAYEV*
*XQ*

## HAVA

# Bahar nəfəsli cümə

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 3-6, gündüz 10-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 759 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.



Havanın temperaturu gecə 2-7, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## "Azneftmaşservis" ASC səhmdarlarının nəzərinə!

1 may 2026-cı il saat 9.00-da "Azneftmaşservis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. ASC-nin idarəetmə orqanlarının 2025-ci ilə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı. Dividendlərin bölüşdürülməsi.
2. İllik hesabatların təsdiq edilməsi.
3. Təşkilati məsələ. ASC-nin idarəetmə orqanlarının seçilməsi.
4. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyindəki məsələlərə aid materiallarla tanışlıq üçün iş günlərində ASC-nin rəhbərliyinə müraciət etmək olar.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu:** (012) 514-19-50.

**Ünvan:** Bakı şəhəri, Dərnəgül qəsəbəsi, 2096-cı məhəllə, 507-ci küçə, ASC-nin inzibati binası.

*"Azneftmaşservis" ASC-nin idarə heyəti*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2956
SİFARİŞ 322
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00